# ELMİ TƏDQİQAT


Beynəlxalq Onlayn Elmi Jurnal

SCIENTIFIC RESEARCH

International Online Scientific Journal

aem.az

AEM

e-ISSN: 2789-6919


## VIII ELMİ QAYNAQLAR
## TEZİSLƏR TOPLUSU

## VIII COLLECTION OF THESES ON
## SCIENTIFIC SOURCES

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Onlayn Elmi Jurnal**
**İmpakt Faktor: 1.172**

---

# VIII ELMİ QAYNAQLAR

## Tezislər toplusu

DOI: https://doi.org/10.36719/2024/VIII

# SCIENTIFIC RESEARCH

**International Online Scientific Journal**
**Impact Factor: 1.172**

---

## VIII Collection of Theses on

# SCIENTIFIC SOURCES

**Bakı – Baku**
**2024**

Jurnal 01.03.2021-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal was included in the register of Press publications of the Ministry of Justice of the Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Metbuat Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tezis.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6910**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
sevincsadigova@gmail.com

## Redaktor köməkçiləri

**PhD Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
konul_salmanova@mail.ru

**Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

## Dillər üzrə redaktorlar

**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**PhD Türkan İSMAYILOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof.Dr. Cavid QASIMOV,** Van Yüzüncü Yıl Üniversitesi / Türkiyə
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elçin İBRAHİMOV,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof.Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI,** ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoiy Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA,** Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Amil ƏSGƏROV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əlöysəd ƏSGƏROV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aliyə RZAYEVA,** AR ETN, Təbii Ehtiyatlar İnstitutu / Azərbaycan
**Assoc.Prof. Dr. Əsəd QURBANLI,** AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu/ Azərbaycan
**Assoc. Prof. Dr. Toğrul XƏLİLOV**, AMEA Naxçıvan bölməsi / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**PhD Seymur MEŞAİK**, Gəncə Dövlət Universiteti / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Editor

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
sevincsadigova@gmail.com

## Assistant editors

**PhD Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
konul_salmanova@mail.ru

**Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

## Language editors

**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**PhD Turkan ISMAYILOVA**, Nakhchivan State University / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Haji HASANOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Javid GASIMOV,** Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yaqut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof.Dr. Elchin IBRAHIMOV,** Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Rafiq CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Akbar AGAYEV,** Sumgait State University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Faig SHAHBAZLI,** Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoi State Pedagogical İnstitute / Uzbekistan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA,** Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan

**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi SHARIFOV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA,** Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Amil ASKEROV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aloysad ASGAROV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA,** Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Natural Resources / Azerbaijan
**Assoc. Prof. Dr. Asad GURBANLI,** ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Toghrul KHALILOV**, Nakhchivan branch of ANAS / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**PhD Seymur MESHAIK,** Ganja State University / Azerbaijan

DOI: https://doi.org/10.36719/2024/VIII

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**İltifat Kərimov**
Lənkəran Dövlət Universiteti
texnika üzrə fəlsəfə doktoru
i.karimov58@mail.ru
**Səidə Rüstəmzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
saida.rustamzada@gmail.com

## TƏLİM METODLARI İLƏ TƏLİM TEXNOLOGİYALARININ QARŞILIQLI ƏLAQƏSİ

***Açar sözlər:*** *metod, texnologiya, interaktiv təlim, ənənəvi təlim*

***Keywords:*** *method, technology, interactive training, traditional training*

Bu gün pedaqoji sahədə tez-tez təlim texnologiyaları ifadəsi işlənir. O, XX əsrin II yarısından sonra özünə pedaqoji terminlər sırasında yer tutmuşdur və təlim zamanı işlədilən texniki vasitələr (“Oqonyok” tipli riyazi əməliyyat cihazları, linqofon, maqnitofon, valçaldıran, epidioskop, kodoskop, televizor və s.) kimi başa düşülmüşdür. Zaman keçdikcə texnologiyalar təkmilləşərək, yeni məzmun və mahiyyət kəsb etmişdir. O nədir? Təlimin texniki vasitələrinin daha da təkmilləşmiş növləridirmi, məsələn, kompüterdirmi? Xeyr. Bu gün yeni təlim texnologiyaları dedikdə texniki vasitələr deyil, tamam yeni iş tərzləri başa düşülür. Və dərsi həmin tərzlər

DOI: https://doi.org/10.36719/2024/VIII

əsasında keçən müəllim yeri gəldikcə texniki vasitələrdən də istifadə edə bilər. Deməк, yeni təlim texnologiyaları daha böyük anlayışdır və texniki vasitələrdən istifadə həmin prosesin içində yerləşə bilir. Elə buradaca qeyd edək ki, elmi-pedaqoji ədəbiyyatda təlim texnologiyaları anlayışına münasibət fərqlidir.

Ümumiyyətlə, alimlərdən bir qrupu onları metod, başqa bir qrupu isə yeni texnologiyalar, yaxud yeni təlim texnologiyaları adlandırır. Həmçinin texnologiya, yaxud metod adlandırdığımız bu iş formaları sovet təhsil sistemində priyom (tərz, yol, metodun bir hissəsi) deyə təqdim edilirdi. Elə indi də onları metod deyil, priyom adlandıran alimlər vardır.

Blok (binar) dərslər, əqli hücum, sosioloji tədqiqat, sənədlərlə iş, təqdimat (prezentasiya), qərarlar ağacı, ideyalar xalısı,  debat və s. yeni təlim texnologiyalarıdır.

Qeyd etmək lazımdır ki, interaktiv ifadəsi pedaqoji termin kimi son onilliklərdə işlənsə də, evristik müsahibə, problemli situasiya metodları vasitəsi ilə şagirdlərin təfəkkürünə istinad edərək bütün sinfi qarşılıqlı fəaliyyətə kökləyən və interaktiv dərslər quran müəllimlər həmişə olub, 70-ci illərdə də vardı. Onlar qazandıqları təcrübədən örnək götürərək yeni metodlar, priyomlar da yaradırdılar; fəqət iş təcrübələri məqalələr vasitəsilə yayıldısa da, yetərincə təbliğ olunmalıdır.

DOI: https://doi.org/10.36719/2024/VIII

**Aynurə Məmmədova**
AMEA Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutu
aynuramammadova@gmail.com

# ŞƏRQ MƏDƏNİYYƏT TARİXİNİN NƏZƏRİ TƏHLİLİ

***Açar sözlər***: *mədəniyyət, Şərq, ədəbiyyat, mənəvi, qədim*
***Keywords***: *culture, east, literature, spiritual, ancien*

Şərq mədəniyyəti formalaşarkən yer üzündə əhali olduqca az idi. Şərqli günəş enerjisi ilə zəngin olan olduqca gözəl, münbit bir ərazidə yaşayırdı. Meşələr, düzlər ov ilə dolu idi. İnsanın ən mühüm sərvəti onun fiziki gücü idi. İnsanlar öz münasibətlərini daha çox özlərinə məxsus fiziki güclə müəyyənləşdirirdilər. Göy üzündə günəş var idi, yer üzündə gözəl çoğrafi şərait, gül - çiçək, bağ, meşə və s. Şərqli, "kosmo" əlaqələri daha güclü, "bio" sistem kimi möhkəm, təbiətdəki harmoniya ilə təmasda, nisbətən sərbəst "psixo", daha sadə, primitiv cəmiyyətdəki "sosial" varlıq kimi formalaşırdı.

Qədim xalqlardan biri hesab edilən və Şərq sivilizasiyasının aparıcı dirəklərindən olan çinlilər və hindlilər də «mədəniyyət» anlayışını öz fəlsəfi nəzəriyyə və təlimlərinə müvafiq mənalandırmışlar. Belə ki, qədim çinlilərdə bu söz «jen», Hindistanda «dharma» anlayışı ilə, türklərdə isə «kultür» formasında ifadə olunur. Çox qəribədir ki, mənşəcə soy kökü türk olan bizim xalqın dilində «kultura» anlayışı "mədəniyyət" sözü ilə ifadə olunaraq ərəb dilindən gətirilib. Belə ki, ərəb dilində "mədinətun" anlayışı "şəhər" sözü ilə bağlıdır. Bu, xam vəziyyətində olanın insan əli ilə dəyişdirilməsi, təkmil formaya salınması mənasını verir. Təsadüfi deyildir ki, bütün dinlər məhz ilk dəfə

DOI: https://doi.org/10.36719/2024/VIII

Şərqdə yaranmışdır. Şərqlilər daha təbii yolla, uzun əsrlər boyu öz mədəniyyətlərini formalaşdırırdılar. Şərq mədəniyyəti təbiətə daha yaxındır. Şərq musiqisində, rəssamlığında, ədəbiyyatında, elmində, ayinlərində, adət-ənənələrində təbiətdən əxz olunma, təbiətdən bəhrələnmə daha güclüdür. Şərq mədəniyyətinin mahiyyəti, əsas prinsipləri ahəng, harmoniya qanunları ilə formalaşır. Şərq mədəniyyətində günəş amili, günəş enerjisinin təsiri daha güclüdür. Yalnız mənəvi sahədə deyil, maddi mədəniyyətin sivilizasiyanın mükəmməlləşməsində də yüksək səviyyə qazanmış Şərq mədəniyyətinin minillık inkişafına baxmayaraq, Şərqin qazandığı bütün uğurlar dəqiq və təbiət elmlərinin zəif inkişafı şəraitində təzahür etmişdir. Mənəvi yaradıcılıq: fəlsəfə, incəsənət, hətta texnika sahəsində Şərqin əldə etdiyi qeyri-adi nailiyyətlərin mümkünlüyü üçün Şərqin nə qədər nəhəng, demək olar ki, fövqəlbəşəri gərginlik çəkdiyi, müstəsna əhəmiyyətə malik olan intuisiyaya qadirliyi məlumdur. Bu sahədə o, zəif inkişaflı nəzəriyyəni böyük təcrübə ilə əvəzləmişdir. Maraqlıdır ki, elmi ədəbiyyatlarda çox vaxt sivilizasiyanı Qərblə bağlayırlar, Şərqin nailiyyətlərini isə bir növ kölgədə saxlayırlar. Belə ki, Şərqin uğurları Qərbin nailiyyətlərindən heç də az deyil, bəzən daha çoxdur. Lakin onu demək lazımdır ki, bu nailiyyətlərin əsasları müxtəlifdir. Çünki, hər hansı mədəni inkişaf, bu nailiyyətləri qazanmaq üçün göstərilən fəaliyyətlər bir-birindən müəyyən qədər fərqli olmuşdur. Yalnız mənəvi nailiyyətlərin çox az hissəsi eyni yollarla qazanılmışdır. Dövlət də ilk dəfə Qədim Şərqdə meydana gəlmişdir. Qədim Şərq dövlətləri Misir, İkiçayarası (Mesopotamiya), Aralıq dənizinin şərqində, Kiçik Asiya, İran, Hindistan, Çin və digər ölkələrin ərazisində meydana gəlmişdi. Qədim ölkələrin siyasi və ictimai-iqtisadi problemlərinin, mədəniyyət və etnik proseslərinin öyrənilməsi bu ölkələrin ayrı-ayrılıqda tarixi, ümumi, fərdi və özünəməxsus cəhətləri barədə təsəvvür

DOI: https://doi.org/10.36719/2024/VIII

yaratmağa imkan verir. Fərqli cəhətlərinə baxmayaraq, qədim Şərq ölkələri vahid orqanizm idi, biri digəri ilə siyasi, iqtisadi, mədəni və etnik təmasda inkişaf tapırdı. Qədim Şərq dövlətləri bir neçə inkişaf mərhələsi keçmişlər. İlkin mərhələni sinifli cəmiyyət və dövlətin meydana gəlməsi dövrü təşkil edir. Bu mərhələnin e.ə. IV minilliyin sonu - III minilliyin xronoloji çərçivəsində müəyyənləşdirmək olar. Bu zaman Şərqin erkən dövlət qurumları meydana gəlmiş və bəziləri həmin dövrdə də tənəzzülə uğramışlar. Bununla yanaşı, quldarlıq ictimai-iqtisadi münasibətlərin ilk ünsürləri özünü büruzə vermiş, işğalçılıq siyasətinin əsası qoyulmuş, xarici və daxili ticarət inkişaf etmişdi. Orta mərhələ yeni, əvvəlki dövrə nisbətən sayca daha çox dövlət qurumlarının meydana gəlməsi, işğalçılıq müharibələrinin güclənməsi, quldarlıq istehsal üsulunun bərqərar olması, siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsi və nəhayət, bu dövrün dövlətlərinin tənəzzülə uğraması ilə səciyyələnir. Eyni zamanda, "imperiya" xüsusiyyətli dövlətlərin yaradılmasına meyl artır. Bu mərhələ xronoloji cəhətdən e.ə. II və I minillikləri əhatə edir. Bundan sonrakı mərhələdə rəqabət aparan dövlət və sülalələr meydana gəlir, quldarlıq quruluşunun böhranı başlayır və feodalizm ünsürləri üzə çıxır. Eyni zamanda, bir sıra qədim dövlətlər siyasi təsir dairəsini genişləndirmək uğrunda mübarizə aparır. Bu mərhələ e.ə. IV əsrdən eramızın III-IV əsrlərinə qədər davam edir.

Qədim Şərqdə mədəniyyət və incəsənətin müxtəlif sahələri inkişaf etmişdi. Əfsanəvi nağıllar janrı, tarixi-əfsanəvi ədəbiyyat nümunələri, ədəbiyyat, fəlsəfi fikirlər, təsviri sənət, elmi istiqamətlər qədim Şərq xalqlarının fəaliyyətinin və bədii yaradıcılığının bəhrəsi olmuşdur. Xüsusilə Babil, Hind, Misir, Fələstin ölkələrindən bu sahəyə aid zəngin təsviri sənət nümunələri dövrümüzə gəlib çatmışdır. İlk yazı növü - piktoqrafiya (şəkli yazı, heroqlif) qədim Şərqdə icad edilmişdir. Qədim

DOI: https://doi.org/10.36719/2024/VIII

şumerlər, hindlilər, elamlar piktoqrafik yazı sistemini yaratmış və bundan təsərrüfat hesabı aparmaq uçun istifadə etmişlər. E.ə. IV minilliyin sonunda piktoqrafiya artıq tətbiq olunurdu. Piktoqrafiyanın ümumi oxşar cəhətlərinə baxmayaraq, onu işlədən hər bir xalqın ayrılıqda müstəqil yazı yaradıçılığı olmuşdur. Şərq tarixinin son dövründə ən geniş yazı sistemi arami yazısı olmuşdu. Arami dili Şərqdə beynəlxalq dilə çevrilmişdi. Beləliklə, bəşəriyyətin minilliklər ərzində yaratdığı, qoruyub saxladığı, zənginləşdirdiyi, bir-birinə verdiyi və gələcək nəsillərə çatdırdığı mənəvi sərvətlərin və dəyərlərin öyrənilməsi və mənimsənilməsi problemləri müqayisəli kulturologiya baxımından araşdırılması, milli adət və ənənələrin, dini xüsusiyyətlərin, beynəlxalq mədəni əlaqələrin, qədim dövrün mədəniyyət və incəsənət abidələrinin Şərq mədəniyyətinin ayrılmaz hissədir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 13-16
VII Collection of Theses on “Scientific Sources” / 13-16
DOI: https://doi.org/10.36719/2024/VIII

**Nuray Məmmədli**
Naxçıvan Dövlət Universiteti
nuray.memmedli31@gmail.com
**Nərmin Novruzova**
Naxçıvan Dövlət Universiteti
nerminorucova34@gmail.com

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ MUXTAR RESPUBLİKA SƏNAYESİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Açar sözlər:*** *Heydər Əliyev, Naxçıvan, iqtisadiyyat, sənaye, dövr, münasibət*
***Keywords:*** *Heydar Aliyev, Nakhchivan, economy, industry, period, relationship*

XX əsrin 90-cı illəri Azərbaycan üçün mürəkkəb bir dövr olması ilə xarakterizə olunur. Bu dövrdə Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuş və bir milyondan çox əhali qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Müstəqilliyin ilk illərində Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi cəhətdən çətinliklərlə üzləşmişdir. İdarəetmə sistemində olan dəyişikliklər, keçmiş SSRİ-nin dağılması, buraya daxil olan respublikalar arasında müqavilə münasibətlərinin pozulması və s. amillər böhranın başlanmasına və sonrakı illərdə daha da dərinləşməsinə səbəb olmuşdur. Bütövlükdə Azərbaycanı bürüyən bu böhran Naxçıvana da öz təsirini göstərmiş, böhran nəticəsində cəmiyyət həyatının bütün sahələri iflic vəziyyətə düşmüşdür.

Azərbaycan - Ermənistan, Dağlıq Qarabağ müharibəsinin başlanması nəticəsində iqtisadiyyatımız ciddi sarsıntılara məruz qalmışdır. 1988-1992-ci illəri əhatə edən dörd il ərzində

DOI: https://doi.org/10.36719/2024/VIII

Azərbaycanın ümumi ərazisi 31,6 min kv. km olan 26 inzibati rayonunda müharibə getmişdir. 1988-ci ilin məlumatına görə Azərbaycanı əhalisinin 26,8 %-i, istehsal olunan sənaye məhsulunun 11 %-i, kənd təsərrüfatı məhsulunun isə 40 %-ə qədəri müharibə bölgəsi rayonlarının payına düşmüşdür. 1988-ci ildən başlamış hərc-mərclik Azərbaycan müstəqillik əldə etdikdən sonra da 1993-cü ilin ortalarına kimi davam etmiş və daha da güclənmişdir.

1987-1990-cı illərdə Azərbaycanın digər regionları kimi Naxçıvanda da sənaye müəssisələri durğunluq dövrünə keçmişdir. 1990-cı ildə ümumi məhsulun həcmi 1985-ci ilə nisbətən 137,1 %, 1989-cu ilə nisbətən isə 95,9 % olmuşdur. Ermənistanın Dağlıq Qarabağ ətrafında törətdiyi fitnəkarlıqlar və SSRİ-nin sürətlə dağılması ilə bağlı proseslər nəticəsində 1990-cı illərin birinci yarısında Naxçıvan MR-nın iqtisadiyyatı Azərbaycanın başqa regionlarına nisbətən daha aşağı vəziyyətə düşmüş, Muxtar Respublika sənayesi 1992-1995-ci illərdə kəskin surətlə azalmışdır (Nadirov, Nuriyev, 2000: 71). 1991-1993-cü illərdə 8 sənaye müəssisəsi öz fəaliyyətini tamamilə dayandırmışdır. Nəticədə, müəssisələrin sayı 1990-cı ildəki 52-dən 1993-cü ildə 44-ə düşmüşdür. 1994-1995-ci illərdə sənaye müəssisələrinin sayı daha da azalmışdır (Şahverdiyev, 2014: 47).

Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsi xalqın taleyində dönüş nöqtəsi oldu. Bu müstəqilliyin bərpasında və inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Heydər Əliyevin düşünülmüş və ağıllı siyasətinin nəticəsi idi ki, qısa müddət ərzində dövlət müstəqilliyimizi dünya dövlətlərinin əksəriyyəti tanıdı.

Ali Məclisin sədri Heydər Əliyev Naxçıvanı blokada vəziyyətindən çıxarmaq, əhalini çörək məhsulları ilə təmin

DOI: https://doi.org/10.36719/2024/VIII

etmək və ümumiyyətlə böhranın Muxtar Respublikaya vurduğu ziyanı azaltmaq üçün yollar axtarır, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası rəhbərliyi ilə danışıqlar aparır və problemlərin aradan qaldırılmasına çalışırdı. 1990-1993-cü illərdə Muxtar Respublikada iqtisadi həyatın dirçəldilməsinə və problemlərin həllinə yönəldilmiş ciddi tədbirlər görülmüşdür. Türkiyə və İranla iqtisadi əlaqələr yaradılmışdı. Bu illərdə həmçinin Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri də fəaliyyətə başlamışdı (Hüseynov, 2012: 69).

XX əsrin 90-cı illərində öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermişdi. Heydər Əliyevin 1993-cü ildən başlayaraq ardıcıl olaraq həyata keçirdiyi islahatlar nəticəsində, ölkədə baş verən siyasi və iqtisadi böhran aradan qaldırılmış, iqtisadiyyatda baş verən mövcud geriləmə inkişafla əvəz olunmuşdu. 1995-ci ildə sənaye sahəsində də yaranmış durğunluq və böhranlı vəziyyət aradan qaldırılmış və 1996-cı ildən başlayaraq Muxtar Respublika sənayesi yeni inkişaf yoluna qədəm qoymuşdu.

1996-1998-ci illərdə Muxtar Respublikanın sənaye müəssisələri məhsul istehsalını artırmağa nail olmasalar da, fəaliyyət göstərməyə davam etmişlər. 1999-cu illə müqayisədə 2000-ci ildə məhsul istehsalının həcmi alt trikotaj fabrikində 2,4 dəfə, Badamlı mineral su zavodunda 8,1 dəfə, Sirab mineral su zavodlarında 4 dəfə, Naxçıvan Tikinti Quraşdırma Dövlət Şirkətində 109,6 %, Elektrotexnika zavodunda 44,3 % artmışdır (Şahverdiyev, 2002: 141).

1999-cu ildə Ordubad rayonunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyatı və istismarı üzrə böyük Britaniyanın “Qinq İnvestment Limited” şirkəti ilə müqavilə bağlanması hesabına dağ mədən sənayesinin bərpasına nail olunmuş və 1999-cu ildə bu tədbirlərin həyata keçirilməsi ilə əlaqədar

DOI: https://doi.org/10.36719/2024/VIII

təqribən 1,8 milyard manatlıq məhsul istehsal edilmişdir (Şahverdiyev, 2002: 54).

Son illərdə sənaye Muxtar Respublikada yüksək nailiyyətlərin əldə olunduğu sahələrdən birirdir. Sənaye sahəsində Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyası öz müsbət nəticələrini vermişdi (Əhmədov, 2019: 278). Həyata keçirilən islahatlar və regionların inkişafına dair dövlət proqramlarının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın dinamik artımına səbəb olmuş, Muxtar Respublikada müasir texnologiyalar əsasında yaradılan sənaye müəssisələrinin sayı xeyli artmışdır.

## Ədəbiyyat

1. Nadirov, A., Nuriyev, Ə., Muradov, Ş. (2000). Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı-Elm, 104 s.
2. Şahverdiyev, Z., Zeynalov, İ. (2014). Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf (2001-2012-ci illər). (Dərs vəsaiti), 234 s.
3. Hüseynov, X. (2012). Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004). (Dərs vəsaiti). Bakı, 158 s.
4. Şahverdiyev, Z., Zeynalov, İ. (2002). Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı, Qismət, 168 s.
5. Əhmədov, N. (2019). Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı. Naxçıvan, "Əcəmi", 384 s.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 17-20
VII Collection of Theses on “Scientific Sources” / 17-20
DOI: https://doi.org/10.36719/2024/VIII

**Simnar Əlizadə**
Bakı Dövlət Universiteti
doktorant
simnarelizade112@gmail.com

# CÜTTƏRKİBLİ CÜMLƏDƏ SEMANTİKA VƏ İNFORMASİYA

***Açar sözlər:*** *sadə cümlə, cüttərkibli cümlə, semantika, informasiya, fikrin ifadəsi*
***Keywords:*** *simple sentence, complete sentence, semantics, information, expression of opinion*

Sintaksisin mərkəzində duran cümlə ünsiyyətin ilk və əsas vahidi hesab olunur. Müəyyən fikrin ifadəsinə xidmət edən cümlədə məqsəddən asılı olaraq, müxtəlif dil vahidləri məna və qrammatik cəhətdən əlaqələnərək, müəyyən informasiyanı daşıyır. Lakin sözlərin bu şəkildə əlaqələnməsi zamanı heç də həmişə alınan semantika ilə nəzərdə tutulan informasiya üst-üstə düşmür. Nəzərdə tutulan informasiya müxtəlif leksik və qrammatik vasitələrin iştirakı ilə verilə bildiyi kimi, bir semantik yük daxilində fərqli informasiyalar da verilə bilər. İstər sadə, istərsə də mürəkkəb cümlədə semantika və informasiya münasibəti ciddi yanaşma tələb edir.

Baş üzvlərdən hər ikisinin iştirakı ilə formalaşan sadə cümlələrə cüttərkibli cümlə deyilir. Bu tip cümlələrdə fikir predmeti mübtəda və ya mübtəda qrupu şəklində, fikir predmetinin hərəkət və əlaməti isə xəbər və ya xəbər qrupu şəklində ifadə olunur (Kazımov, 2007: 171). İstənilən cümlə tipinin formalaşmasında əsas məqsəd müəyyən informasiyanı verməkdir. İnformasiyanın yaranmasında cümlədəki dil vahidlərinin ayrı-ayrılıqda malik olduğu lüğəvi məna və bir-

DOI: https://doi.org/10.36719/2024/VIII

biri ilə əlaqələnərkən yaranan semantik yük əsas rol oynayır. Əksər cüttərkibli cümlələrdə semantika ilə ifadə olunan informasiya üst- üstə düşür. Lakin bunu bütün cüttərkibli cümlələrə aid etmək olmaz. Belə ki, bəzən elə cüttərkibli cümlələrlə qarşılaşırıq ki, cümlənin semantikası ilə mətndə ifadə etdiyi informasiya uyğun gəlmir. Bu zaman cümlənin semantika və ifadə etdiyi informasiyanı müəyyən etmək üçün cümlənin daxil olduğu kontekstə və situasiyaya müraciət etmək lazımdır.

- Sizə kim lazımdır?
- Gəldiyev burdadır? (Mir Cəlal, 2005: 348).

Verilmiş nümunədə “Gəldiyev burdadır?” cümləsi müxtəsər cüttərkibli cümlədir. Mətndə kənarda götürdükdə sual məqsədi ilə işlədilən bu cümlədə Gəldiyev soyadlı şəxsin  verilmiş məkanda olub- olmadığı soruşulur. Lakin kontekstə nəzər saldıqda verilmiş situasiyada “Sizə kim lazımdır?” sual cümləsinə cavab olaraq “Mənə Gəldiyev lazımdır, Mən Gəldiyevi axtarıram” cümlələri ilə cavab verilməli idi. Kontekstdə sual cümləsinə sualla cavab verilmiş olur; “Gəldiyev burdadır?”. Lakin kommunikator verdiyi sualla əslində özünə verilmiş sualı cavablandırmış olur. Dialoqun əvvəlki cümləsindəki “kim?” sualı cavab məqsədi ilə işlədilən, lakin sual semantikası daşıyan “Gəldiyev burdadır?” cüttərkibli cümləsinin mübtədası olan “Gəldiyev” sözü ilə cavablanır. Mətndən kənarda  verilmiş cümlədə Gəldiyevin həmin məkanda olub-olmaması informasiyası diqqətə çatdırıldığı halda, kontekst daxilində isə kommunikatorun Gəldiyevi axtarması, onu görmək istəməsi kimi informasiyalar diqqət mərkəzinə gətirilir. Beləliklə, verilmiş cümlənin ifadə etdiyi informasiya “Mənə Gəldiyev lazımdır, Mən Gəldiyevlə görüşməliyəm, Mən Gəldiyevi axtarıram” cümlələrinin ifadə etdiyi informasiyaya uyğun gəlir.

DOI: https://doi.org/10.36719/2024/VIII

İnformasiya öz dəyərini ayrıca götürülmüş cümlədə deyil, həmin cümlənin daxil olduğu kontekstdə tapır. İnformasiya bütövlükdə cümlədə deyil, mətn şəraitində ortaya çıxır. Yəni verilmiş cümlələrin birliyi nitq fəaliyyəti üçün zəruri olan informasiya mənbəyinə çevrilir. İnformasiyanın müəyyənləşməsində semantika mühüm rol oynayır. Bəzən semantikanın dəyişilməsi informasiyanı da dəyişir. Fikrimizi əsaslandırmaq üçün nümunəyə diqqət edək:

- Hara bivaxtçağı, oğul?
- İşim var, əyşi, dədə. İndi qayıdaram.
- Oğul bu tərəflərdə onlardan görünüb; özünü gözlə.

-Ayıdan qorxan meşəyə girməz, dədə! Bir də elə dünən onların nəfəsini kəsmişik. Qaçaqlar pərən- pərən olublar (Cəfərzadə, 2021: 330).

“Ayıdan qorxan meşəyə girməz, dədə!” cümləsinin semantikası və ifadə etdiyi informasiya xüsusi diqqət tələb edir. Verilmiş cümlənin semantikasını iki şəkildə fikirləşə bilərik; birinci halda cümlədəki “ayı” sözünü həqiqi mənada “vəhşi heyvan” kimi nəzərdə tuta bilərik. Bu zaman verilmiş cümlə “Meşədə ayı var, lakin kommunikator ondan qorxmur və meşəyə getmək istəyir” informasiyasını ifadə edir. İkinci halda isə verilən cümləni atalar sözü şəklində düşünə bilərik. Bu zaman isə söhbət heç də vəhşi heyvan olan ayıdan getmir. Kommunikator atalar sözünü qarşı tərəfdən qorxmadığını bildirmək üçün işlədir. Oxucunu çaşdıran isə verilən cümlədən əvvəl işlənmiş “Oğul, bu tərəflərdə onlardan çox görünüb; özünü gözlə” cümləsidir. İlk baxışdan, bizə elə gəlir ki, həqiqətən də, söhbət vəhşi heyvan olan ayıdan gedir, müvafiq olaraq da cümlənin semantikası və ifadə etdiyi informasiya birinciyə uyğun gəlir. Lakin mətni oxumağa davam etdikdə “Qaçaqlar pərən- pətən olublar” cümləsinə əsasən müəyyən edirik ki, meşədə ayının deyil, qaçaqların olmasından söhbət

DOI: https://doi.org/10.36719/2024/VIII

gedir. Beləliklə, cümlənin semantikası və ifadə etdiyi informasiya mətn daxilində ikinciyə uyğun gəlir. Verilmiş cümlə atalar sözü şəklində işlənərək əsərdə obrazlılığın, fikrin təsir gücünün artırılmasına kömək edir. Cümlə “Mən qaçaqlardan qorxmuram, çəkinmirəm” informasiyasını ifadə edir. Beləliklə, verilmiş cümlənin köməyi ilə kommunikator öz gücünə güvəndiyini, qaçaqlardan çəkinmədiyini, onlardan qorxmadığını ifadə etmiş olur.

Cümlənin semantikası və ifadə etdiyi informasiya mətn daxilində əlaqələndiyi cümlələr əsasında müəyyənləşir. Cüttərkibli cümlənin daşıdığı semantik yükü və həmin semantikanın ifadə etdiyi informasiyanı müəyyən etmək üçün kontekstə və mətndəki situasiyaya müraciət olunmalıdır.

## Ədəbiyyat

1. Cəfərzadə, Ə. (2021). Seçilmiş əsərləri. I cild, Bakı, Elm və təhsil, 352 s.
2. Kazımov, Q. (2007). Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Təhsil, 496 s.
3. Mir Cəlal. (2005). Seçilmiş əsərləri. Bakı, Şərq- Qərb, 384 s.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 21-24
VII Collection of Theses on "Scientific Sources" / 21-24
DOI: https://doi.org/10.36719/2024/VIII

**Fuad Qasımov**
Bakı Dövlət Universiteti
magistrant
shayifli@gmail.com

# MÜƏSSİSƏLƏRİN RƏQABƏT QABİLİYYƏTİ, RƏQABƏTİN NÖVLƏRİ

***Açar sözlər:*** *rəqabət, rəqabət qabiliyyəti, rəqabətin növləri*
***Keywords:*** *competition, competitiveness, types of competition*

Rəqabət latın sözü olub (concurere) "toqquşma" mənasını verir. Rəqabətin meydana gəlməsi tarixən mülkiyyət ayrı-seçkiliyinin və əmək bölgüsünün şərtləndirdiyi əmtəə istehsalının meydana gəlməsi dövrünə təsadüf edir, əmtəə istehsalının inkişafı ilə iqtisadi inkişafın ən fəal ünsürünə çevrilir. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət rəqabətin mövcudluğunu şərtləndirir. Rəqabət nəticəsində istehsalçı və istehlakçılar bərabər imkanlara malik olmalarına baxmayaraq, bu imkanlardan daha səmərəli istifadə etməklə qalib gəlmək istəyi həmişə onları istehsalın nəticəsini yaxşılaşdırmağa stimullaşdırır.

Rəqabət – müxtəlif istehsalçılar və satıcılar arasında aparılan mübarizə vəziyyətidir, ümumilikdə isə istənilən subyektlərlə, bazarı tutmaq üçün fəaliyyət mübarizəsidir ki, burada daha faydalı şərtlə mal və xidmətlərin bazarda satışı və alışı üzrə fəaliyyət göstərilir ki, daha çox gəlir, mənfəət, başqa qazanclar əldə edilsin (İmran, 2007: 174).

DOI: https://doi.org/10.36719/2024/VIII

## Rəqabətin növləri

| s/s | Xarakterik cəhətləri | Azad rəqabət | Xalis inhisar | İstehsalçı rəqabət | Oliqopoliya |
|---|---|---|---|---|---|
| 1 | Firmaların sayı | Həddən artıq çox | Bir | Çoxlu | Bir neçə |
| 2 | Məhsulun tipi | Standart-laşmış | Unikal | Diferensial | Standart və ya differensial |
| 3 | Qiymətə nəzarət | İstisna olunur | Əhəmiyyətli | Həddən artıq dar çərçivədə | Məhdud və ya əhəmiyyətli dərəcədə gizli razılaşmalar əsasında |
| 4 | Sahəyə daxil olmaq şərtləri | Çox asan | Məhdud Imkanlarla | Nisbətən asan | Mümkün qədər çətin |
| 5 | Qeyri-qiymət rəqabəti | yoxdur | Demək olar ki, yox | Keyfiyyətə, reklama, ticarət markalarına xüsusi diqqət yetirilir | Məhsulun differensiallaş dığı şəraitdə xüsusi tipik xarakter daşıyır |

Rəqabət – bazarda çıxış eləyən müəssisələr arasında qarşılıqlı fəaliyyət, qarşılıqlı əlaqə və mübarizənin iqtisadı prosesi kimi öz məhsulunun satışı üçün əlverişli imkanların yaradılması, istehlakçıların tələbatının təmin olunması və daha çox gəlirin əldə olunması məqsədini daşıyır.

Müəssisənin (firmanın) rəqabət qabiliyyəti – rəqabətli bazar şəraitində səmərəli təsərrüfat fəaliyyətinin və mənfəətli satışın təmin olunması deməkdir. Rəqabət qabiliyyəti göstəricisi hər bir müəssisə üçün onun bütün bölmə və xidmətlərinin işlərini özündə əks etdirən güzgüdür. Xarici bazara raqabət qabiliyyətli malla çıxmaq - müəssisənin bazarı ələ alması və orada möhkəmlənmsi sahəsində ilkin məqamdır (Ələkbərov, Vəliyev, Purhanı, 2013: 59). Bundan sonra malların rəqabət

DOI: https://doi.org/10.36719/2024/VIII

qabiliyyətlərinin idarə olunması üzrə böyük, vacib iş başlayır. Rəqabət qabiliyyətinin idarə olunması – məlumatın daima təkmilləşdirilməsi, mütəmadi olaraq onun yeni satış kanallarının, yeni alıcı qruplarının axtarılması, servis xidmətinin, reklamın yaxşılaşdırılması üzrə tədbirlər məcmusudur.

Rəqabətdə olan firmaların fəaliyyətlərinin tədqiq olunması üç mərhələli sistemli tədqiqatdan ibarətdir:

- fəaliyyətdə olan və potensial rəqiblərin müəyyən olunması;
- rəqiblərin fəaliyyətlərinin, məqsəd və strategiya göstəricilərinin təhlili;
- rəqiblərin fəaliyyətlərinin güclü və zəif tərəflərinin müəyyən olunması.

Rəqabətdə olan firmaların müəyyən olunması ikili yanaşma əsasında həyata keçirilir: birinci yanaşma bazarda fəaliyyət göstərən əsas rəqib firmalar tərəfindən ödənilən tələbatların qiymətləndirilməsi ilə əlaqədardır; ikinci yanaşma isə rəqiblər tərəfindən tətbiq olunan bazar strategiyası tiplərinə əsasən rəqiblərin təsnifləşdirilməsindən ibarətdir. Rəqiblərin aşağıdakı əsas qruplarını qeyd eləmək olar:

- eyni bazarda oxşar malları təqdim edən firmalar;
- oxşar malların digər bazarlarına xidmət edən firmalar;
- hazırki malları bazardan vurub çıxartmağa qadir olan əvəzedici malları (substitute products) istehsal edən firmalar.

Rəqiblərin fəaliyyətlərinin məqsəd və strategiyası göstəricilərinin təhlili rəqib firmanın iqtisadi potensialını xarakterizə edən göstəricilərə əsaslanır; du göstəricilərə: aktivlər, satışlar, xalis və ümümi mənfəət, əsas və dövriyyə kapitalı, kapital qoyuluşları, xüsusi və borc kapitalı, istehsalat gücləri, elmi-tədqiqat bazası və s. aiddir (Şahbazov, Məmmədov, Həsənov, 2007: 247). Rəqiblərin fəaliyyətlərinin güclü və zəif tərəflərinin müəyyən olunması mərhələsində rəqiblərin bütün

DOI: https://doi.org/10.36719/2024/VIII

istehsal, satış aktivlərinin və strategiyalarının təhlilinin nəticələri verilir və bunlara əks-təsir üsulları barədə nəticələr formalaşdırılır. Firmaların fəaliyyətlərində güclü və zəif tərəfləri: idarəetmə, texniki yenilik, istehsalat, maliyyə, satış, istehlakçılar kimi əsas bölmələr üzrə qiymətləndirilir. Müvəffəqiyyətlə işləmək üçün firma öz rəqibləri barədə konkret anlayışa malik olmalı, rəqabət mübarizəsinin müəyyən qanunauyğunluqlarını, həmçinin, rəqabət mübarizəsində davranış qaydalarını bilməlidir.

## Ədəbiyyat

1. İmran, A. (2007). Menecment. Bakı.
2. Ələkbərov, Ə.H., Vəliyev, M.Ə., Purhanı, S.H. (2013). Menecment. Bakı.
3. Şahbazov, K.A., Məmmədov, M.H., Həsənov, H.S. (2007). Menecment. Bakı.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 25-29
VII Collection of Theses on "Scientific Sources" / 25-29
DOI: https://doi.org/10.36719/2024/VIII

**Fuad Qurbanov**
Bakı Dövlət Universiteti
magistrant
fuad.qurbanov@mail.ru

# AZƏRBAYCANDA DAXİLİ TURİZM SİSTEMİNİN FORMALAŞMASI

***Açar sözlər:*** *turizm sənayesi, nəqliyyat infrastrukturu, daxili turizm xidmətləri, daxili turizm modeli, idarəetmə subyekti və obyekti, idarəetmə strukturu*

***Keywords:*** *tourism industry, transport infrastructure, domestic tourism services, domestic tourism model, subject and object of management, management structure*

Turizm sənayesi – turizm səyahətini həyata keçirmək prosesində turisti zəruri olan hər şeylə (xidmət, iş, məhsul və s.) təmin edən müəssisələrin və sahibkarların qarşılıqlı əlaqə sistemi kimi başa düşülür. Başqa sözlə desək, turizm sənayesi – yerləşdirmə və nəqliyyat vasitələri, ictimai iaşə, əyləncə, işgüzar, sağlamlıq, idman və digər təyinatlı obyektlərin, turoperator, turagent, ekskursiya və gid-tərcüməçi xidmətləri göstərən təşkilatların məcmusudur. Deməli, turizm sənayesi turistin istifadə etdiyi geniş xidmət sahələrini birləşdirən təsərrüfat kompleksidir.

Turizm dövlət büdcəsinin formalaşması, maliyyə resurs təminatının sabitləşməsi və ölkəyə xarici valyuta axınının yüksəlməsində mühüm rol oynayır.

Bu sektorun sosial və iqtisadi səmərəlilik göstəriciləri aşağıdakılar hesab edilir:

- turizmin inkişafı əhalinin məşğulluğunu təmin edir və yerli firmalara gəlir gətirir;

**DOI: https://doi.org/10.36719/2024/VIII**

- turizmin inkişafı ona xidmət edən sosial, istehsal və nəqliyyat infrastrukturunun inkişafına və iqtisadi artımına kömək edir;
- ölkəyə xarici valyuta axınını təmin edir;
- makro səviyyədə əhalinin sosial-mədəni xidmətlərə olan tələbatının ödənilməsi üçün şərait yaradır;
- turizmin inkişafı ilə iqtisadi cəhətdən zəif inkişaf etmiş regionlarda iqtisadiyyatın ümumi inkişafına və iqtisadi artımına nail olunur;
- turizm fəaliyyətinə kömək edir və onun inkişafı üçün şərait yaradır;
- turizm fəaliyyətinin üstün istiqamətlərini müəyyən edir və onun həyata keçirilməsinə köməklik göstərir.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, daxili turizm dövlət büdcəsinin gəlirlərinin artırılmasında, ticarət balansının sabitləşdirilməsində əhəmiyyətli rol oynayır. Daxili turizmin inkişaf etdirilməsi ölkədə işsizlik probleminin aradan qaldırılmasında mühüm rol oynamaqla yanaşı, iqtisadiyyatın bütün sahələrinə təsir göstərərək onların inkişafında əsas vasitəçilərindən birinə çevrilir. Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi, fərqli mədəniyyətləri və dünyagörüşlərini bir araya gətirən tolerant dövlət kimi tanınması, dünyada mövcud olan 11 iqlim qurşağından 9-na malik olması, habelə füsunkar təbiəti, qədim tarixi mədəniyyət abidələri, zəngin folklor nümunələri respublikamızın böyük daxili turizm potensialından hərtərəfli istifadəni ön plana çəkir. Bu isə o deməkdir ki, daxili turizm Azərbaycan Respublikasının iqtisadiyyatında aparıcı mövqeyə malik ola bilər, çünki belə tip turizm biznesi iqtisadiyyatın digər sahələrinin inkişafını stimullaşdırmaqla yanaşı, özündə iqtisadi, humanitar, tərbiyəvi və estetik amilləri birləşdirir. Daxili turizm modeli – əlaqələri daimi qarşılıqlı prosesdə yerləşən, qarşılıqlı təsir

DOI: https://doi.org/10.36719/2024/VIII

komponentlərindən ibarət bir sistem olub, turizm fəaliyyətinin üç vacib tərkib hissəsinin: daxili turizm resurslarının, daxili turizm məhsullarının, turizm xidmətləri bazarının koordinasiya olunmuş inkişafına yönəldilmişdir. Daxili turizmin qeyd olunan sistem xüsusiyyətləri idarəetmə obyektləri kimi nəzərdən keçirilə bilər. Buna uyğun olaraq, idarəetmə subyektlərini də, yəni müəyyən idarəetmə qərarları üzrə səlahiyyətlər verilmiş strukturları da düzgün müəyyən etmək lazımdır. Sistemdə idarəetmə subyekti və obyektinin ayrılması - qarşılıqlı təsiri məqsədə nail olunmasına gətirib çıxaran və beləliklə də bütövlükdə sistemin inkişafını və işləməsini təmin edən əsas alt sistemlərin müəyyən edilməsinin ilkin şərti sayılır.

İdarəetmə subyekti və obyekti idarəetmə orqanı və idarəetmənin idarə olunan sistemi kimi nəzərdən keçirilə bilər. Daxili turizm sisteminin xüsusiyyəti ondan ibarətdir ki, turizm resursları kimi element idarəetmə obyekti kimi çıxış edir. Sistemin çıxışında resursların transformasiya nəticələri çıxış edir ki, bu da idarəetmə subyektinin və ya subyektlərinin təsiri altında baş verir.

Turizm xidmətləri sahəsində sistemin çıxışının nəticəsi turistin təəssüratı, yəni turizm məhsulunun istehlakı nəticəsində meydana çıxan və əldə edilən müsbət emosiyalar kompleksi hesab edilə bilər.

Sistem kimi turizmin dayanıqlı inkişafı yalnız ətraf mühitlə harmoniyada fəaliyyət göstərir. Mürəkkəb və dinamik sistem kimi turizmdə qarşılıqlı təsirdə olur və bəzi hallarda, müxtəlif proseslər, hadisələr və amillər əks təsirdə olurlar. Buna görə də idarəetmə bütöv struktur yaradıcı komponentlərin düzgün fəaliyyətini və ahəngdar qarşılıqlı təsirini, eləcə də turizm sisteminin bütövlüyünü təmin etməlidir. Turizmin idarəetmə strukturu idarəetmə subyektlərini və obyektlərini, eləcə də

DOI: https://doi.org/10.36719/2024/VIII

onların arasında yer alan prosesi əhatə edir. İdarəetmə prosesi daxili və xarici mühitdə ona təsir edən dəyişikliklərlə bağlıdır.

Makrosəviyyədə daxili turizmin idarə edilməsi ilk növbədə institusional xarakter daşıyır. Bu səviyyədə idarəetmə subyektləri turizmin inkişafı və onun ayrı-ayrı tərkib hissələri üçün qanunverici və tənzimləyici şərtləri təmin edir. Burada turizm sektorunun prioritetləri müəyyən edilir və onların inkişafı üçün güzəştli şərtlər yaradılır: büdcə maliyyələşdirilməsi, vergi güzəştləri, məşğulluq proqramları, infrastruktur layihələrə investisiya, beynəlxalq əməkdaşlıq və nümayəndəliyi. Turizm sahələrinin prioritet inkişafı üçün bu səviyyədə ayrı-ayrı istiqamətlər üzrə inkişaf strategiyaları, o cümlədən funksional strategiyalar və proqramlar işlənib hazırlanır. Bu mənada, makroiqtisadi səviyyə milli idarəetmə səviyyəsi ilə üst-üstə düşür.

Bu, ayrı-ayrı idarəetmə səviyyələri arasında koordinasiyanın və daxili turizm üçün xüsusi mexanizmlərin subordinasiyasının mürəkkəbləşməsinə səbəb olur. Mikroiqtisadi səviyyədə idarəetməyə, hər şeydən əvvəl, turizm biznesinin idarə olunması kimi baxmaq lazımdır. Həmin idarəetmə vasitəsilə turistlər üçün əsas (turoperator və turizm fəaliyyəti, mehmanxana, restoran, nəqliyyat xidmətləri) və əlavə (ticarət, informasiya və s.) xidmətlər üzrə ixtisaslaşmış ayrıca şirkətlər tərəfindən həyata keçirilir. Göstərilən fəaliyyət növlərinin idarə edilməsinin əhəmiyyətini qeyd etmək lazımdır. Məhz bu səviyyədə idarəetmə subyektlərinin təsiri altında ayrı-ayrı turist məhsullarına çevrilən turizm resursları yerləşir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında daxili turizmin inkişafına xidmət edən kompleks tədbirlərin nəzərdə tutulması məhz bu zərurətdən irəli gəlmişdir. Proqramlarda respublikamızın ayrı-ayrı bölgələrinin daxili turizm potensialı düzgün qiymət-

**DOI: https://doi.org/10.36719/2024/VIII**

ləndirilmiş, bu sahədə həyata keçirilən yüksək tədbirlər konkret şəkildə əksini tapmış, turizm obyektlərinin inşası üçün hökumətin maliyyə imkanlarından geniş istifadə edilməsi nəzərdə tutulmuşdur. Onu da qeyd edək ki, Dövlət Proqramlarında struktur məsələlərinə, yolların bərpasına və çəkilişinə xüsusi diqqət ayrılması respublikada turizmin inkişafına ciddi təkan verir. Bütün bu göstəricilər Azərbaycan iqtisadiyyatının inkişafına, iqtisadi təhlükəsizliyin təmin olunmasına təkanverici amil ola bilər.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 30-35
VII Collection of Theses on “Scientific Sources” / 30-35
DOI: https://doi.org/10.36719/2024/VIII

**Əli Cəfərov**
Bakı Dövlət Universiteti
magistrant
cafarovali777@gmail.com

# AZƏRBAYCANIN DÜNYA BAZARINDA MÖVQEYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *xarici iqtisadi strategiya, əlverişli geoiqtisadi mövqe, transregional layihələr, ixrac potensialı, xarici ticarət əlaqələri*

***Keywords:*** *foreign economic strategy, favorable geo-economic position, transregional projects, export potential, foreign trade relations*

Ölkəmizin xarici iqtisadi strategiyasının əsas istiqamətlərindən biri inteqrasiya proseslərinə aktiv şəkildə qoşulması, qlobal geoiqtisadi məkanda baş verən yeni proseslərə münasib şəkildə reaksiya verməkdən ibarətdir. Azərbaycanın Asiya-Avropa dəhlizində rolunun artması ilə əlaqədar TACİS, TRACEKA proqramlarının əhəmiyəti danılmazdır və “Böyük İpək Yolu” layihəsi transkontinental inteqrasiyanın həyata keçirilməsində ölkəmizin önəmini ön plana çəkir. Bu, həmçinin, ölkəmizin transregional neft-qaz layihələrinə də aiddir. Azərbaycanla əlaqədar qeyd edilənləri analiz etsək, yeganə qənaət o olar ki, “kiçik ölkə” statusunu daşıyan ölkəmizin regional və beynəlxalq arenada və perspektiv imkanlarını artırmaq istəyiriksə, ölkəmiz regional inteqrasiya proseslərinə, dünya birliyinə qoşulmaq və məxsusi əhəmiyyət kəsb etmək istiqamətində çoxşaxəli, müxtəlif səviyyəli inteqrasiya proseslərinə qoşulmalıdır. ÜTT çoxtərəfli ticarət danışıqlarının Uruqvay Raundu nəticəsində formalaşmış Saziş-

DOI: https://doi.org/10.36719/2024/VIII

lər paketi əsasında üzv olmuş ölkərər arasında ticarət-iqtisadi münasibətlərin çoxtərəfli əsaslarla tənzimlənməsini həyata keçirən yeganə beynəlxalq təşkilatdır. Həmin Sazişlər paketi müasir dövrdə çoxtərəfli ticarət sisteminin bazisini təşkil edir və özündə mallar, xidmətlər və əqli mülkiyyət hüquqları ilə bərabər ticarəti tənzimləyən çoxtərəfli ticarət sazişlərini, həmçinin ticarət mübahisələrinin həlli yollarını və ölkələrin xarici ticarət siyasətinin icmalı mexanizmini birləşdirir. Dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiya olunmağı iqtisadi siyasətin strateji hədəflərindən biri kimi qəbul etmiş Azərbaycan Respublikasının ÜTT-yə qoşulması istiqamətində artıq iyirmi ilə qədər danışıqlar aparılır, ardıcıl tədbirlər görülür. Bununla belə, qoşulma ilə bağlı danışıqlarla əlaqədar konkret qayda və normalar, hətta ümumi qəbul olunmuş prinsiplər mövcud deyil. Ona görə də ÜTT-yə qoşulma prosesi hər bir ölkə üçün unikal, vacib və əhəmiyyətli xarakter kəsb edir. Bütün şərtlər yalnız danışıqlar vasitəsilə razılaşdırılır. Ölkəmizin Ümumdünya Ticarət Təşkilatına daxilolma istiqamətində danışıqlar həm çoxtərəfli şəkildə təşkilatın katibliyində yaradılmış və əsas ticarət partnyorlarımızdan ibarət 32 üzvlə təmsil olunan Azərbaycanla bağlı İşçi Qrupunun görüşləri səviyyəsində, həm də üzv ölkələrlə mal və xidmətlərin Azərbaycan bazarına daxil olması şərtləri və kənd təsərrüfatına daxili dəsdək tədbirləri, ixrac subsidiyaları üzrə öhdəliklərə dair ikitərəfli danışıqlar səviyyəsində aparılır.

Bununla yanaşı, nəzərə alınmalıdır ki, istehsalın mövcud vəziyyətində (texniki və texnoloji gerilik, qeyri-neft sənaye sahələrində struktur yenidənqurmanın başa çatmaması və s.) xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi yalnız çox az sayda məhsul üçün mümkündür. Eyni zamanda, unudulmamalıdır ki, ÜTT-yə üzvlük iqtisadi siyasətin, xüsusilə, xarici iqtisadi siyasətin liberallaşdırılmasına, eləcə də tarif tənzim-

lənməsinin, qismən də olsa məhdudlaşmasına gətirib çıxaracaqdır. Belə ki, ölkə birtərəfli qaydada gömrük rüsumlarını yüksəltmək, kəmiyyət məhdudiyyətləri və digər ticarət siyasəti tədbirlərini sərbəst tətbiq etmək imkanlarına malik olmayacaqdır. Bu isə mövcud şəraitdə müəyyən mənfi nəticələrə gətirib çıxara bilər.

Göstərilənlər ÜTT-yə üzvlüklə əlaqədar götürülən öhdəliklərə, o cümlədən, tariflər üzrə öhdəliklərə daha həssas yanaşmağı tələb edir. Belə ki, əsaslandırılmamış ağır öhdəliklər götürülməsi paradoksal bir vəziyyətin yaranmasına səbəb ola bilər. Ölkə kifayət qədər ciddi öhdəliklərin qəbulu hesabına inkişaf potensialı yüksək olan istehsal sahələrində istehsal edilən məhsullarla xarici bazarlara, o cümlədən, inkişaf etmiş ölkələrin bazarlarına çıxış imkanlarına zərbə vurmaqla yanaşı, həmin məhsulların ölkədaxili istehsal şərtlərinə də xələl gətirə bilər. Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyası genişləndikcə dünyada gedən iqtisadi proseslər, ölkəmizin dünya iqtisadiyyatında yeri və rolu əsas müzakirə obyektlərindən birinə çevrilib. Qloballaşmanın sürətləndiyi indiki dövrdə dünyada gedən iqtisadi, siyasi, habelə sosial dəyişikliklər birbaşa, yaxud dolayı yollarla Azərbaycan iqtisadiyyatına öz təsirini göstərir. Bu baxımdan dünya iqtisadiyyatının mövcud durumu və ölkəmizin bu proseslərdə iştirakının öyrənilməsi xüsusilə əhəmiyyətlidir. Dünya bank ekspertləri tərəfindən neft və dünya ərzaq qiymətləri arasında tarixi baxımdan asılılıqlar araşdırıldıqda belə nəticə əldə olunur ki, neftin dünya bazarında qiymətinin hər 20%-lik artımı ərzaq qiymətlərində 2-4% artıma səbəb olur.

Dünyada, xüsusən də Avropada ən maraqlı məsələ Azərbaycanda istehsal olunan təbii qazın Avropa ölkələrinin enerji təhlükəsizliyindəki roludur. Rusiyanın təbii qaz ixracatındakı inhisarçılığı və iqtisadi məsələlərdən çox siyasi təzyiq vasitəsi

DOI: https://doi.org/10.36719/2024/VIII

kimi istifadə etməsi dünyanı əlavə təbii qaz mənbələri axtarmağa məcbur etmişdir. Mütəxəssislər tez-tez belə bu cür mənbənin Azərbaycan olduğunu söyləyirlər. Türkmənistan və Qazaxıstan qazının Azərbaycan üzərindən qaz kəməri ilə nəqli layihəsinin həyata keçirilməsi əvvəlki illərlə müqayisədə Azərbaycanın dünya iqtisadiyyatındakı rolunu artıracaqdır. Azərbaycanın əsas üstünlüklərindən biri əlverişli coğrafi mövqeyidir. Şərqlə Qərb arasında böyük bir körpü rolunu oynayan Azərbaycan dünyanın ən böyük nəqliyyat və kommunikasiya mərkəzlərindən birinə çevrilmiş və bu mərhələ hələ də davam etməkdədir. Xüsusilə Böyük İpək Yolunun, Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərlərinin və Bakı-Qars dəmir yolunun əsas rolu Azərbaycanın iqtisadi və siyasi vəziyyətini və əhəmiyyətini yalnız bölgədə deyil, həm də bütün dünyada artırmaqdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın milli iqtisadiyyatını dünya iqtisadiyyatına səmərəli inteqrasiya etmək və dünya iqtisadiyyatındakı mövqeyini möhkəmləndirmək üçün müxtəlif sahələrdə strateji planları genişləndirmək lazımdır.

Azərbaycanda xarici iqtisadi əlaqələrin əhəmiyyətini göstərən əsas göstəricilərdən biri də ixrac edilmiş məhsulların ümumi istehsalda xüsusi çəkisinin və idxal mallarının ümumi tələbdə xüsusi çəki göstəriciləridir. Qeyd edək ki, iqtisadi artımı xarakterizə edən əsas parametrlərdən biri ümumi tələbin strukturudur. İxracın xammal yönümü üzrə ixtisaslaşması şəraitində isə daxili tələbi stimullaşdırmaq zəruri məsələlərdəndir. Bir sıra amillər rəqabət qabiliyyətinin artırılmasını ölkələr üçün əsas prioritet halına gətirmişdir. Rəqabətlilik, əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olan iqtisadiyyatda müvəffəqiyyətli bir mövqe tutma qabiliyyətidir. Rəqabətlilik insan, təbii və kapital ehtiyatlarının səmərəliliyi ilə müəyyən edilir. Ölkələrin rəqabətə davamlı olması üçün ölkədə

DOI: https://doi.org/10.36719/2024/VIII

əmək məhsuldarlığını rəqib ölkələrdən daha yüksək səviyyədə saxlamaq lazımdır. Rəqabətlilik mal və xidmətlərdə dünya ölkələri arasında birinci sırada olmaqdır. Məhsulun rəqabət qabiliyyəti - oxşar rəqib məhsullarla müqayisədə istehlakçının üstünlük səviyyəsini əks etdirir. İstehlakçıların bu seçimi məhsulun qiymətindən və qeyri-qiymət amillərindən asılıdır. Daim rəqabət aparan müəssisələr məhsullarını əvvəlcə daxili, daha sonra beynəlxalq bazarlarda tanıtdırır və nəticədə müəssisələrin rəqabət qabiliyyətini formalaşdırır və gücləndirirlər. İqtisadiyyatda rəqabətqabiliyyətlilik yaratmaq üçün dünya bazarının mövcud tələbləri, o cümlədən qiymət və keyfiyyət elementləri mütləq şəkildə təmin edilməlidir. Balansın qorunması və hər bir amil qrupu əsasında optimal nəticələrin əldə edilməsi hər bir istehsal zəncirinin əsas məqsədi olmalıdır. Ölkənin rəqabət qabiliyyəti sosial faydalara da cavab verməlidir. Rəqabətə davamlı iqtisadi sistem qapalı bir mexanizm olmamalı, inkişafın nəticələri vətəndaşların həyat səviyyəsinin yüksəldilməsində əks olunmalıdır. Dünyanın tarixi baxımdan ən qədim neft ölkəsi kimi Azərbaycan həm sənaye, həm də ənənəvi əl əməyinə əsaslanan qazma işlərinə başlayan ölkələrin siyahısına liderlik edir. XIX əsrin ortalarından etibarən intensivləşdirilmiş neft hasilatı sənayeləşmənin, texnoloji və sənaye komplekslərinin formalaşmasının ilk göstəricisi idi. Artan enerjiyə olan tələb dünyaya yeni xüsusiyyətlər gətirdi və planetin iqtisadiyyatı əsas etibarı ilə, neft və qaz mənbələri tərəfindən inhisara alındı. Xatırladaq ki, ölkəmizin dünya bazarına çıxışı ümummilli liderimiz H.Əliyev üçün narahatlıq doğuran bir məsələ idi. Ulu öndər Azərbaycanı dünyaya tanıtmaq, dost və tərəfdaş tapmaq məqsədilə xarici ticarət əlaqələrinin qurulmasına və möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdi. Bu səbəbdən də bu istiqamətdə lazımlı tədbirlər görülmüş, xarici bazarlara çıxmaq məqsədiylə

DOI: https://doi.org/10.36719/2024/VIII

müəyyən bir baza yaradılmışdır. “Əsrin müqaviləsi”nin imzalanmasının ardınca Azərbaycan öz nefti və qaz yataqlarıyla dünya bazarına çıxdı. Bu müqaviləylə ölkəmiz bir çox dost və tərəfdaş qazandı. Heydər Əliyev müdriklik ilə bildirdi ki, yeni qazanılmış siyasi müstəqilliyi əbədiləşdirmək üçün ilk olaraq güclü iqtisadi baxımdan müstəqilliyə nail olmaq vacibdir. Qısa müddətdə iqtisadi islahatlar aparıldı və bu sahə sürətlə inkişaf etdi. Nefti, habelə təbii qazla xarici bazarlarda yer tutan Azərbaycan dünya bazarındakı mövqeyini qeyri-neft sektoru məhsulları ilə daha da möhkəmləndirməyi özünə prioritet etdi. Qısacası, ölkəmizin neft-qaz sektoru çox zəngin bir tarixə malikdir. Ölkə bu sahənin beynəlxalq səviyyədə inkişafına töhfə verməyə, onların dünya bazarında mövqeyini daha da inkişaf etdirməyə davam edir.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 36-38
VII Collection of Theses on "Scientific Sources" / 36-38
DOI: https://doi.org/10.36719/2024/VIII

**Sevinc Yoldaşlı**
Lənkəran Dövlət Universiteti
magistrant
yoldashlisevinc@gmail.com

# TEXNOLOGİYA DƏRSLƏRİNDƏ MÜASİR TƏLİM METODLARININ TƏTBİQİ

***Açar sözlər:*** *fəal təlim, interaktiv metod, idrak fəallığı, təhsil prosesi, material, texnologiya*
***Keywords:*** *active training, interactive method, cognitive activity, educational process, material, technology*

Müasir təlim texnologiyalarından məqsədyönlü interaktiv metodların düzgün seçilməsi və tətbiqi texnologiya dərslərinin tədrisində mühüm tələbləri qarşıya qoyur. İnteraktiv təlimdə şagirdlərin biliyi tam hazır şəkildə deyil, müstəqil, yaradıcı, ixtiraçı, düşünmələri və tədqiqatçılıq fəaliyyəti formalaşması nəticəsində əldə olunmasından alınır. Belə təlim şagirdlərin fəal idrak fəaliyyəti əsasında və təhsil prosesinin başqa iştirakçıları ilə birlikdə əməkdaşlıq şəraitində həyata keçirilir. İnteraktiv təlimə aid metodların seçilməsi texnologiya dərslərinin mahiyyətinin, özünəməxsusluğunun nəzərə alınması əsasında gerçəkləşdirilir. Metodların tətbiqi həmin vaxt uğurlu olur ki, təlim materialının həcmi, çətinliyi və mürəkkəblik səviyyəsi kimi xüsusiyyətləri, şagirdlərin onlarla tanışlığı nəzərə alınsın və yaradıcılıq qabiliyyəti hissini daha da yüksəltsin. Ümumiyyətlə, bu gün pedaqoji araşdırmalarda sadalanan metodların hamısından texnologiya fənninin tədrisi zamanı istifadə etməyin mümkün olduğunu düşünənlər yanılırlar. İnteraktiv təlimdə şagirdlərin idrak fəallığının təmin edilməsi diqqət mərkəzində saxlanılır və bu kimi məsələlərdə

DOI: https://doi.org/10.36719/2024/VIII

iki cəhətə önəm verilir. Birincisi, idrak fəallığının yaradılması, ikincisi isə onun davamlılığına və özündə olan qabiliyyətə nail olunmasıdır. Şagirdlərdə idrak fəallığının yaradılması hələ həmin işin bir tərəfidir, lakin yaradılmış fəallığın şagirdin təlimi fəaliyyətinin və dərsin bütün mərhələlərində, əsas nüanslarında saxlanması, ardıcıl şəkildə davamlı yerinə yetirməsi zəruridir. Bu istiqamətlərə nail olmaq üçün “problemli halın yaradılması”, “dialoq və əməkdaşlığın zəruriliyi”, şagird-tədqiqatçı, müəllim-bələdçi”, “psixoloji dəstək, yəni hörmət və etibar” tələblərini – mexanizmlərinin gözlənilməsi vacib şərtlərdən biridir. Texnologiya fənninin tədrisində müəllim-şagird, şagird-şagird əməkdaşlığına nail olmaq, öyrənməyi öyrətmək üçün interaktiv təlimin müxtəlif iş formalarının – fərdi iş, cütlərlə iş, qruplarla iş, bütün siniflə birgə, yəni böyük qruplarla işin uzlaşdırılması daha səmərəli və məqsədə uyğun hesab olunur. Məktəb təcrübəsində kiçik qruplarda iş daha aktiv fəaliyyət qazansa da, başqa iş formalarından istifadə əsla yaddan çıxarılmamalıdır. Bu iş formalarının qarşılıqlı əlaqədə tətbiqi daha səmərəli nəticənin əldə olunmasına gətirib çıxarır. Texnologiya fənninin tədrisi zamanı, fənnə uyğun material və detal adlarını saymaqla, alət materialları və texnoloji fiqurları paylamaqla şagirdləri 3-6 nəfərdən ibarət kiçik qruplara bölmə üsulundan istifadə etmək olar. Texnologiya fənninin tədrisində dərs üçün səciyyəvi olan fəsillərlə, proqramlaşdırılmış dərslərlə, praktik işlərlə, müzakirə (diskursiya), söz assosiaları, əqli hücum (beyin həmləsi), insert (interaktiv qeydetmə sistemi), müqayisə cədvəli (konseptual cədvəl), debat, Venn diaqramı, BİBÖ, şaxələndirmə (klaster), anlayışın çıxarılması, auksion, simulyasiya və rollu oyunlar, ziqzaq, problemin həlli, layihələr üzrə iş, qərarlar ağacı, karusel, müzakirə xəritəsi, blum kubu, akvarium və düşüm-cütləş-bölüş-paylaş bu kimi metodların tətbiq imkanı genişdir. Texnologiya fənninin tədrisi

DOI: https://doi.org/10.36719/2024/VIII

zamanı praktik görüləcək işlər mühüm əhəmiyyət kəsb edir. Şagirdlər tətbiq etdikləri məsələ barədə əldə etdikləri nəticələri sinif qarşısında müxtəlif formalarda çıxışları, hazırladıqları materialları, aldıqları nəticələri təqdimat formasında, layihələr şəklində təqdim edirlər. Təqdimat zamanı şagirdlər problemin mahiyyəti ilə bağlı fikirlərini aydın şəkildə, ardıcıl qaydada çatdırmalıdırlar. Mövzu, əsasən problem dəqiq şərh edilməli, informasiya-kommunikasiya vasitələri, illüstrasiyalar, fotoşəkillərdən istifadə olunmalıdır. Bununla yanaşı, texnologiya fənninin tədrisində özünü doğrultmuş, uzun illərin sınağından uğurla keçmiş ənənəvi təlim metodlarından olan tətbiq etmə yaradıcılığı daha çox üstünlük təşkil etmişdir. Təcrübə göstərir ki, şagirdlərin yaradıcı fəallığının təmin edilməsi baxımından əhəmiyyətli olan ənənəvi təlim metodlarıdır. Fəal təlim metodları ilə əlaqəli olan istifadə müsbət nəticə göstərir. Texnologiya fənninin tədrisində müasir təlim texnologiyalarından istifadə Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının və fənn kurikulumun tələblərinə uyğun tətbiq edilən mühüm yenilikdir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 39-44
VII Collection of Theses on “Scientific Sources” / 39-44
DOI: https://doi.org/10.36719/2024/VIII

**Həsən Musayev**
Bakı Dövlət Universiteti
magistrant
hesenmusayev09@gmail.com

# AZƏRBAYCANDA TURİZM XİDMƏTİ BAZARININ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *turizm bazarı, xidmət sektoru, beynəlxalq turizm, qeyri-neft sektoru, sahibkarlıq*

***Keywords:*** *tourism market, service sector, international tourism, non-oil sector, entrepreneurship*

Respublikada yeni təsərrüfat formalarının, kiçik və orta sahibkarlığın əsas istiqamətlərinin formalaşmasında turizmin inkişaf tempi öz təsirini göstərir. Qloballaşma prosesləri təsdiq edir ki, turizm beynəlxalq ticarətin istiqaməti kimi sivil ictimai inkişafın ayrılmaz elementi hesab edilir. Dünya ÜDM-də 10 faiz paya malik olması bunu bir daha təsdiq edir. Dünyada ən gəlirli biznes növlərindən biri kimi çıxış edərək, turizm büdcənin maliyyələşdirilməsinin mühüm mənbələrindən biri hesab olunur. Beynəlxalq turizm bazarı xarici valyuta daxilolmalarının stimullaşdırılmasını, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini, onların rifahının artırılmasını və şəxslərarası əlaqələrin genişlənməsini təmin edərək ölkənin sosial-iqtisadi inkişafında güclü faktor kimi çıxış edir. Belə ki, hər bir turist obyektinin tikilməsi əlavə kapital qoyuluşuna, qeyri-dövlət maliyyə resurslarının turizmə axınına səbəb olur. Struktur təhlil dəyişmə meylləri üzrə aparılır. Təsərrüfat formaları olaraq turist birjalarında, müəssisə və turist məhsulunun istifadəçi üçün zəruri olan resursların artması və onların strukturunun dəyişməsi vacibdir. Sahibkarlığın ilkin

DOI: https://doi.org/10.36719/2024/VIII

strukturu, onun perspektiv dəyişməsi üçün baza yaradır. Müştərək müəssisələr formasında sahibkarlıq inkişafı bəzi layihələrin uzun müddətli icarəyə götürülməsi və rekonstruksiyası sahibkarlığın inkişafına əsas verir.

Bir faktı da qeyd edək ki, adambaşına düşən ümumi daxili məhsulun (ÜDM) artım dinamikasına ölkədə yeni iş yerlərinin yaradılması amili mühüm təsir göstərir. Belə ki, regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına nail olmaq məqsədilə Turizm dünya iqtisadiyyatında ən gəlirli sahələrdən birini tutur. Neft, tibb, maşınqayırma sahəsindən sonra dördüncü ən gəlirli sahələrdən biridir. Buna görə də Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra bu sahəni inkişaf etdirməyi qarşısına məqsəd qoymuşdur. Əlbəttə, bu təbii bir haldır, çünki, təkcə neft sahəsi ilə inkişaf etmək olmaz və qeyri-neft sektorunun inkişafı vacibdir. Aparılan iqtisadi islahatlar hamısı buna istiqamətlənmişdir (Əlirzayev, 2010:122).

Ölkənin coğrafi mövqeyini, iqlim mühitini nəzərə alaraq, turizmin bir çox növlərinin inkişafı üçün potensial mövcuddur. Ümumiyyətlə, bu potensialın reallaşdırılması üçün dövlət və özəl sektorların davamlı dəstəyi vacib faktorlardan biri hesab olunur. Təəssüflə qeyd etməliyik ki, ölkəmiz böyük turizm potensialına malik olmasına baxmayaraq, onun çox az bir hissəsindən istifadə olunur. Hazırda AR regionlarının və bütövlükdə ölkənin turizm potensialından səmərəli istifadə məsələsi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbay-

DOI: https://doi.org/10.36719/2024/VIII

canda kənd turizmi potensialı kənd əhalisinin həyat tərzinə, sosial rifahına təsir göstərir və yeni vərdişlərin yaranmasına səbəb olur. Yerli sakinlər turistlərin xərclədiyi vəsait hesabına birbaşa iqtisadi mənfəət qazanırlar. Kənd turizminin inkişafı iri kapital qoyuluşu tələb etmir, lakin ciddi planlaşdırma və proqramlaşdırmaya ehtiyac duyur. Azərbaycan Respublikasının kənd turizminin potensialı mütəmadi olaraq dəyərləndirilməlidir. Kənd turizmi turistləri ənənəvi yaşayış məskənlərində yerləşdirməkdən, onları yerli qida məhsulları ilə təchiz etməkdən və turistlərin kənd həyatında baş verən hadisələrdə iştirakını təmin etməkdən, əhalinin iş yerləri ilə təmin edilməsindən, ərazilərin təbii-iqtisadi potensialından səmərəli istifadə edilməsindən ibarətdir.

Kənd turizminin inkişaf etdirilməsində məqsəd regionlarda təbii-coğrafi, sosial-iqtisadi və demoqrafik potensialından, tarixi-mədəni abidələrdən istifadə edilməsi ilə yanaşı, əhalinin istirahəti və sağlamlığının bərpa edilməsi, turizm sənayesində kəndlərin rolunun yüksəldilməsi, bununla bərabər, xarici turistlərtin regionlara cəlb edilməsi və bu sahədən əldə edilən gəlirlərin artırılmasıdır. Kənd turizminin sosial inkişafının təmin edilməsinin çoxlu üstün cəhətləri mövcuddur. Kənd turizminin inkişaf prosesində yerli əhali turistlərə xidmət göstərmək üçün bütün imkanlardan istifadə edir. Azərbaycanda turizmi, eyni zamanda kənd turizmini inkişaf etdirmək və turistlərin cəlb edilməsi üçün ölkə ərazisində yalnız iqlim şəraiti, flora və fauna kimi resurslar deyil, həmçinin tarixi əhəmiyyətli mədəniyyət abidələri də mövcuddur. Tarixi-mədəniyyət abidələri respublikamızın müxtəlif regionlarında yerləşir. Kənd turizminin inkişafı üçün Quba-Xaçmaz, Şəki Zaqatala turizm bölgəsi də böyük əhəmiyyət kəsb edir. Son illərdə bu regionlarda kiçik mehmanxana tipli istirahət mərkəzləri, qonaq evləri tikilmiş və turistlərin istifadəsinə

DOI: https://doi.org/10.36719/2024/VIII

verilmişdir. Quba-Xaçmaz turizm sahəsi kimi formalaşmasına təsir edən əsas aparıcı amil - meşələrin, Xəzər sahillərinin, ekoloji təmiz havanın, inkişaf etmiş nəqliyyat şəbəkəsinin, bağçılığın və heyvandarlığın mövcudluğu sayılır. Eyni zamanda Quba rayonunun, Qusarın, Laza kəndinin dağlıq əraziləri, Böyük Qafqaz dağlarından keçən keçidlər, turizm üçün unikal şərait yaradır (Mirzəyev, 2016: 188).

Azərbaycan Respublikası ərazisində kənd turizmi Abşeron iqtisadi rayonuna yaxın yerləşən Quba-Xaçmaz, Şəki-Zaqatala iqtisadi rayonunda inkişaf etməkdədir. Lakin Gəncə-Qazax iqtisadi rayonunda hələ də arzuolunan səviyyədə inkişaf etməmişdir. Kənd turizminin inkişaf etdirilməsi məqsədilə, bu sahədə layihələr hazırlanmalı və həyata keçirilməlidir. Turizm şirkətlərinə, mehmanxanalara uzunmüddətli aşağı faizli kreditlərin verilməsi, gəlmə turizm forması üçün turizm şirkətlərinə vergi güzəştlərinin tətbiq edilməsi ölkəmizdə turizmin inkişafına güclü təkan verə bilər. Köhnə yolların bərpası, genişləndirilməsi, yeni yolların çəkilməsi ölkə vətəndaşlarının və xarici vətəndaşların istirahət ocaqlarına rahat çatması üçün əhəmiyyətlidir. Eyni zamanda xarici turistlərin Azərbaycana gəlib bu yenidənqurma işlərinin şahidi olması ölkəmizin yaxın gələcəkdə əsl turizm ölkəsinə çevriləcəyinə ümid verir.

Respublikamızda yaradılmış Sağlamlıq və Termal Turizmə dəstək Assosiasiyası sağlamlıq ocaqlarının yerləşdiyi ərazisi, sağlamlıq mərkəzlərində müxtəlif əyləncə proqramları, ətraf əraziyə ekskursiyaların təşkili, müalicə xidmətləri haqqında, xidmət personalı haqqında məlumatlar yerləşdirilmişdir, kataloqlar hazırlanması işində fəaliyyətə başlamışdır. Eyni zamanda müalicə ehtiyatlarının yerləşdiyi əraziləri göstərən yol xəritəsi də hazırlanır. Azərbaycanda kurort işinin təşkili və inkişaf etdirilməsi istiqamətində dövlət siyasəti həyata keçirilir. İnsanların istirahəti, müalicəsi, sağlamlığının təmin edilməsi

DOI: https://doi.org/10.36719/2024/VIII

baxımından önəmli rol oynayan sanatoriya kurortlar eyni zamanda da əhalinin məşğulluğunun artırılması, regionun sosial-iqtisadi inkişafının, infrastrukturun, xidmət və digər sahələrin inkişafında da önəmli rol oynayır (Abadov, 2014: 144).

Ölkəmizin beynəlxalq səviyyədə tanınması üçün Qalaaltı, Naftalan və Duzdağ kurortlarının beynəlxalq sertifikatlaşmadan keçməsi təmin ediləcəkdir.

Azərbaycanın turizmin inkişafı üçün əlverişli şəraiti olan ölkə kimi dünyada tanıtmaq məqsədilə yeni brendlərin reklam-təbliğat və məlumat-sorğu fəaliyyətinin keçirilməsi, beynəlxalq proqramlar çərçivəsində regional mədəni turizm marşrutlarının yaradılması və inkişaf etdirilməsi və turizm inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlərdən hesab olunur.

Turizm-rekreasiya zonalarının hüquqi statusunu müəyyənləşdirmək, turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək, turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tətbiq edilməsinə nail olmaq əhəmiyyətlidir. Eyni zamanda turizm sahəsində çalışan insanların peşə hazırlığı səviyyəsini artırmaq və turizm sahəsində zəngin kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək, turizm ehtiyatlarının qorunmasını təmin etmək və bu ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq lazımdır.

Kənd turizmi sahəsində ilk növbədə ixtisaslı kadrlar yetişdirmək üçün xarici ölkələrdən mütəxəssislərin dəvət edilməsi, təlimlərin keçirilməsi lazımdır. İşsizliyin azaldılması və kənd təsərrüfatının xüsusilə də geniş yayılmadığı kənd və rayonlarda əhalinin məşğulluğunu təmin etmək üçün kənd turizminin inkişaf etdirilməsi vacib məsələlərdən biridir.

**DOI: https://doi.org/10.36719/2024/VIII**

## Ədəbiyyat

1. Əlirzayev, Q. (2010). Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı, İqtisad Universiteti Nəşriyyatı, 122 s.
2. Mirzəyev, A. (2016). Azərbaycanda turizm potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətləri. Bakı: ATMU. 188 s.
3. Abadov, M. (2014). Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı. 144 s.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 45-48
VII Collection of Theses on "Scientific Sources" / 45-48
DOI: https://doi.org/10.36719/2024/VIII

**Kamran Əliyev**
Bakı Dövlət Universiteti
magistrant
Kamranaliyev009@mail.ru

# MİLLİ İQTİSADİ MARAQLARIN HƏYATA KEÇİRİLMƏSİNDƏ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN ROLU

***Açar sözlər:*** *iqtisadiyyat, ticarət, inkişaf, milli inkişaf, diversifikasiya*

***Keywords***: *economy, trade, development, national development, diversification*

Milli iqtisadi maraqların təşviqi və həyata keçirilməsində iqtisadi artımın rolu və xarici ticarət əlaqələrinin inkişafı həlledicidir. Hər iki amil ölkənin rifahına, iş yerlərinin yaradılmasına, texnoloji tərəqqiyə və ümumi rifaha əhəmiyyətli dərəcədə töhfə verir. Ölkənin ümumi daxili məhsulunun (ÜDM) artması ilə ölçülən iqtisadi artım gəlirlərin səviyyəsinin yüksəlməsinə və əhalinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur. Xarici ticarət yerli biznes üçün bazarlara çıxışı genişləndirmək, mal və xidmət mübadiləsini asanlaşdırmaq və xarici investisiyaları cəlb etmək hesabına sərvət yaratmağa kömək edir.

İqtisadi artım və xarici ticarət məşğulluq imkanları yaradır, müxtəlif sektorlarda iqtisadi fəaliyyəti stimullaşdırır. İxracın artması məşğulluq imkanlarının artmasına səbəb olub sənaye artımına gətirib çıxara bilər. Xarici ticarət yerli sənayenin qlobal bazarlara çıxışına şərait yaratmaqla iqtisadi diversifikasiyanı stimullaşdırır.

Diversifikasiya iqtisadiyyatı xarici zərbələrə daha davamlı etməklə məhdud sayda sahə və bazarlardan asılılığı azaldır.

DOI: https://doi.org/10.36719/2024/VIII

Xarici ticarətdə iştirak ölkələr arasında texnologiya və biliklərin ötürülməsini asanlaşdırır. Qlobal bazarlarda iştirak innovasiyaları stimullaşdırır, çünki müəssisələr rəqabət qabiliyyətli qalmağa çalışırlar.

İqtisadi artım tez-tez artan istehsal və ticarətdə artımın dəstəklənməsi üçün təkmilləşdirilmiş infrastruktur tələb edir (Alexey, 2017: 328).

Xarici ticarət limanlar, nəqliyyat şəbəkələri və kommunikasiya sistemləri kimi infrastrukturun inkişafını təşviq etməklə xarici investisiyaları cəlb edə bilər. Xarici ticarət, ölkə daxilində yetərli olmayan resurslara çıxış əldə etməyə imkan verərək ölkələri iqtisadi inkişafa təşviq edir.

Yerli istehsal olmayan xammal və malların idxalı sənaye məhsuldarlığını artıra bilər. Davamlı xarici ticarət ölkə ixracının rəqabətqabiliyyətliyini və idxalın idarəedilməsini təmin etməklə əlverişli tədiyyə balansını saxlamağa kömək edir. Müsbət tədiyə balansı ölkə valyutasının sabitliyi və ümumi iqtisadi sabitlik üçün vacibdir.

Nəticədə qeyd etmək istərdim ki, iqtisadi artım və xarici ticarət əlaqələrinin inkişafı arasında sinerji ölkənin iqtisadi maraqlarına nail olmaq və qorumaq üçün həyati əhəmiyyət kəsb edir. Hökumətlər əsasən güclü və dayanıqlı milli iqtisadiyyat yaratmaq üçün həm daxili iqtisadi artımı, həm də beynəlxalq ticarət tərəfdaşlığını təşviq etməyə yönəlmiş siyasətlər formalaşdırırlar.

Xarici ticarət əlaqələri vasitəsilə resurslara çıxış ölkənin milli iqtisadi maraqlarının həyata keçirilməsində mühüm rol oynayır. Sərhədlər vasitəsi ilə malların, xidmətlərin və kapitalın mübadiləsini nəzərdə tutan xarici ticarət ölkələrə öz iqtisadi rifahını yaxşılaşdırmaq, iqtisadi artımı təşviq etmək və müxtəlif daxili prioritetləri həll etmək üçün imkanlar yaradır. Xarici ticarət ölkələrə ölkə daxilində məhdud və ya mövcud

olmayan resurslara çıxış imkanı verir. Bura xammal, enerji resursları və sənaye istehsalı üçün vacib digər resurslar daxildir. Ticarət yolu ilə bu resurslara çıxış daxili tələbatın ödənilməsinə, sənayenin dəstəklənməsinə və iqtisadi artımın stimullaşdırılmasına kömək edə bilər.

Xarici ticarət vasitəsilə ölkələr öz resurs bazalarını şaxələndirə bilərlər. Bu, konkret xammaldan güclü asılılığı olan ölkələr üçün xüsusilə vacibdir. Diversifikasiya dünya bazarlarında təklif və qiymət dəyişkənliklərinə həssaslığı azaldır. Xarici bazarlara çıxış ixrac imkanlarını genişləndir-məklə iqtisadi artıma təkan verir. İxracdan gəlirlərin artması ÜDM artımına, iş yerlərinin yaradılmasına və ümumi iqtisadi inkişafa töhfə verir.

Xarici ticarət beynəlxalq bazarlara çıxışı üçün yerli istehsalçılara platforma yaradır. Bu, daxili sərhədlərdən kənara çıxmaq, satışları artırmaq və qlobal miqyasda rəqabət aparmaq istəyən sahələr üçün çox vacibdir. Xarici ticarət əsasən kapital, texnologiya və idarəetmə təcrübəsi gətirə bilən birbaşa xarici investisiyaları cəlb edir. Birbaşa xarici investisiyalar məhsuldarlığı artırmaq, iş yerləri yaratmaq və innovasiyaları dəstəkləməklə iqtisadi inkişafa töhfə verir (Chang, 2016: 153; Connolly, 2015: 41).

Xarici ticarətdə iştirak ölkələrə ticarət tərəfdaşlarından qabaqcıl texnologiyalar və nou-hau əldə etməyə imkan verir. Bu, yerli sənayenin modernləşdirilməsi və innovasiyaların stimullaşdırılması üçün həyati əhəmiyyət kəsb edən texnologiya ötürülməsini asanlaşdırır. Yaxşı idarə olunan xarici ticarət strategiyası valyuta sabitliyinə töhfə verə bilər. Stabil valyuta iqtisadi proqnozlaşdırmanı artırır, inflyasiya təzyiqlərini azaldır və ümumi iqtisadi sabitliyi qoruyur (Dmitry, 2019: 412). Xarici ticarət ticarət profisiti və ya kəsirini idarə etməklə əlverişli tədiyyə balansını saxlamağa kömək edir. Müsbət tədiyə balansı

**DOI: https://doi.org/10.36719/2024/VIII**

ölkənin maliyyə sağlamlığı və valyutasının sabitliyi üçün vacibdir.

Ticarət əlaqələri diplomatik və siyasi məqsədlər üçün istifadə edilə bilər (John, 2017: 92). İqtisadi əlaqələr beynəlxalq tərəfdaşlığı gücləndirə, əməkdaşlığı inkişaf etdirə və sülh və sabitliyə kömək edə bilər.

Xarici ticarət ölkələrə beynəlxalq bazarlardan investisiya kapitalı cəlb etməyə imkan verir. Xarici maliyyələşməyə çıxış infrastrukturun inkişafı, sənaye layihələri və iqtisadi artımı təşviq edən digər təşəbbüsləri dəstəkləyə bilər.

## Ədəbiyyat

1. Alexey, P. (2017). Economic Development. London, Cambridge University Press, 455 p.
2. Chang, X. (2016). International Business. Tianjin, People's Publishing House, 235 p.
3. Connolly, R. (2015). The Main Methods of Organizing İnternational Trade, Abingdon, The book, 432 p.
4. Dmitry, S. (2019). Economic Development. Berlin, Macmillan Publishers, 566 p.
5. John, W. (2017). "The Main Methods of Organizing İnternational Trade", Hong Kong, "Routledge", 422 p.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 49-54
VII Collection of Theses on “Scientific Sources” / 49-54
DOI: https://doi.org/10.36719/2024/VIII

**Nigar Əsgərzadə**
Bakı Dövlət Universiteti
magistrant
asgnigar@gmail.com

# MÜASİR DÖVRDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ

***Açar sözlər:*** *milli iqtisadiyyat, iqtisadi təhlükəsizlik, iqtisadi inkişaf, iqtisadi sabitlik, makroiqtisadi tarazlıq*
***Keywords:*** *national economy, economic security, economic development, economic stability, macroeconomic balance*

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın bütün sahələrinin dinamik, davamlı inkişafı, xarici bazarlarda rəqabət qabiliyyətli məhsullarla çıxış etməsi cəmiyyətin, fərdlərin, tələbatını ödəyə bilmək qabiliyyətinə, yəni ölkə əhalisinin normal hayat şəraitinin təmin olunmasına imkan yaradır ki, bu da sosial problemlərin sabitliyi deməkdir. Ölkənin iqtisadi təhlükəsizliyini müəyyənləşdirməkdən ötrü bir çox ümumi və sınaqdan çıxmış metodlar vardır. Bunlardan biri əsas makroiqtisadi göstəricilərdir, bunlar öz əhəmiyyətinə görə digər iqtisadi göstəricilərdən daha böyük məna kəsb edir. Digəri isə tədqiq olunan hadisə və prosesin kəmiyyət və keyfiyyət göstəricilərinin ekspert qiymətləndirilməsi metodudur. Hər hansı sahənin problemlərini yaxşı bilən şəxslərdən ekspertlər qrupu təşkil olunur və onlar əsas göstəriciləri hərtərəfli öyrəndikdən, tədqiq etdikdən sonra müəyyən rəyə gəlirlər. Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsi bal sistemi ilə qiymətləndirilir.

Müəyyən edilmiş nəticələr əsasında həm bütövlükdə ölkənin, həm də müxtəlif sahələrin iqtisadi təhlükəsizlik səviyyələri təhlil olunur və bunun əsasında ölkənin iqtisadi təhlükəsiz-

DOI: https://doi.org/10.36719/2024/VIII

liyinin strategiyası müəyyənləşdirilir. Hər bir dövlətin iqtisadi təhlükəsizliyi qiymətləndirilərkən həmin ölkənin iqtisadi səviyyəsi, onun keçdiyi inkişaf yolu, geoiqtisadi, geostrateji və başqa xüsusiyyətləri nəzərə alınmaqla yanaşı, iqtisadi təhlükəsizliyin qiymətləndirilməsinin ümumi metodları da tətbiq olunur. Bunlar əsasən aşağıdakılardır: ssenarilərin təhlili və emal edilməsi metodu; optimal, ən münasib metod; nəzəri-oyun metodu; faydalılıq metodu; qeyri-səlis sistem nəzəriyyələri metodu: çoxmeyarlı statistik təhlil metodu.

Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsinin öyrənilməsi və onun təhlükəsizliyinin təmin olunmasında ssenarilərin təhlili və emal edilməsi metodu böyük əhəmiyyətə malikdir. Bunun mahiyyəti ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdən və onun nəzəri əsaslarını işləyib hazırlamaq üçün etibarlı materiallar verməkdən ibarətdir. Bu sənədlər təhlil-təsvir xarakteri daşıyır, lakin burada ardıcıllıq olduğuna görə gələcək inkişafı müəyyən etmək məqsədilə nəzəri müddəalar və ümumi qanunauyğunluqlar çıxarmaq mümkün olur. Metodun mahiyyəti bir də ondan ibarətdir ki, yüksək səviyyəli mütəxəssislərə-ekspertlərə müxtəlif istiqamətlərdə olan böyük və çətin sosial-iqtisadi və ümumi-iqtisadi problemlərin həllində müasir riyazi vasitələrdən istifadə etməyə imkan verir. Ssenari anlayışı burada mərkəzi yerdə durur. Bu metodu tətbiq etməklə ilkin proqnozlar dəqiqləşdirilir, konkretləşdirilir, eyni zamanda ssenarinin yeni variantları yaranır, axtarılıb tapılır.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi metodlarından biri də optimallaşdırma metodudur. Bir qayda olaraq, bu metoddan təsviri təhlildən təhlükəsizliyin kriteriyasını müəyyən etmək üçün istifadə edilir. Bu variant dövlətin iqtisadi təhlükəsizliyinin digər real kriteriyalarını məhdudlaşdırır. Başqa sözlə, təhlükəsizlik əsasən bir göstərici üzrə hesablanır, halbuki təhlükəsizlik kriteriyaları çoxdur və onlar

bir-birini qarşılıqlı əlaqələndirir. Nəzəri oyun metodundan ikitərəfli və çoxtərəfli konflikt situasiyası zamanı istifadə olunur. Burada məqsəd konfliktlərə sintez şəkildə, bir-birinə təsiri və asılı olması şəklində baxmaqdır. Çünki, bütün ziddiyyətlər bir-birilə sıx surətdə əlaqədardır. Bu metod formanın məzmunu qabaqlamasının qarşısını almaq üçün əhəmiyyətlidir və bu metodun tətbiqi real prosesi daha düzgün əks etdirir.

Qeyri-səlis sistem nəzəriyyəsi də iqtisadi təhlükəsizliyin qiymətləndirilməsində tətbiq edilir. Bu metod müasir vasitələrlə ən mürəkkəb problemləri həll etməkdə açar rolu oynayır. Onlar qeyri-səlis, qeyri-mükəmməl, bəzi hallarda ziddiyyətli biliklər verir. Bu mütəxəssislərə düşünməyə, axtarmağa, tapmağa, öz mühakimələrini yürütməyə, ondan istifadə etməyə imkan yaradır, başqa sözlə, peşəkarları başa düşdüyü EHM-in dilinə yaxınlaşdırır, bu isə insanların intellektual səviyyəsinin yüksəlməsinə, hadisə və prosesin obyektiv səbəblərinin aşkara çıxarılmasına və aradan qaldırılmasına imkan verir (Kərimli, 2006: 166).

Müasir dövrün obyektiv inkişaf prosesi olan qloballaşma şəraitində milli iqtisadiyyatların formalaşması qanunauyğunluqları, cəhətləri və problemləri tədqiq olunarkən hər bir ölkənin milli xüsusiyyətləri, ayrı-ayrı iqtisadi sahələrin inkişaf meylləri, onların dünya iqtisadiyyatına daxil olma imkanları və s. nəzərdə tutulur. Bu baxımdan onların inkişaf səviyyəsi mövcud iqtisadi sistemin səmərəliliyini və necə fəaliyyət göstərməsini əks etdirir. Tarixi təcrübə göstərir ki, iqtisadi sistemlərin dəyişməsi nəticəsində meydana gələn milli iqtisadiyyatlar sonda cəmiyyət ilə iqtisadiyyatın qarşılıqlı əlaqəsi və inkişafı nəticəsində təşəkkül tapır və onların tarixi şəraitinə, dövlətçilik ənənələrinə, iqtisadi inkişaf səviyyələrinə, iqtisa-

DOI: https://doi.org/10.36719/2024/VIII

diyyatın strukturuna, ictimai əmək bölgüsünün inkişafı dərəcəsinə görə bir-birindən fərqlənir.

Milli iqtisadiyyatın formalaşması və inkişafi, ümumiyyətlə milli iqtisadiyyat nəzəriyyəsi XIX əsrin əvvəllərində alman iqtisadçısı və dövlət xadimi F.Listin əsas tədqiqat mövzusu olmuşdur. O, “Siyasi iqtisadın milli sistemi” (1984) əsərində daha çox milli mənafelərin, o cümlədən də alman xalqının milli mənafelərinin təmin olunmasının əsas şərti kimi milli iqtisadiyyatın yaranması və inkişafını mühüm hesab etmişdir (Menkyu, 2004: 730).

Müasir tələblər baxımından milli iqtisadiyyat həm də qloballaşdırma proseslərinə müvəffəqiyyətlə qoşula bilən, dünya iqtisadiyyatında öz mövqeyini müəyyən edə bilən və qoruyan iqtisadiyyatdır. Qloballaşdırma prosesi ilə yanaşı paralel olaraq inkişaf səviyyələri təqribən eyni olan ölkələrin ticarət-iqtisadi birliklərinin yaradılması prosesi də baş verir ki, bu da dünya iqtisadiyyatında regionlaşmanın gücləndiyini göstərir.

Bu baxımdan Azərbaycanın milli iqtisadiyyatı dünya iqtisadi sisteminin bir hissəsinə çevrilməklə ümumbəşəri iqtisadi qanunauyğunluqlar əsasında fəaliyyət göstərərək dünya iqtisadiyyatına inteqrasiya olunmuş və təsərrüfat əlaqələrinin genişlənməsi prosesinin nəticəsi olan qlobal və regional miqyaslı proseslərə qoşulmuşdur.

Bununla da iqtisadi təhlükəsizlik ölkə vətəndaşlarının sosial təhlükəsizliyinin məzmununu da özündə birləşdirir ki, bu da insanların maraq və mənafelərinin təmin olunmasına birbaşa təsirindən irəli gəlir. Sosial sahədə maraqların təmin olunmasında məqsəd isə əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəlməsinə nail olmaq və bunun davamlılığını həyata keçirməkdir. Bunun üçün gəlirlərin və yoxsulluğun səviyyəsinə görə əhalinin təbəqələşməsinin azaldılması, inflyasiyanın

DOI: https://doi.org/10.36719/2024/VIII

səviyyəsinə uyğun olaraq əhalinin pul gəlirlərinin indeksləşdirilməsi, onun yaşayış minimumu həddinə çatdırılması, əhalinin səmərəli məşğulluğunun təmin olunması ölkədə təhsilin, səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və s. problemlərin həll olunmasını özündə əks etdirir (Həsənov, 1998: 343).

Sosial təhlükəsizlik yalnız insanların mənafelərinin təmin edilməsi yox, həmçinin cəmiyyətdə sosial sabitliyin qorunması və müdafiəsi sahəsində hakimiyyət institutlarının gördüyü tədbirləri də ifadə edir. Deməli, sosial təhlükəsizliyin təmin edilməsi həm iqtisadi, həm də milli təhlükəsizliyin təmin olunmasında əsas rol oynayır. İstər sosial, istər iqtisadi, istərsə də, milli təhlükəsizliyin maddi əsasını ölkədə istehsal olunan ÜDM-in həcmi və quruluşu, ölkənin iqtisadi gücü təşkil edir (Piriyev, 2008: 126).

Milli iqtisadiyyatın təhlükəsizliyi bir-biri ilə əlaqəli təsərrüfat subyektlərinin iqtisadi mənafelərini nəzərə aldığı kimi, ayrı-ayrı insanların mənafe və maraqlarının da ödənilməsini nəzərdə tutur ki, bu da sosial təhlükəsizliklə əlaqəlidir. Sosial təhlükəsizlik ayrıca bir anlayış kimi yox, milli təhlükəsizliyin tərkib hissəsi kimi digər təhlükəsizlik sistemləri ilə qarşılıqlı əlaqəlidir. Ona görə də milli iqtisadiyyatın təhlükəsizliyi ayrıca bir şəxsin iqtisadi təhlükəsizliyindən başlayır.

Qeyd edim ki, Azərbaycan Respublikasının Konstitusiyasında da hər bir şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə qarşı təhlükə yaradılması qadağan edilir və onun təhlükəsiz yaşaması hüquqi cəhətdən təsbit olunur. Deməli, sosial təhlükəsizlik sistemində insanlar əsas rola malikdir, bütün təhlükələrin mərkəzində dayanır.

DOI: https://doi.org/10.36719/2024/VIII

## Ədəbiyyat

1. Kərimli, İ. (2006). Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf. Bakı: CBS, 166 s.
2. Menkyu, N. (2004). Ekonomiksin əsasları, üçüncü nəşr, ABŞ: "R.R.Donnolley Willard, OH", 730 s.
3. Həsənov, R. (1998). Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, 343 s.
4. Piriyev, A. (2008). Siyasi strategiya və milli təhlükəsizlik. 126 s.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 55-58
VII Collection of Theses on “Scientific Sources” / 55-58
DOI: https://doi.org/10.36719/2024/VIII

**Məhəmməd Mirzəzadə**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
mehemmedmzade@mail.ru

# SOSİAL MÜDAFİƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏ AMİLLƏRİ

***Açar sözlər:*** *sosial müdafiə, iqtisadi, demoqrafiya, sosial, məşğulluq*
***Keywords****: social security, economic, demography, social, employment*

Sosial müdafiə sistemlərinin formalaşması və inkişafı təkcə onların liberallıq-inzibatilik dərəcəsi ilə yox, həmçinin bir sıra digər faktorların (sosial, iqtisadi, demoqrafik və s.) təsirindən asılı olaraq müəyyənləşir.

Sosial müdafiə sistemində islahatlar aparılan zaman zəruri olan məsələlərdən biri demoqrafik göstəricilərin, proseslərin öyrənilməsi və nəzərə alınmasıdır. Demoqrafik amillər deyərkən əhalinin yaşlanması, əhalinin təbii artım tempinin aşağı düşməsi və s. kimi amillər nəzərdə tutulur. Dünya üzrə demoqrafik statistikanın təhlili göstərir ki, dünya əhalisinin sayı durmadan artır.

Proqnozlara əsasən, əksər ölkələrdə, eləcə də, inkişaf etmiş ölkələrdə əhalinin yaş quruluşunda ciddi dəyişikliklərin baş verməsi gözlənilir. Bu dəyişikliklər əhalinin əmək qabiliyyətli üzvlərinin azalması istiqamətində olacaq ki, bu da, təbii ki, pensiya yaşlı əhalinin artmasına gətirib çıxaracaq (Abdullayeva, 2021: 66).

Bu amilləri nəzərə alaraq deyə bilərik ki, dünyada sürətlənən qocalma prosesi sosial müdafiə sistemini yeni sosial

DOI: https://doi.org/10.36719/2024/VIII

reallıqlarla üz-üzə qoyur. Bu isə öz növbəsində, hökumətləri sosial müdafiə sisteminə yenidən baxmağa və proseslərə uyğun yeni islahatlara vadar edir. Bu mərhələdə həyata keçirilən islahatlar isə əsasən, pensiya yaşının artırılması şəklində təzahür edir. Pensiya yaşının artırılması o qədər də münasib həll yolu hesab edilə bilməz, daha çox liberal istiqamətdə islahatların reallaşdırılması daha məqsədəuyğun ola bilər.

Sosial müdafiə sistemi, eləcə də, iqtisadiyyatın nə dərəcədə sosialyönlü olduğu qiymətləndirilən zaman sosial xərclərin həm dövlət büdcəsindəki, həm də ÜDM-dəki çəkisi ilk nəzərə alınan amillərdən biridir. Daha dəqiq desək, sosial müdafiə sisteminə daha çox vəsaitin xərcləndiyi ölkənin iqtisadiyyatı sosialyönlü hesab edilir. Bu da qeyd olunmalıdır ki, sosial müdafiəyə nə qədər vəsaitin xərclənməsi dövlətin iqtisadiyyata müdaxilə dərəcəsi ilə mütənasib olur. Səmərəsiz dövlət xərclərinin azaldılması iqtisadiyyata fayda verər, lakin səmərəli dövlət xərclərinin azaldılması ona zərər verə bilər (2).

Əhalinin sosial müdafiəsilə bilavasitə və sıx bağlılığı olan sahələrdən biri də səhiyyədir. Bu sahəyə dövlət tərəfindən ayrılan vəsait dövlətin səhiyyə sisteminə etdiyi müdaxiləni müəyyənləşdirir. Bu baxımdan dövlətin bu sahəyə sərf etdiyi vəsaitin ÜDM-ə nisbətdəki göstəriciləri mühüm əhəmiyyət kəsb edir. Bir neçə inkişaf etmiş ölkədə bununla bağlı vəziyyətə nəzər yetirsək görərik ki, İsveç (10 %), Niderland (9,4%), Yeni Zelandiya (9%) dövlətin səhiyyəyə sərf etdiyi vəsaitin ÜDM-ə nisbətinin ən yüksək olduğu ölkələrdir.

Pensiya sistemi sosial müdafiənin ayrılmaz tərkib hissələrindən biridir. Pensiya sistemi aztəminatlı əhali qruplarından olan pensiyaçıların sosial müdafiəsini təmin etməklə bərabər, sosial-iqtisadi inkişafa da səbəb ola bilər. Bəzi hallarda pensiyaların verilməsi ilə bağlı dövlətlər müəyyən çətinliklərlə üzləşirlər. Pensiya yaşı kimi şərtlər sabit qaldıqda pensiyanı

verə bilmək üçün dövlətlər ya pensiya məbləğini azaltmalı, ya da məcburi sosial sığorta ödəmələrini artırmalıdırlar. Hər iki seçim siyasi cəhətdən o qədər də tövsiyə edilmir və əksər hallarda hökumətlər də belə həll variantlarına getmirlər. Belə vəziyyətdə dövlət pensiya sistemi ilə yanaşı, qeyri-dövlət pensiya sisteminin yaradılması ən məqbul sayıla biləcək həll yoludur. İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, qeyri-dövlət pensiya sistemi ümumilikdə ölkənin iqtisadi inkişafına müsbət təsir edir. Bu həm də, dövlətin sosial yükünü bir qədər yüngülləşdirir.

Sosial müdafiənin təşkili və gücləndirilməsi baxımından ən mühüm elementlərdən biri məşğulluqdur. İnsanların gəlir əldə etməsi, səmərəli və faydalı fəaliyyətinin təmin olunmasının da əsas mənbəyi və təminatçısı da məşğulluqdur. AR Qanunvericiliyi məşğulluğu “Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyəti” kimi xarakterizə edir (3). Dövlətin həyata keçirdiyi sosial siyasətin əsas komponentlərindən biri əmək və onunla birbaşa əlaqəli olan məşğulluq siyasətidir. Məşğulluğu iqtisadi kateqoriya kimi nəzərdən keçirsək, onun əhalinin əmək fəaliyyətində iştirakı ilə bağlı münasibətlər toplusu olduğunu qeyd edə bilərik. Daha dəqiq desək, məşğulluq əhalinin əmək fəaliyyətində iştirak ölçüsünü, haqqı ödənilən iş yerlərini, işçilərə olan tələbin təmin olunma səviyyəsini, eləcə də, gəlirin əldə edilməsi ilə bağlı fərdi tələbləri özündə ehtiva edir. Məhz bu baxımdan məşğulluq əmək bazarının əsas xüsusiyyəti kimi qeyd edilməlidir.

Sosial müdafiə yoxsulluğun azaldılması və həssas əhalinin davamlılığını artırmaq üçün əsas mexanizmdir. Daha geniş mənada, o, iqtisadi təhlükəsizliyi artırmaq, fərdləri və ailələri işsizlik, əlillik, qocalıq, xəstəlik kimi çətin həyat şəraitlərindən

DOI: https://doi.org/10.36719/2024/VIII

qorumaq üçün nəzərdə tutulmuş bir sıra proqramları əhatə edir. Sosial müdafiənin əhəmiyyəti onun yoxsulluqdan dərhal xilas olmağa yönələn uzunmüddətli sosial-iqtisadi inkişafla əlaqəli rolundadır. Çoxsaylı tədqiqatlar və empirik sübutlar göstərir ki, ünvanlı sosial müdafiə proqramları yoxsulluğun azaldılmasına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir. Sosial müdafiə tədbirlərinin həyata keçirilməsi təkcə yoxsulluğun aradan qaldırılması baxımından yox, həm də onun əsas səbəblərini aradan qaldıraraq iqtisadi təhlükəsizliyin və bərabərliyin hamı üçün əlçatan olması baxımından mühümdür.

## Ədəbiyyat

1. Abdullayeva, R. (2021). Azərbaycan Respublikasında sosial müdafiə sisteminin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi: İqtisad elm. d-ru. dər. al. üçün təq. ed. dis. Bakı, s.66.
2. The size and role of economic issues: [Elektron resurs] / URL:
3. https://ecommons.cornell.edu/items/ffb241d9-81e9-46fa-badb-fa0373af2ff7
4. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 59-61
VII Collection of Theses on "Scientific Sources" / 59-61
DOI: https://doi.org/10.36719/2024/VIII

**Ləman Zülfüqarova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
zulfuqarova.leman.01@mail.ru

# MÜASİR DÖVRDƏ GƏNCLƏRİN ÜZLƏŞDİYİ PROBLEMLƏR

***Açar sözlər:*** *gənc, problem, sosial müdafiə, vərdiş, suisid, asılılıq, asudə vaxt*
***Keywords****: youth, problem, social protection, habit, suicide, addiction, leisure time*

Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən önəmli məsələlərdən biridir. Həmçinin, dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, yaşlı nəslin davamçısı və cəmiyyətin islahatları hərəkətə gətirən zümrəsi hesab olunur. Eyni zamanda, həyatın bu dövrü tez-tez problemlər, stress, özü ilə və cəmiyyətlə münaqişələr dövrüdür. Gənclərin problemlərinin müəyyən olunmasına gəlincə aşağıdakıları qeyd etmək olar:

Təhsil problemləri – ali və orta ixtisas məktəblərinə qəbul zamanı test üsulunun tətbiqi gənclərin əzbərçiliyə meyilliliyini artırır, onların sərbəst fikir bildirmək, regiondan olan tələbələrin yaşayış yerinin olmaması, müəssisə daxilində tələbələrin asudə vaxtlarının təşkil olunmaması;

Məşğulluq problemləri – gənclərin iş təcrübəsi olmaması səbəbindən məşğulluğa cəlb olunmaması, məşğulluq bazarı haqqında məlumatın olmaması, məşğulluq idarələrinin gənclər arasında tanınmaması və fəaliyyətlərinin düzgün qurulmaması, kənd təsərrüfatı ilə məşğul olan gənclərin dəstəklənməməsi;

DOI: https://doi.org/10.36719/2024/VIII

Səhiyyə problemləri – gənclərin səhiyyə müəssisələrində qeydiyyat problemlərinin olması, gənc oğlanların və qızların reproduktiv sağlamlığının zəif olmasıdır. Gənclik yaş qrupunda fiziki və psixoloji problemlərə səbəb olan amillər kimi aşağıdakılar nəzərdə tutulur:

Cinsi sağlamlıq problemləri, psixi depressiya, yuxarı tənəffüs yollarının infeksiyası, eyni zamanda yorğunluq, yuxusuzluq, baş ağrısı, çəki problemi və qidalanma problemi də gənclər arasında aktualdır. İlk yardım və fövqəladə hallara cavab vermə biliklərinin olmaması, ictimai maarifləndirmənin zəifliyi də ilkin problemlərdən biri olaraq qalır.

İnternet asılılığı problemi – sosial şəbəkələr vasitəsilə asanlıqla qurulan əlaqələr, yeni uğur və nailiyyətlər qazanmaq üçün İnternet hər birimizə geniş imkanlar verir. Gündəlik həyatda maliyyə, bank, təhsil, müxtəlif xidmət sahələrində əlverişli imkanlar təqdim edən İnternetin həddindən izafi istifadəsi İnternet asılılığı adlanan sosial problemi gündəmə gətirir.

Asudə vaxtın təşkili problemləri – gənclər üçün əyləncə, ödənişsiz idman-sağlamlıq mərkəzlərinin olmaması, kütləvi kitabxanalar haqqında gənclərin məlumatsızlığı, mədəniyyət mərkəzlərində fəaliyyətin zəifliyi və gənclərin cəlb olunmaması, müxtəlif idman sahələrinin az olması aiddir.

Məişət problemləri – gənclərin gündəlik məişətdə yaşadığı problemlər nəzərdə tutulur. Gənclərin təhsil səviyyəsinin yüksək olması onların valideynləri ilə problem yaşama meylini artıran amildir. Çünki belə vəziyyət təhsil səviyyəsi yüksək olan gənclərin müəyyən mənada müstəqil olması deməkdir. Qərar qəbul etmə, özünə inam, öz həyatlarını idarə edə bilmə (muxtariyyət), və özünə hörmət kimi hisslərin daha da inkişaf etməsi müşahidə olunur.

Bu sadalananlardan əlavə son dövrlərdə xüsusilə gənclər arasında narkomaniya, alkoqolizm, suisidə meyilliliyin artması

DOI: https://doi.org/10.36719/2024/VIII

həyəcan yaradan hallardan biridir. Narkomaniya artıq uzun müddətdir ki, dünyanın ən təhlükəli problemlərindən biridir. Daha çox yeniyetmə və gənclər arasında müşahidə olunur.

Özünü öldürmə – suisid də narkomaniya kimi müasir cəmiyyətin qlobal problemlərindən biridir. Həyat təcrübəsi olmayan, psixi durumu hələ bərkiməmiş yeniyetmələr, gənclər həyatın müxtəlif mərhələlərində yaranmış problemli situasiyalara yüksək emosionallıqla reaksiya verir və yanlış qərarlar qəbul etməklə həyatlarını təhlükəyə atırlar.

Bu kimi halların qarşısının alınması üçün təcili və təxirəsalınmaz tədbirlər görülməlidir. Gənclərin ədalət və düzgünlük, vətənpərvərlik, xeyirxahlıq, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edilməsi, dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi mənəvi inkişafın vacib istiqamətləridir.

Düşünürəm ki, müəyyən səbəblərdən gənclərin təhsildən yayınmasının qarşısını almaq və onlarda təhsilə maraq artırmaq məqsədilə görüşlərin keçirilməsi; qaçqın və məcburi köçkün gənclər üçün müasir informasiya - kommunikasiya texnologiyalarına həsr olunmuş təlim proqramının təşkili və internet aksiyalarının keçirilməsi; gənclərimizi ziyanlı vərdişlərdən yayındırmaq məqsədilə aksiyaların təşkili olduqca faydalı olardı. Eyni zamanda gənclərin mütaliəsinin düzgün istiqamətləndirilməsi məqsədilə kitabxanalarda xüsusi proqramların təşkil edilməsi, informasiya və məsləhət xidmətinin həyata keçirilməsi müsbət yeniliklərə səbəb olar.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 62-65
VII Collection of Theses on “Scientific Sources” / 62-65
DOI: https://doi.org/10.36719/2024/VIII

**Dərya Cabbarova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
darya.jabbarova@avrora.az

# CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏRİN SOSİAL REABİLİTASİYA PROBLEMLƏRİ

***Açar sözlər:*** *yenidən cəmiyyətə inteqrasiya, sosial problemlər, cinayət hüququ, sosial dəstək, psixoloji dəstək*
***Keywords:*** *reintegration into society, social problems, criminal law, social support, psychological support*

Cinayət davranışını qiymətləndirmək üçün müxtəlif tərif-lərdən istifadə olunur. Bir sıra tənqidi perspektivlər mövcuddur ki, onların hər biri cinayət davranışının konkret sosial və hüquqi münasibətlər çərçivəsində mövcud olan çoxsaylı ziddiyyətlərin nəticəsi olduğunu nəzərdə tutur. Xüsusilə, cinayət və müxtəlif sosial-iqtisadi vəziyyətlər arasında əlaqə cinayət fəaliyyətinin sosial məzmunu və xarakteri ilə nümayiş olunur.

Tarix kontekstində baxdıqda cinayət həm sosial, həm də hüquqi cəhətdən inkişaf edən bir hadisədir. İnsanın bioloji elementləri ilə cinayət davranışı arasında heç bir əlaqə yoxdur. Əksinə, cinayət davranışının mərkəzində sosial əlaqələrin funksiyası dayanır.

Cinayət hüququ cinayətləri həm cəmiyyəti riskə atan davranışlar, həm də qanunla qadağan edilən və cəzalandırılan hərəkətlər hesab edir. Cinayət davranışı həm sosial, həm də iqtisadi problemlərə səbəb olan bir problemdir.

Məhkum edilmiş və azadlığa buraxılmış şəxslərin sosial reinteqrasiyasına diqqətin yönəldilməsi cəmiyyətdəki bir çox

DOI: https://doi.org/10.36719/2024/VIII

sosial, iqtisadi və demoqrafik problemlərin həlli, eləcə də ictimai təhlükəsizliyin təmin edilməsi və cinayət hallarının azaldılmasına yönəlmiş qabaqlayıcı tədbirlərin əhatə dairəsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, hazırda sosial reabilitasiya sisteminin yaradılması və istismarı üçün yaxşı işlənmiş konseptual çərçivə yoxdur. Həmçinin, bu konkret qrup şəxslərlə sistematik reabilitasiya işlərinin aparılması üçün metodoloji və nəzəri əsasların çatışmazlığı da mövcuddur. Bununla belə, məhkum edilmiş və azadlığa buraxılmış şəxslərlə işləmiş müxtəlif təşkilatların kollektiv təcrübəsi nəzəri ümumiləşdirmə, inkişaf və sosial-pedaqoji reabilitasiya sisteminin qurulması üçün zəmin yaratmışdır.

Həbsxanadan çıxan şəxslərin psixoloji xüsusiyyətləri, onların cəmiyyətə uğurla inteqrasiyası üçün həll edilməli olan çoxsaylı problemlərlə yanaşı, hərtərəfli dövlət yardımı sisteminin yaradılmasının zəruriliyini önə çəkir. Məhkumların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası məsələsi ölkələri narahat edən məsələdir. Bu məsələnin uğurlu həlli dövlət idarələri ilə vətəndaş cəmiyyəti institutları arasında aydın və səmərəli əlaqəni tələb edir. Bu, cəmiyyət daxilində bütün möhkəm elementlərin birləşməsini və onların qarşılıqlı əlaqəsinin qanunvericilik səviyyəsində tənzimlənməsini əhatə edən uyğun hüquqi bazanın yaradılmasını zəruri edir. Bundan əlavə, həbsdən azad edilmiş yeniyetmələrin və gənclərin reinteqrasiyasını asanlaşdırmağa yönəlmiş dövlət səviyyəsində proqramın hazırlanması zəruridir.

Cinayət hüququ sahəsində əsas narahatlıq doğuran məsələ, həbsdən azad edilmiş şəxslərin sosial reinteqrasiyası müasir cəmiyyətdə mühüm problem yaradır. Cinayət, bir insanın tipik həyat şəraitinə atipik reaksiyası kimi müəyyən edilə bilər. Cinayət əməllərinin əksəriyyəti alkoqol və narkotik kimi

DOI: https://doi.org/10.36719/2024/VIII

aludəçilik səbəbindən, cəmiyyətin narazılığı kontekstində törədilir. Bu asılılıqlar çox vaxt aşağı təhsil səviyyəsi və xoşagəlməz həyat şəraiti ilə əlaqələndirilir.

Həbsxanadan çıxdıqdan sonra fərdlər tez-tez eyni vəziyyətlərlə qarşılaşır və sosial assimilyasiyada çətinliklərlə qarşılaşırlar. Bu vəziyyətdə təqsirkar bilinməklə bağlı sosial narazılıq fərdlərin cəmiyyətə yenidən inteqrasiyasını çətinləşdirir. İşlə təmin olunmağa cəhd edərkən belə, bir çox insanlar məlum cinayətə görə bəraət almış birini işə götürmək istəmirlər. Bu, təşkilatlar və işəgötürənlər tərəfindən edilən bu yanaşmalar fərdin qavrayışına təsir göstərə bilər və beləliklə, fərdin cəmiyyətə reinteqrasiyasına mane ola bilər.

Beləliklə, həbsdən azad edilmiş şəxslərə qazanc gətirən fəaliyyətdə iştirak etmək imkanı verilməlidir ki, bu da ikili məqsədə xidmət edəcək. Belə ki, bu onları növbəti dəfə cinayət törətməkdən yayındıracaq, həm də onların cəmiyyətə reinteqrasiyasını asanlaşdıracaq və onların gündəlik həyat tempinə alışmasına şərait yaradacaqdır.

Cəzaçəkmə müəssisələri təkcə cəzanın icrası deyil, həm də şəxslərin cəmiyyətə reinteqrasiyası, peşə sahibi olması, təhsil alması, hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olan psixoloji dəstək və qabaqlayıcı tədbirlər həyata keçirmək vəzifəsini daşıyır. Beləliklə, fərdlər öz cəmiyyətlərinə yenidən inteqrasiya edə, ənənəvi həyat tərzinə alışa və cəmiyyətin yaxşılaşmasına töhfə verə bilərlər.

Cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətində əsaslı dəyişikliklər olur ki, bu da öz növbəsində onların dəyərlərinin və həyat yolunun dəyişməsinə səbəb olur. Cinayət törətməkdə təqsirli bilinən və həmin cinayətin nəticələrini ödəməyə məhkum edilmiş şəxs həbsdən azad edildikdən sonra dərhal çətin sosial şəraitə düşür. Onun azadlığa çıxdıqdan sonra

DOI: https://doi.org/10.36719/2024/VIII

ilk dəfə olaraq cəmiyyətdən kənarda qalması faktı ilə üzləşməsi qaçılmazdır.

Sosial adaptasiyanın hansı mərhələdə baş verdiyini, onun baş vermə tərzini və onun həyata keçirilməsində istifadə olunan alətləri nəzərə almaq çox vacibdir. Lakin sosial adaptasiyada çətinliklər və müxtəlif mənfi nəticələr (ailə, tanışlar və əmək kollektivi ilə ictimai faydalı əlaqələrin kəsilməsi) səbəbindən cinayətkar həbsdən çıxanda heç də həmişə müsbət şəxs kimi formalaşa bilmir. Çünki o, həbsdən çıxandan sonra cəmiyyət tərəfindən gördüyü mənfi reaksiyalar onları yenidən cinayət törətməyə sövq edə bilər. Buna görə də, məhkumları azadlığa hazırlamaq məsuliyyəti cinayət cəzasının icrasına cavabdeh olan qurumların üzərinə düşür.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 66-68
VII Collection of Theses on “Scientific Sources” / 66-68
DOI: https://doi.org/10.36719/2024/VIII

**Asəf Əhmədov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
ahmadov.asaf@bk.ru

# AZƏRBAYCANDA TƏHSİL SAHƏSİNDƏ PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

***Açar sözlər:*** *sosial siyasət, təhsil, perspektivlər, sosial problemlər, sosial rifah*
***Keywords:*** *social policy, education, perspectives, social problems, social welfare*

Azərbaycan müstəqillik əldə etdikdən sonra siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə qısa dövr ərzində böyük inkişaf yolu keçmişdir. Ölkəmiz 1991-ci il suverenliyin bərpasından sonra keçid dövrünə qədəm qoymuşdur. Bu dövrdə məhz sosial-iqtisadi, ictimai-siyasi münasibətlər formalaşmışdır.

Sosial siyasətin həyata keçirilməsi prosesləri mədəni sahənin inkişafına da təsir göstərir. Bunun səbəbi – sosial siyasətin uğurlu təşkili insanın həyat səviyyəsinə təsir göstərir, bir sıra təminatlara əlçatanlıq yüksəlir və mədəni səviyyənin formalaşmasında yaxından iştirak edir.

Müstəqillikdən əvvəlki dövrdə də müəyyən problemlərin olması müstəqilliyin ilkin dövrlərində daha dərinləşmiş formada özünü göstərmişdir. Bu hadisələrlə bərabər Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı, ərazi bütövlüyünün pozulması, qaçqın və məcburi köçkün axını qarşıya bir sıra həll edilməli məsələlər qoyurdu. Ölkənin iqtisadi və sosial vəziyyəti isə ağır olduğundan məsələlərin həlli özü ilə yeni problemlər qarşıya çıxarırdı. Ölkəni bürüyən xaos dövlətin

DOI: https://doi.org/10.36719/2024/VIII

sosial müdafiə və ya digər sistemləri gücləndirmək üçün atacağı addımları arxa planda qoymağa sövq edirdi.

Məhz haqqında danışılan problemlərin aradan qaldırılmasında Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə addımlar atılmağa başladı.

Sosial siyasətin prioritet istiqamətlərindən biri təhsildir. Təhsil biliklərin və sosial sferanın təkrar istehsalı sosial institutunun sahəsi kimi sosial-iqtisadi təbiəti təhsilin cəmiyyətdəki rolu ilə müəyyən edilir. Təhsil eyni zamanda sosial xidmətlər sferasının sahəsi kimi çıxış edir. Bütün digər xidmətlərlə yanaşı, təhsil xidmətlərini ümumiləşdirən məsələ onların qeyri-maddiliyi, xidmətin bir proses kimi anlaşılmasıdır. Təhsil biliklərin təkrar istehsalının sosial institutu olmaqla servis fəaliyyətindən fərqlənir. Təhsil eyni zamanda yeni biliklərin yaranması deməkdir. Təhsilin inkişafı və keyfiyyətli olması inkişafda daim olmaq və inkişaf etməkdə olan dövlətlərin daim diqqət mərkəzində olan problemlərdəndir. Azərbaycanda "Təhsil haqqında Qanun" 2009-cu il iyunun 19-da qəbul edilmişdir. Statistik göstəricilər ökəmizdə hər 1000 nəfərdən 766-sının təhsil aldığını göstərir. Hazırda ölkəmizdə 53 min tələbənin təhsil aldığı 59 orta ixtisas təhsil müəssisəsi, 143 min tələbənin təhsil aldığı 57 dövlət, 15 qeyri-dövlət təhsil müəssisələri fəaliyyət göstərməkdədir.

Təhsil sahəsində qarşıya çıxan problemlər arasında aşağıdakılar xüsusi əhəmiyyətə malikdir:

- Təhsil sahəsində istifadə edilən dərsliklərin keyfiyyətinin artırılması;
- Təhsilin əsasən biliklərin ötürülməsi və mənimsənilməsindən ibarət olması. Təhsilə yeniliklərin gətirilməməsi, ixtiraların olmaması, yaxud mövcud resursların inkişafında hər hansı yol qət edilməməsi;

**DOI: https://doi.org/10.36719/2024/VIII**

- Təhsil sistemində yeni, müasir texnologiyalardan istifadəsinin orta məktəblər, peşə məktəbləri, ali və orta ixtisas məktəblərində istifadə edilməsi;
- Təhsil ocaqlarında müəllimlər arasında konfliktli vəziyyətlərin ictimai hal almasının qarşısının alınması, tələbə və şagird heyətinin bu vəziyyətlərdən sosial, psixoloji, hər hansı formalarda təsirlənməsinin qarşısının alınması;
- Təhsil sahəsində xidmət göstərən şəxslərin davamlı təlimlənməsi, yalnız biliklərinin deyil, pedaqoji bacarıqlarının hər zaman inkişaf yönümlü olaraq getməsinə dəstək olmaq.

Təhsil sahəsində qarşıya çıxan problemlərin aradan qaldırılması üçün sürətlə modernləşən təhsil sistemində insan kapitalının inkişafı çağırışlarına cavab verə biləcək yeni addımlar atılmaqdadır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişləndirilməkdə və yeni təhsil idarəetmə sistemi qurulmaqdadır. Bunun üçün də təhsil sahəsini əhatə edən normativ-hüquqi baza yenilənmiş və təkmilləşdirilmişdir.

**VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 69-71**
**VII Collection of Theses on “Scientific Sources” / 69-71**
**DOI: https://doi.org/10.36719/2024/VIII**

**Xəyyam Ölkəliyev**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
khayyamolkeliyev@gmail.com

# ƏHALİNİN AZTƏMİNATLI TƏBƏQƏLƏRİNİN SOSİAL MÜDAFİƏSİNİN TƏNZİMLƏNMƏ AMİLLƏRİ

***Açar sözlər:*** *sosial müdafiə, yoxsulluq, iqtisadi, aztəminatlı, məşğulluq*
***Keywords:*** *social security, poverty, economic, low income, employment*

Sosial müdafiə sosial hüququn əsasını təşkil edən insan hüquqlarından biridir. Bu o deməkdir ki, sosial müdafiə hüququ bütün insanların vacib hüququdur və dövlətlər minimum sosial səviyyəyə zəmanət verməyə borcludurlar. Sosial inkişafın əsasını əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün vacib olan minimum əmək haqqının təmin edilməsi, ehtiyacı olan əhali kateqoriyalarına sosial və psixoloji dəstəklərin göstərilməsi kimi xidmətlər təşkil edir. Bütün ömür boyu sosial müdafiə insanlara tibbi xidmətlər, zəmanətli gəlirlər təqdim edir və yoxsulluğun azaldılması, bərabərsizliklərin qarşısının alınmasında mühüm rol oynayır. Hər bir ölkə insan inkişafına dəstək, sosial birlik, əmək fəaliyyətlərinin gücləndirilməsi və stimullaşdırılması məqsədi ilə sosial müdafiə tədbirləri həyata keçirir.

Aztəminatlılıq anlayışı dünyanın bir çox yerində yayılan və beynəlxalq həll tələb edən qlobal problemlərdən biridir. Hər bir dövlət öz əhalisinin sosial cəhətdən güclü olması, öz ehtiyaclarını rahat bir şəkildə ödəməsi üçün daim sosial sahədə yeniliklər etməyə məcburdur. Beynəlxalq təcrübə göstərir ki,

uzunmüddətli yoxsulluğun azaldılması məşğulluq və gəlir gətirən imkanların artması ilə birlikdə iqtisadi yolla əldə edilir. Bununla belə, dövlət həmişə sosial müdafiə sistemindən asılı olacaq cəmiyyətin həssas təbəqələrini qorumalıdır. Sosial müdafiənin üç əsas elementi var: sosial sığorta, sosial yardım və sosial müavinətlər.

Aztəminatlı təbəqələrə dəstək məqsədilə dövlət tərəfindən qanunlar qəbul edilmiş və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Sosial yardım almaq istəyən yetkinlik yaşına çatmış və əmək qabiliyyətli şəxslər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq olunmuş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”na əsasən yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin verdiyi ailə tərkibi haqqında arayış əsasında notariat orqanı tərəfindən təsdiq edilmiş ərizə ilə sosial yardımın alınması üçün müraciət edə bilərlər. Daha sonra müraciətlər VEMTAS (altsistem) tərəfindən yoxlanaraq sosial yardımın təyin olunması və ya sosial yardımın təyin edilməsindən imtina edilməsi barədə qərar çıxarılır və ailəyə bu barədə məlumat göndərilir.

Ümumiyyətlə, aztəminatlı təbəqənin artmasının qarşısının alınması üçün sosial xidmətlərin genişləndirilməsi vacibdir. Dünya ölkələrində əhaliyə dəstək məqsədilə sosial işçilərin fəaliyyət göstərdiyi kimi, artıq Azərbaycanda da sosial iş inkişaf etməyə başlamışdır. Hal-hazırda sosial xidmət müəssisələrinin demək olar ki, hər birində sosial işçilər fəaliyyət göstərir. Əhalinin sosial xidmətə olan ehtiyacları nəzərə alınaraq, artıq sosial iş üzrə vakansiyaların artırılması və kadrların hazırlanması prosesi genişləndirilmişdir. Sosial işçilər mikro,

DOI: https://doi.org/10.36719/2024/VIII

mezo və makro səviyyədə yardım göstərdiyindən dövrün ən əhəmiyyətli sahələrindən birinə çevrilmişdir.

Bütün həyata keçirilən sosial müdafiə tədbirləri Azərbaycanın sosial yönümlü dövlət kimi formalaşmasına müsbət təsir göstərir. Artıq dövlət hər bir təbəqə leyhinə qanunlar qəbul edir və siyasətlər həyata keçirir. Bu uğurlu siyasət nəticəsində ölkədə aztəminatlı şəxslərin sayı əhəmiyyətli dərəcədə azalır və azalmaqdadır. Bu səbəbdən aztəminatlı əhali kateqoriyalarına dəstək məqsədilə həyata keçirilən sosial müdafiə tədbirlərinin genişləndirilməsi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, iqtisadi bərabərliyin təmin olunması baxımından olduqca əhəmiyyətlidir.

**VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 72-75**
**VII Collection of Theses on “Scientific Sources” / 72-75**
**DOI: https://doi.org/10.36719/2024/VIII**

**Günəş Əliyeva**
Qərbi Kaspi Universiteti
magistrant
gunash.bayramova@icloud.com

# QADIN MƏHKUMLARIN ŞƏXSİYYƏT POZĞUNLUĞU PROBLEMİ

***Açar sözlər:*** *qadın məhkumlar, şəxsiyyət pozğunluğu, psixopatiya, cinayət, aqressiya*
***Keywords:*** *female convicts, personality disorder, psychopathy, crime, aggression*

Amerikalı ekspertlər hesab edirlər ki, həbsxanada cəza çəkən bütün məhkumların 15-25%-i şəxsiyyət pozğunluğu meyarlarına cavab verir. Psixi pozğunluğu olan məhkum qadınların kişilərə nisbətən daha çox olduğuna inanırlar və onların sayı yaş artdıqca artır. Qətl törədən və ABŞ həbsxanalarında saxlanılan qadınların 80%-də şəxsiyyət pozğunluğu var. Rus alimlərinin məlumatları göstərir ki, qadınlar arasında ağır cinayətlərin artması və eyni zamanda şəxsiyyət pozğunluğu ilə məhkum olunanların sayı artır. Şəxsiyyət pozğunluğu olan məhkumlar arasında emosional qeyri-sabit (impulsiv tip) 51,8% təşkil edir; emosional qeyri-sabit (sərhəd tipi) - 6,0%; isterik şəxsiyyət pozğunluqları ilə - 9,1%; asılı, şizoid - 16,2%; paranoid şəxsiyyətlər - 12,9%; qarışıq şəxsiyyət pozğunluğu olanlar - şəxsiyyət pozğunluğu olan müəyyən edilmiş məhkumların ümumi sayının 4%-ini təşkil edir. İ.F.Obrosov (2004) 500 məhkum üzərində tədqiqat aparmış və müəyyən etmişdir ki, şəxsiyyət pozuntularının ən çox yayılmış (58%) növləri emosional qeyri-sabit və dissosial tiplərdir. Sorğuda iştirak edənlərin 14,6%-də isterik şəxsiyyət

DOI: https://doi.org/10.36719/2024/VIII

pozğunluğu diaqnozu qoyulur, digər şəxsiyyət pozğunluqları isə birlikdə 15,4%-ni təşkil edir. Xarici ədəbiyyatda (ABŞ, Kanada, Böyük Britaniya) şəxsiyyət pozğunluqlarının - patoloji şəxsiyyət xüsusiyyətlərinin, onların şiddətinin dərəcəsinin (eqosentrizm, narsisizm, hərəkətlərin qeyri-tənqidiliyi, emo) diaqnozu və təsnifatı kimi əsas götürmək üçün hələ də fikir ayrılıqları mövcuddur. Yuxarıda qeyd edildiyi kimi, bu yanaşmaların hər ikisini birləşdirməyə cəhd Robert Hare tərəfindən psixopatiya diaqnostikası üçün 20 maddəlik Psixopatiya Yoxlama Siyahısı-Yenidən İşlənmiş (PCL-R) anketində edilmişdir. Bu anket antisosial davranışla əlaqəli şəxsiyyət patologiyasının (psixopatiya) diaqnozu ilə bağlı ən həssaslardan biri hesab olunur.

Təcavüz problemi ilə bağlı müasir tədqiqatlar gender aspektini nəzərə almağı vacib hesab edir, çünki o, kişi və qadınların reaksiya formalarında fərqlərin olduğunu qəbul edir. Bununla belə, son vaxtlar müəyyən yaxınlaşma müşahidə olunur və qadının, məsələn, sifarişli qətl törədə bilməsi və ya cinayətkar qruplaşmaya rəhbərlik edə bilməsi heç kəsi təəccübləndirmir, lakin buna baxmayaraq, qadın aqressiyasının xarakterik cəhəti onun diqqət mərkəzində qalır. Çox vaxt qadın təcavüzü, qadının özünün ilkin olaraq qurbanı olduğu mikromühitdə uzunmüddətli travmatik vəziyyətə cavabdır. Şəxsiyyətə qarşı cinayət hələ də qadın təcavüzü üçün nadir haldır və daha çox psixi pozğunluqları, o cümlədən şəxsiyyət anomaliyaları (təxminən dörddə biri) olan şəxslər tərəfindən törədilir. Bir çox qadın alkoqoldan sui-istifadə edir və ya psixoaktiv maddələrdən istifadə edirdi. Məhkum olunana qədər qadınların əksəriyyəti artıq cəmiyyətə uyğunlaşmamış, daimi gəliri və ya sabit ailə münasibətləri yox idi. Bu sosial şərait şəxsiyyət pozğunluğu olan qadınlar üçün dözülməz oldu, onların şəxsi keyfiyyətlərinə yüksək tələblər qoydu və bununla

da onların şəxsiyyət pozğunluğu tipinə xas olan emosional reaksiyaya səbəb oldu, bəzən dekompensasiyaya səbəb oldu. Bir çox müəlliflər psixoloji və sosial faktorları nəzərə alaraq qadın cinayətkar aqressiyasından söhbət gedəndə bioloji faktorlara böyük əhəmiyyət verirlər. Xüsusilə anormal və ya vurğulanmış bir şəxsiyyətdə katalizator rolunu oynaya bilən qadının həyatındakı bioloji şərtləri və dövrləri (aybaşı dövrü, yeniyetməlik, menopoz, hamiləlik, doğuşdan sonrakı dövr) nəzərə almaq təklif olunur. Digər tərəfdən, qadın üçün onun əlverişli sosial vəziyyəti və ailəsi çəkindirici ola bilər. Cinayətlərin böyük bir hissəsi emosional cəhətdən yetişməmiş reaksiyalar, dominantlıq arzusu, diqqəti cəlb etmək istəyi, öz hərəkətlərinə və davranışlarına tənqidin olmaması, kompromis variantları tapa bilməməsi, öz davranışlarını sıxışdırmaq ilə seçilən isterik şəxsiyyət pozğunluğu olan qadınlar arasında baş verir. Artan hissyönümlü davranış, isti xasiyyət, "özünü şişirtmə" reaksiyaları və könüllü özünü idarə etmə qabiliyyəti ilə xarakterizə olunan emosional qeyri-sabit şəxsiyyət pozğunluğu olan insanlar arasında cinayətlər daha az deyil. Onlardan bəziləri mənfi stimullara emosional ilişmə və qisasçılıqla xarakterizə olunur. Belə qadınlar ən çox birlikdə spirtli içki qəbul edərkən cinayət törədirlər.

Son on ildə Azərbaycan Respublikasında həbsdə olan qadınların sayında dramatik artım fonunda, məhrumiyyət faktorlarını və əlaqəli həyat təcrübələrini əhatə edən sorğu ilə 251 qadın məhbusun həbsdə psixoloji reaksiyaları araşdırılmışdır. Depressiv şikayətlər, əsəbilik və özünə zərər vermə riski hər iki amil üzrə proqnozlaşdırılsa da, sübutlar məhrumiyyət faktorlarının bu rifah ölçülərinə müəyyən faktorlardan daha çox təsir etdiyini göstərir. Psixoloji problemlərin əvvəlki müalicəsi psixoloji şikayətlər və travma sonrası stress üçün ən vacib kovariantdır. Ən mühüm

DOI: https://doi.org/10.36719/2024/VIII

məhrumiyyət faktorları işçi heyəti və digər məhbuslar tərəfindən rəftar və ətraf mühitin gərginliyi olmuşdur. Müvafiq olaraq, biz təklif edirik ki, qadın məhbusların həbsxanaya adaptasiyalarını daha yaxşı başa düşmək üçün qadınların həbsxana şəraitinə daha çox diqqət yetirilməli, onların qurbanlıq və narkomaniya tarixçələrinə daha az diqqət yetirilməlidir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 76-81
VII Collection of Theses on “Scientific Sources” / 76-81
DOI: https://doi.org/10.36719/2024/VIII

**Günay Bağıyeva**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
yerguc.@mail.ru
**Könül Ağayeva**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
elmitexnikisobe@mail.ru

# ƏMƏK BAZARINDA OLAN AKTUAL MƏSƏLƏLƏR

***Açar sözlər:*** *konsepsiya, investisiya, məşğulluq siyasəti, işçi qüvvəsi*
***Keywords:*** *concept, investment, employment policy, workforce*

Əmək bazarı dedikdə istehsal amillərindən birinin – əmək münasibətlərinin meydana çıxdığı bazar nəzərdə tutulur. Əmək bazarının mahiyyətinin aydınlaşdırılması sahəsində bir-birindən fərqlənən bir neçə konsepsiyanın olduğu məlumdur. Birinci konsepsiyanın əsasında klassik siyasi iqtisadın hamı tərəfindən qəbul olunan müddəası durur. Bunun tərəfdarları neoklassiklərdir (P.Samuelson, M.Feldstayn, R.Xoll). Keçən əsrin 80-ci illərindən başlayaraq təklif iqtisadiyyatı konsepsiyasının tərəfdarları da (D.Gilder, A.Laffer və b.) bu konsepsiyaya tərəfdar çıxmışlar. Onlar belə hesab edirlər ki, bütün başqa bazarlar kimi, əmək bazarı da qiymət tarazlığı əsasında fəaliyyət göstərir. Başqa sözlə, bazar tənzimləyicisi vəzifəsini iş qüvvəsindən ibarət əmtəənin qiyməti (əmək haqqı) yerinə yetirir. Onların fikrincə, məhz tələb və təklif əmək haqqının köməyilə tənzimlənir, onların tarazlığı təmin olunur. Təhsilə və ixtisasın artırılmasına qoyulan investisiyalar da maşın və avadanlıqlara qoyulan investisiyaların analoqudur. Neoklassik

DOI: https://doi.org/10.36719/2024/VIII

nəzəriyyəyə görə iş qüvvəsinin dəyəri tələb və təklifdən asılı olaraq ya artır, yaxud da azalır, bazarda tarazlıq hökm sürdükdə isə işsizlik aradan qalxır.

Keynsçilər və monetaristlər isə əmək bazarının mahiyyətinin aydınlaşdırılmasına başqa mövqedən yanaşırlar. Onlar, neoklassiklərdən fərqli olaraq əmək bazarını daimi və tarazlığın olmadığı bir sahə kimi nəzərdən keçirirlər. C.M.Keyns, sonralar isə R.Qordon və başqaları iddia edirdilər ki, iş qüvvəsinin qiyməti (əmək haqqı) müəyyən olunmuş kəmiyyətdir və demək olar ki, dəyişmir (xüsusilə də azalmağa doğru dəyişmir). Lakin onlar bunu isbata ehtiyacı olmayan bir fakt hesab edirdilər. Bu konsepsiyaya görə iş qüvvəsinin qiyməti (əmək haqqı) bazarın tənzimləyicisi olmadığı üçün onu (yəni tənzimləyicini) kənarda axtarmaq lazımdır. Onların fikrincə bu vəzifəni dövlət yerinə yetirməli, ümumi tələbi azaltmaq və ya artırmaqla qeyri-tarazlığı aradan qaldırmalıdır. Bunu onunla izah edirdilər ki, dövlət, vergiləri azaltmaqla tələbin və istehlakın artmasına səbəb olur. Beləliklə, bu modelə görə iş qüvvəsinə olan tələb, əməyin bazar qiymətindəki tərəddüdetmələrlə deyil, ümumi tələblə, başqa sözlə, istehsalın həcmi ilə tənzimlənir.

Əmək bazarının fəaliyyət mexanizminə dair geniş yayılmış ideyalardan biri də C.Danlop, L.Ulman və başqalarının fikirləridir. Onlar əsas diqqəti iş qüvvəsinin strukturunda peşələr və sahələr üzrə müxtəlifliyin və əmək haqqının səviyyəsinin təhlilinə yönəldirlər. Göründüyü kimi, burada makroiqtisadi təhlildən bir növ imtina edilir və bazarın, ayrı-ayrı sahələrin, demoqrafik qrupların dinamikasının xüsusiyyətləri ilə əlaqələndirilməklə izah olunmasına cəhd göstərilir.

Marksist iqtisadi nəzəriyyədə əmək bazarı, bazarın xüsusi növü kimi müəyyən olunur. Marksizmə görə əmək prosesində iş qüvvəsi dəyər yaratdığı halda, bütün digər ehtiyatların dəyəri

DOI: https://doi.org/10.36719/2024/VIII

əməyin özü tərəfindən həmin dəyərin üzərinə keçirilir. Bu, iş qüvvəsini bütün digər ehtiyatlardan əsaslı surətdə fərqləndirir. Bundan başqa, marksistlər hesab edirlər ki, iş qüvvəsi bazarı da bazara xas olan ümumi qanunauyğunluqlara tabe olsa da, onun özünəməxsus spesifik xüsusiyyətləri vardır. Belə ki, istehsalın subyektiv amili olan iş qüvvəsi özü əmtəə olmaqla, tələb və təklifə fəal təsir göstərə bilər.

Beləliklə, nəzərdən keçirilən konsepsiyalar bir-birini tamamlamaqla, əmək bazarının fəaliyyəti barədə ümumi təsəvvür verir.

Tədqiqatçıların çoxu müasir əmək bazarının ikili xarakterdə olduğunu qeyd edirlər. Onların fikrincə bazarda bir-biri ilə rəqabət aparmayan ən azı iki iş qüvvəsi bazarı, yaxud da vahid iş qüvvəsi bazarının iki seqmenti fəaliyyət göstərir. Bu bazarlardan biri ali təhsilli mütəxəssislərin, inzibati və idarəetmə işçilərinin, yüksək ixtisaslı işçilərin iş yerlərini əhatə edir. Texniklərin, inzibati-köməkçi heyətin və orta peşə təhsilli işçilərin iş yerləri də bu bazara aiddir. Bazarlardan digəri isə xüsusi ixtisas və peşə hazırlığı tələb etməyən iş yerlərini əhatə edir. Bunlara xidmət işçilərini, ixtisassız işçiləri, aşağı kateqoriyadan olan qulluqçuları misal göstərmək olar.

İnkişaf etmiş ölkələrdə iş qüvvəsinə bütün məşğul (hərbi qulluqçular da daxil olmaqla) və işsiz əhali daxil edilir. Buna iqtisadi ədəbiyyatda həm də "iqtisadi fəal əhali" deyilir. Bundan başqa, statistikada "mülki iş qüvvəsi" (hərbi qulluqçular nəzərə alınmadan) kateqoriyası da hesablanır.

Məşğul əhali tam və natamam iş həftəsi ərzində işləyənlərə bölünür. Məsələn, ABŞ-da birinci qrupa həftədə 35 saat və daha çox işləyən şəxslər, ikinci qrupa isə bir saatdan 34 saatadək işləyən şəxslər aid edilir. Bununla əlaqədar olaraq məşğulluğa dair aşağıdakı göstəricilərdən istifadə olunur: məşğul əhalinin ümumi sayı, tam iş gününə çevrilməklə

DOI: https://doi.org/10.36719/2024/VIII

məşğul əhalinin sayı, müəyyən dövr ərzində işlənmiş adam – saatların miqdarı daxildir.

Bazar iqtisadiyyatının daha çox inkişaf etdiyi ölkələrdə muzdla işləyən işçilər bütün iş qüvvəsinin orta hesabla 90%-dən çoxunu təşkil edir. İş qüvvəsinin müəyyən hissəsini muzdlu əməkdən istifadə etməyən və müstəqil işçilər adlandırılan kiçik sahibkarlar və muzdla işləməyən bir çox peşə sahibləri (vəkillər, jurnalistlər, yazıçılar, rəssamlar, həkimlər və b.) təşkil edir.

Son onilliklərdə inkişaf etmiş ölkələrdə iş qüvvəsinin sahə quruluşunda baş verən dəyişikliklərdə iki başlıca meyl özünü göstərir. Bunlardan biri kənd təsərrüfatında məşğul olanların sayının kəskin surətdə azalması, digəri isə xidmət sahələrinin genişləndirilməsi və əmək tətbiqinin aparıcı sahəsinə çevrilməsi ilə əlaqədar olaraq, burada məşğul olanların sayının artmasıdır. Məsələn, ABŞ-ın kənd təsərrüfatında məşğul olanların sayı 1955-ci ildəki 6,5 mln.nəfərdən, 1994-cü ildə 3,2 mln.nəfərə qədər azalmış, xidmət sahələrində məşğul olanların sayı isə əksinə, 1955-ci ildəki 30,1 mln.nəfərdən 1994-cü ildə 91,3 mln.nəfərə çatmışdır.

Müasir elmi-texniki inqilab iş qüvvəsinin ixtisasında birmənalı dəyişikliklərə gətirib çıxarır. Prinsipcə yeni texnologiya əməyin xarakterinə üç cür təsir edə bilər: Onun tətbiq olunması nəticəsində: a) Bir sıra istehsal funksiyaları ləğv edilə, b) Yeni funksiyalar yaradıla, c) Qalan funksiyalar maşınlara verilə bilər. Bütün bunlar isə nəticə etibarilə fiziki əməklə əqli əmək arasında nisbətin dəyişməsinə səbəb olur. Başqa sözlə, fiziki əməklə məşğul olanların sayı və xüsusi çəkisi azalır, əqli əməklə məşğul olanların sayı və xüsusi çəkisi isə artır.

**DOI: https://doi.org/10.36719/2024/VIII**

Ölkəmizdə həyata keçirilən dövlət məşğulluq siyasətinin prioritetlərindən biri də qadınların əmək bazarında iştirak və məşğulluq imkanlarının artırılmasıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu istiqamətdə tədbirlərin davamı olaraq, 2023-cü ildə daha 44,5 min qadın münasib işlə təmin olunmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumlarında çalışanların da hazırda 52,2 faizini qadınlar təşkil edir. Yeni Məşğulluq Strategiyasının əsas məqsədi məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltməkdir. Məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi, əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi, sosial dialoqun inkişaf etdirilməsi və qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması strategiyanın əsas məqsəd və hədəfləridir. Strategiyada "DOST" mərkəzləri çərçivəsində məşğulluq xidmətləri ilə bağlı müasir standartlara uyğun yeni xidmət modelinin tətbiqi də yer alır. Strategiyada işsiz, işaxtaran və məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün sosial dialoqun inkişaf etdirilməsi əsas məqsədlərdən biri kimi daim diqqət mərkəzində saxlanılacaqdır. Yeni Məşğulluq Strategiyasının uğurla reallaşdırılması sayəsində əmək

**DOI: https://doi.org/10.36719/2024/VIII**

bazarında baş verən proseslərə uyğun çevik institusional sistem formalaşacaq, əhalinin məşğulluq və layiqli iş imkanları genişlənəcək, inklüziv məşğulluq təmin ediləcək, təhsil sisteminin əmək bazarı ilə uyğunluğu təmin ediləcək, məşğulluq ilə sosial müdafiə arasında əlaqə daha da güclənəcəkdir.

**VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 82-86**
**VII Collection of Theses on "Scientific Sources" / 82-86**
**DOI: https://doi.org/10.36719/2024/VIII**

**Azər Zahirov**
Bakı Dövlət Universiteti
magistrant
azerzahirov@gmail.com

# OSMANLI ƏHALİSİNİN SOSİAL VƏZİYYƏTİNİN ARAŞDIRILMASINDA DEMOQRAFİYA ELMİNİN ROLU

***Açar sözlər:*** *demoqrafiya, türk tarixşünaslığı, formalaşma, Osmanlı, diversifikasiya*
***Keywords:*** *demography, Turkish historiography, formation, Ottoman, diversification*

XVI əsr Osmanlı İmperatorluğunda sosial vəziyyət çox diversifikasiya olunurdu və bir sıra faktorlar təsir edirdi. Bu dövr Osmanlı İmperatorluğu geniş bir coğrafiyaya yayılmışdı və müxtəlif mədəniyyətlər, dillər və inamlar bir arada yaşayırdılar.

Osmanlı İmperatorluğunun sosial strukturu kompleks və ümumi idi. Ən yuxarıda Sultan və saray dairəsi olarkən, dövlətin bürokratik sinfi və hərbi elitası da əhəmiyyətli yer tuturdu. Lakin, xalq əsasən kənd təsərrüfatı və ticarətlə məşğul olan müxtəlif sosial siniflərə bölünmüşdü.

Demoqrafiya əhali artımının qanunauyğunluğunu, onun sosial-iqtisadi şəraitdən, təbii amillərdən asılılığını, miqrasiyanı, əhali sıxlığını və onun paylanmasını öyrənən elmdir. Dünya əhalisinin demoqrafiyası heç bir tarixi dövrdə sabit qalmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Kapitalizmdən əvvəlki dövrdə dünya əhalisinin sayı çox yavaş artırdı. Bu hadisə daha çox aramsız müharibələr, epidemiyalar, insanların həyat səviyyəsinin aşağı olması ilə əlaqədardır.

**DOI: https://doi.org/10.36719/2024/VIII**

1900-cü ildə dünya əhalisi 1.6 mlrd., 1960-cı ildə 3 mlrd., 2000-cı ildə 6 mlrd. olmuşdur. Demoqrafların hesablamalarına görə dünya əhalisi bu sürətlə artmağa davam etsə, 2040-cı ildə dünyada 10 mlrd. insan yaşayacaqdır. 2009-cu ildə dünya əhalisi 6 milyard 802 milyon olmuşdur. Dünyada ən sürətli təbii artım 1,8% göstərici ilə 1950-1970-ci illərdə müşahidə olunmuşdur. Bu zaman müddətində xüsusilə 1963-cü ili fərqləndirə bilərik ki, həmin il dünyanın təbii artımı 2,2% təşkil edib.

Türkiyədə klassik dövr Osmanlı demoqrafik tarixi tədqiqatları Lütfi Ömər Balkanla başlamışdır. 1940-cı ildən yazmağa başlayan Barkan Osmanlı qurumları və bu qurumların hazırladığı mənbələr silsiləsi haqqında əsərlər yazır, eyni zamanda bu mənbələrə əsaslanaraq Osmanlı demoqrafiyasına dair tədqiqatlarını dərinləşdirirdi.

Eyni dövrdə Fransada inkişaf edən annallar məktəbinin nümayəndələri ilə birbaşa təmasda olan Barkan, xüsusilə Braudelin “Aralıq dənizi Dünyası” olaraq tanınan əsərində qeyd olunan demoqrafik məlumatları Osmanlı mənbələri ilə müqayisə etmiş və bütün Aralıq dənizi sahili ərazilərdə XVI əsr boyu müşahidə olunan demoqrafik artımın Osmanlı dövlətinin ərazisində də müşahidə olunduğu qənaətinə gəlmişdir.

Beləliklə, Barkanın tədqiqatı ilə əsr boyu müşahidə edilən əhali artımının Osmanlı coğrafiyasında da mövcud olduğu ortaya çıxdı. Bu kontekstdə demoqrafiya tarixinə uyğun məlumatların yer aldığı tahrir, avarız və cizyə dəftərlərinə diqqət daha da artmış oldu. Bu dəftərlərin bəzilərini nəşr etməklə kifayətlənməyən Barkan məlumatları annallar məktəbinin nümayəndələrinin tapıntıları ilə müqayisə etdi. O, mahiyyət etibarilə vergi məqsədləri üçün hazırlanan bu

DOI: https://doi.org/10.36719/2024/VIII

dəftərlərin əhalinin tarixçəsi və onların mümkün problemləri baxımından necə istifadə olunmasını qeyd etmişdir

Türk tarixşünaslığında aparıcı rol oynamış alimlərin və onların tədqiqatlarının qiymətləndirilməsi və təsirlərinin müzakirəsi tarixşünaslığımızın qət etdiyi məsafəni və keçdiyi kursu bilmək baxımından əhəmiyyətlidir. Belə bir qiymətləndirilmə üçün müzakirə olunacaq insanların yetişdiyi, yaşadığı dövr, eyni dövrün siyasi, sosial və mədəni mühitini, aldıqları təhsili, təsir dairələrini nəzərə almaq lazımdır. Xüsusilə, Barkan kimi geniş əsərləri yaradan, hadisələri yeni ruh və yanaşma ilə idarə edən tarixçilərə gəldikdə vəziyyət daha da mürəkkəbləşə və çətinləşə bilər. Amma hər halda müqayisə apararaq tədqiq olunan mövzuların sahə müxtəlifliyinə görə Barkan, onun təsirləndiyi və təsir etdiyi tarixçiləri qiymətləndirmək mümkündür. Belə bir qiymətləndirmə həm Barkanı yaxşı anlamaq, həm də nə etdiyini, hansı düşüncələrlə, niyə və necə etdiyini ortaya çıxarmaq, eyni zamanda özündən sonra gələnlərə necə təsir etdiyini anlamaq üçün vacibdir (1).

Barkana görə, Demoqrafiya elmi Osmanlıda əsasən əhalinin sosial tarixinin canlı hissəsini və mədəni kimliyini özündə əks etdirən əsas konseptdir. Barkan tarixi tədqiqatlarında xüsusən "ölçü" və "kiçiklik" vahidi kimi ən həlledici elementləri vurğulayıb yazılarında qeydə almışdır.

Türk tarixşünaslığında əhali məsələsini ilk dəfə dilə gətirən Barkanın fikrincə tarixşünaslıqda siyasi zəfər və ya məğlubiyyətlərdən daha çox sosial ölçüyə nəzər yetirilməlidir. Başqa sözlə, imperiya tarixinə yeni ruh və yüksəkliyi və müasir üsulla yanaşmağın və dünya tarixşünaslığında özünə yer tapmağın ən mühüm yollarından biri getdikcə inkişaf edən bir tədqiqat sahəsini tarix elminin xidmətinə verməkdir. Çünki, fikrimcə tarix elmi bir çox tarixi hadisələrin hələ ki, elmi izahdan məhrum olması səbəbindən özünün digər elmlər arasında

DOI: https://doi.org/10.36719/2024/VIII

qazana biləcəyi nüfuza tam yiyələnə bilməmişdir. Bu boşluğu doldurmaq üçün tarixi tədqiqatlar zamanı dövlətlərin hərbi inzibati quruluşu və ictimai iqtisadi münasibətlərin nizamı ilə yanaşı, araşdırılmanın aparıldığı dövr üçün əhalinin imkan və ehtiyacları, kəmiyyəti, onun sıxlığı və dinamizmi, dövlət ərazisində yayılma arealı, yerdəyişmə imkanları, artım sürəti, yaş, cins və tipə görə fərqləri kimi demoqrafik faktorlar daha çox nəzərə almalıdır (2).

Bundan əlavə, Barkanın təbirincə desək, müasir cəmiyyətlərin demoqrafiya elminin təsir etdiyi üsul və vasitələrlə, məlumatlarla təchiz edilmiş tarixin demoqrafik prizmadan araşdırılması, tarix elmini cavanlaşdırmaq, yeni üfüqlər açmaq və izahlara yeni baxışlar gətirmək üçün olduqca lazımdır. Çünki, dövlətlərin formalaşması və onların özünəməxsus əzəmət və quruluşunu qoruyub saxlaya bilməsi kimi məsələlər demoqrafik vəziyyətlə (din və məzhəblərin yayılması, təşkilat və qurumların mahiyyəti, sosial təbəqələr arasında münasibətlər, kənd təsərrüfat rejiminin dəyişməsi, üsyanlar, iqtisadi inkişaf və texniki tərəqqi) bağlı mülahizələr və fərziyyələr olmadığı halda izahsız qalmağa məhkumdur.

Düşünürəm ki, Barkanın irəli sürdüyü fikirlər yenidən analiz edilməli, müasir tarixlə müqayisəli formada tədqiqatlara cəlb edilməlidir. Bugünki gənc alimlərin timsalında tarixin dərinliklərində qərq olmalı və tarix elminə yeni yanaşmalar gətirilməlidir.

Osmanlı İmperatorluğu əhalisinin sosial vəziyyətinin tədqiqində demoqrafiyanın rolu vacib idi. Demoqrafiya, nüfusun tərkibini, artım dərəcəsini, doğum və ölüm dərəcələrini analiz edərək, Osmanlı cəmiyyətinin strukturunu anlamaqda əhəmiyyətli bir vasitə təqdim edir.

Demoqrafik məlumatlar, Osmanlı İmperatorluğunda yaşayan insanların həyat şəraitləri, gəlir səviyyələri, ailə quruluşları

DOI: https://doi.org/10.36719/2024/VIII

və köç hərəkətləri kimi bir çox aspektlərini aydınlatmaqda kömək edir. Bu məlumatlar, müxtəlif bölgələrdə və sosial qruplar arasında baş verən bərabərlikləri və dəyişiklikləri anlamaq üçün istifadə oluna bilər.

Həmçinin, demoqrafiya elmi Osmanlı İmperatorluğunda sosial dəyişiklikləri, məsələn, nüfus artımı və qəsəbələşməni anlamaqda və bu proseslərin arasındakı əlaqələri müəyyənləşdirməkdə də önəmli bir rol oynayır.

## Ədəbiyyat

1. https://turksunas.wordpress.com/2016/11/11/t%C9%99nzimatin-i-dovru-1839-
2. https://turksunas.wordpress.com/2016/11/11/t%C9%99nzimatin-i-dovru18391853/

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 87-89
VII Collection of Theses on "Scientific Sources" / 87-89
DOI: https://doi.org/10.36719/2024/VIII

**Ayxan Rüstəmov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
rustamovaykhan.@gmail.com

# AHILLARIN SOSİAL MÜDAFİƏSİNİN AKTUALLIĞI

***Açar sözlər:*** *ahıl, sosial müdafiə, qorumaq, hüquq, aktuallıq, yaş*

***Keywords****: elder, social protection, protect, law, relevance, age*

Ahıl şəxslər həyata rəng qatan, onu mənalandıran, ona örnək verən, nümunə olan insanlardır. Onlarsız həyatı təsəvvür etmək mümkün deyil. Hər bir ailənin möhkəmliyi, sarsılmazlığı həmin ailədə yaşayan ahıl insanların mövcudluğundan, varlığından asılıdır. Həmçinin, cəmiyyətimiz üçün də ahıl insanların varlığı əvəzolunmazdır. Onların həyatda qazandıqları təcrübədən, bilik və bacarıqlardan bəhrələnmək isə nəsillərarası körpü qurmaq, əlaqə yaratmaq, mövcud varislik əlaqəsini yenidən bərpa etmək baxımından çox vacib və zəruridir.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul edib. Həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu məsələyə Respublikamızda da ciddi diqqət yetirilir. Dünyada olduğu kimi, ölkəmizdə də 1993-cü ildən başlayaraq, hər il oktyabrın 1-i Beynəlxalq Ahıllar günü silsilə tədbirlərlə qeyd edilir. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək, imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir.

DOI: https://doi.org/10.36719/2024/VIII

Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi, həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir. BMT-nin inkişaf proqramında da son illər ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə 2-ci Ümumdünya Məclisinin keçirilməsi də buna misaldır. Bu Ümumdünya tədbirində belə bir fikir səsləndi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir.

Azərbaycan dövləti tərəfindən ahıllara həmişə xüsusi diqqət və qayğı göstərilir. Xalqımızın ümummilli lideri Heydər Əliyev 22 iyun 2001-ci il tarixində “Ahıllara sosial xidmət haqqında” qanunu imzalamışdır. Qanuna əsasən, ölkədə 70 yaşına çatmış vətəndaşlar, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur.

Azərbaycanda ahıllarla bağlı milli və ümumbəşəri dəyərlərə söykənən dövlət siyasətinin əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və son 10 ildə Prezident İlham Əliyevin layiqli səviyyədə davam və inkişaf etdirdiyi bu humanist siyasətin əsasında ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, onlara dövlət qayğısının artırılması, maddi və mənəvi tələbatlarının ödənilməsi dayanır.

Ahıl vətəndaşların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, sosial və digər həyati tələbatlarının ödənilməsi hər bir sosialyönümlü dövlətin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməlidir.

Ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması və onlara dövlət qayğısının artırılması məqsədilə Azərbaycan Prezidentinin 2006-cı il 17 aprel tarixli sərəncamı ilə “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət

DOI: https://doi.org/10.36719/2024/VIII

Proqramı” təsdiq edilib. Mövcud proqramın qanunvericilik əsasları beynəlxalq normalara uyğun şəkildə hazırlanmışdır. Belə ki, proqram “Yaşlaşma üzrə Madrid Beynəlxalq Fəaliyyət Planı”nın prinsiplərinə əsaslanaraq təsdiq olunmuşdur. Dövlət Proqramının əsas məqsədi ahıl vətəndaşların sosial müdafiə-sinin gücləndirilməsinə hərtərəfli nail olmaqdır.

Son dövrlərdə yaşlıların təhsilinin təşkilinə həm ölkəmizdə, həm də beynəlxalq miqyasda böyük diqqət yetirilir. Elmi-texniki tərəqqi insanların bilik və vərdişlərinin daim artırılması tələbini zəruriləşdirmiş, ixtisasartırma və yenidənhazırlanma təhsilinin əhəmiyyətini daha da aktuallaşdırmışdır. Elə bu səbəbdən də hələ Almaniyanın Hamburq şəhərində keçirilmiş beynəlxalq konfransda “Yaşlıların təhsili XXI əsrin açarı” adlandırılmışdır.

Cəmiyyətdə, iqtisadi həyatda, elm və mədəniyyətdə, təhsil sistemində və bir çox sahələrdə hər il yeniliklərlə zəngin olan sürətli inkişaf baş verir. Bu səbəbdən də yaşlıların təhsili ölkəmizdə fasiləsiz təhsil sistemi kimi qiymətləndirilir. Onların həyat fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmaq üçün təhsil xidmətlərinin yeni keyfiyyətlə təşkilinə ehtiyac yaranır.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 90-93
VII Collection of Theses on "Scientific Sources" / 90-93
DOI: https://doi.org/10.36719/2024/VIII

**Zeynəb Abdullayeva**
Bakı Dövlət Universiteti
magistrant
zeynebabdulla@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏZUNİYYƏTLƏRİN NÖVLƏRİ VƏ TƏSNİFATI

***Açar sözlər:*** *hüquq, əmək hüququ, məzuniyyət hüququ, işçi, işəgötürən, əmək müqaviləsi*

***Keywords:*** *law, labor law, right to leave, employee, employer, employment contract*

Əmək müqaviləsi bağlamaqla əmək fəaliyyəti ilə məşğul olan hər bir işçinin Azərbaycan Respublikasının Konstitusiyasında, həmçinin beynəlxalq aktlarda təsbit olunan istirahət hüququnun təminatlarından biri ödənişli məzuniyyətin verilməsi ilə təmin edilir. Belə ki, əmək hüququ sahəsində qəbul edilən qanunvericilik aktlarında əmək müqaviləsi bağlamaqla əmək fəaliyyəti ilə məşğul olan hər bir işçinin məzuniyyət hüququna malik olması, onlardan maneəsiz olaraq istifadə etməsi, habelə bu hüquqlardan istifadənin məhdudlaşdırılmasının qadağan edilməsi təsbit edilmişdir. Azərbaycan Respublikasının Əmək Məcəlləsində (bundan sonra AR ƏM) ayrı-ayrı növ məzuniyyət müddətlərinin aşağı həddi qeyd edilmişdir. Yəni işçilər üçün daha yuxarı həddə məzuniyyət verilə bildiyi halda, onlara qanunvericilikdə nəzərdə tutulan həddən aşağı məzuniyyətlərin verilməsi yolverilməzdir.

Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinin II hissəsinə əsasən, əmək müqaviləsi ilə işləyənlərə ... ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

DOI: https://doi.org/10.36719/2024/VIII

Göründüyü kimi, AR Konstitusiyasında yalnız ödənişli məzuniyyətləri haqqında məlumat qeyd edilmişdir. Lakin Azərbaycan Respublikasında məzuniyyətlərin bir neçə növü mövcuddur. Məzuniyyətlərin növləri, müddətləri, onlardan istifadə qaydaları isə sahəvi normativ aktı olan AR ƏM və müvafiq normativ hüquqi aktlarla tənzimlənir. Həmin Məcəllənin 112-ci maddəsinin birinci hissəsinə əsasən, işçilərin məzuniyyət hüququ aşağıdakı məzuniyyət növləri ilə təmin edilir: əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti, sosial məzuniyyət, təhsilini davam etdirmək və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil və yaradıcılıq məzuniyyəti, ödənişsiz məzuniyyət.

Sonuncudan başqa, qeyd edilən digər 3 məzuniyyət növü ödənişli məzuniyyət hesab olunur. Azərbaycan Respublikasının qanunvericilik tarixində ödənişsiz məzuniyyətlər haqqında müddəalar ilk dəfə Azərbaycan SSR-nin 10 dekabr 1971-ci il tarixli Əmək Qanunları Məcəlləsinin 74-cü maddəsində, daha sonralar isə 1994-cü il 19 iyul tarixli “Məzuniyyətlər haqqında” AR-nın Qanununun 33-cü maddəsində müddəa öz əksini tapmışdır.

Ödənişsiz məzuniyyətlər haqqında digər bir müddəa isə Azərbaycan Respublikasının Seçki Məcəlləsində öz əksini tapmışdır. Belə ki, işəgötürən tərəfindən AR-nın Seçki Məcəlləsinin 70-ci maddəsinə, habelə AR ƏM-nin 130-cu maddəsinə əsasən qeydə alınmış namizədlərə ödənişsiz məzuniyyətin verilməsi ipmerativ norma kimi nəzərdə tutulmuşdur.

Qanunvericilikdə nəzərdə tutulan digər məzuniyyət növləri isə ödənişli olmaqla işəgötürən tərəfindən ödənilir. İşçilərin ödənişli məzuniyyət hüququ bir sıra beynəlxalq aktlarda öz təsbitini tapmışdır. “BƏT”-in “Ödənişli məzuniyyətlər haqqında (yenidən baxılmış)” 132 nömrəli Konvensiyasının (1970-ci il) 3-cü madddəsində də qeyd edildiyi kimi, bu

DOI: https://doi.org/10.36719/2024/VIII

Konvensiyasının tətbiq edildiyi hər bir şəxs müəyyən edilmiş minumum müddətli illik ödənişli məzuniyyət hüququna malikdir.

Azərbaycan Respublikasında mövcud olan ödənişli məzuniyyət növü kimi ilk olaraq əmək məzuniyyətlərini qeyd etmək olar. Əmək məzuniyyətləri həm AR Konstitusiyasında, həm də AR ƏM-də tənzimlənmişdir. Əmək məzuniyyətləri də öz növbəsində əsas və əlavə olmaqla iki yerə ayrılır. Əsas əmək məzuniyyətinin minimum müddəti ayrı-ayrı kateqoriya işçilər baxımından fərqlənir. Əlavə məzuniyyət müddətləri əsas məzuniyyət müddətlərindən əlavə olaraq müəyyən edilir.

İşləməklə yanaşı təhsil alan işçilər qanunvericilikdə müəyyən edilmiş müddət ərzində təhsil və yaradıcılıq məzuniyyətlərindən istifadə etmək hüququna malikdirlər.

Məzuniyyətlərin digər növü olan sosial məzuniyyətlər isə doğum və ya uşaqların saxlanılması ilə əlaqədar olaraq kişi və qadın işçilərə verilir.

Qeyd edilməlidir ki, qanunvericilikdə nəzərdə tutulan məzuniyyət növləri müəyyən müddətlərlə məhdudlaşdırılsa da, müəssisə və təşkilatlarda işəgötürənlər tərəfindən qanunvericilikdə nəzərdə tutulmayan yeni növ məzuniyyətlərdən istifadə edilməsinə heç bir məhdudiyyət qoyulmamışdır. AR ƏM-nin 112-ci maddəsinin ikinci hissəsinin və 145-ci maddəsinin tələblərindən göründüyü kimi əmək müqaviləsində, habelə kollektiv müqavilələrdə məzuniyyətlərin digər növləri nəzərdə tutula bilər.

İşçinin məzuniyyət hüququ əmək müqaviləsi bağlandığı andan yaranır. Lakin qanunvericilikdə nəzərdə tutulan məzuniyyətlərdən istifadə edə bilməsi üçün müəyyən şərtlər gözlənilməlidir. Belə ki, sosial, təhsil və yaradıcılıq, ödənişsiz məzuniyyətlərdən istifadə üçün vaxt məhdudiyyəti nəzərdə tutulmamışdır. Qeyd edilən məzuniyyətlərdən fərqli olaraq

DOI: https://doi.org/10.36719/2024/VIII

əmək məzuniyyətlərindən istifadə üçün bəzi məhdudiyyətlər nəzərdə tutulmuşdur. Bir iş ili ərzində yalnız bir əmək məzuniyyəti verilə bilər və işçi birinci iş ili üçün əmək məzuniyyətindən əmək müqaviləsinin bağlandığı andan etibarən altı ay işlədikdən sonra istifadə edə bilər. Nəticə olaraq hər bir işçi əmək müqaviləsi bağlandığı andan məzuniyyət hüququna malik olsa da, əmək məzuniyyətlərindən istifadə hüququ müqavilə bağlandıqdan 6 ay işlədikdən sonra yaranır. Belə olan halda 6 aydan qısa müddətə əmək müqaviləsi bağlamaqla çalışan işçilərin əmək məzuniyyətlərindən istifadə etməsi mümkün olmayacaqdır.

Fikrimizcə, 6 aydan az olmaqla müddətli əmək müqaviləsi əsasında əmək fəaliyyəti ilə məşğul olan işçilər üçün əmək məzuniyyətlərindən istifadənin fərqli müddətləri müəyyənləşdirilməlidir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 94-96
VII Collection of Theses on “Scientific Sources” / 94-96
DOI: https://doi.org/10.36719/2024/VIII

**Aytac Hüseynzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
huseynzadeayti1@icloud.com

# BİLİKLƏRİN TƏQDİM EDİLMƏSİ. BİLİKLƏRİN MODELLƏRİ

***Açar sözlər:*** *bilik, verilən, biliklərin modelləri, semantik model, Freym modeli, məntiqi model, produksion sistemlər*

***Keywords:*** *knowledge, data, models of knowledge, semantic model, Frame model, logical model, production systems*

Hesablayıcı texnika yaradılan zaman təbii ki proqram və verilen deyilən iki anlayışdan istifadə edildi. Həmçinin, qeyd etmək lazımdır ki, proqramlar verilənlərin emalı üçün nəzərdə tutulmuşdur. Əvvəllər proqramçı özü proqramı tərtib edirdi və lazım olan verilənləri daha sonra əl ilə daxil edirdi. Lakin sonra böyük dəyişikliklər baş verdi və proqramı verilənlərdən ayırdılar. Müxtəlif tipli verilənlər bazası və verilənlər bazasının idarə etmə sistemləri yaradıldı.

Bununla yanaşı, verilənləri həyata keçirmək üçün bir sıra proqramlar yaradıldı. Bunlara misal olaraq FORTRAN, ALQOL, KOBOL və s. dilləri misal göstərmək olar. Süni intellekt sistemlərinin inkişafı nəticəsində verilənlər ilə yanaşı biliklər adlanan yeni anlayışdan istifadə edildi. Verilənlər ilə biliklər bir-birinə bənzəsə də, onlar arasında ciddi fərqləndirici əlamətlər var idi. Bilikləri fərqləndirən əlamətlər aşağıdakılardır:

1.Daxili şərhedənlilik;

2.Strukturluluq;

3.Əlaqəlilik;

4.Aktivlik.

İndi isə bilikləri təqdim etmək üçün istifadə edilən modellər haqqında danışaq. Bilikləri təqdim etmək üçün dörd əsas modeldən istifadə edilir. Bu modellər semantik şəbəkələr dili və ya modeli, Freymlər sistemi, məntiqi dillər və produksion sistemlərdir.

Semantik şəbəkələr əsasən təpələr və qövslərdən ibarət olur. Məhz bunun üçün də semantik şəbəkələrin dili relyasiya dili hesab edilir. Semantik şəbəkələrin xüsusi halı ssenarilər və ya bircins semantik şəbəkələr hesab edilir. Bu şəbəkələrdə müxtəlif semantikalı obyektlər bir-biri ilə əlaqələndirilir.

Freym modellərində təqdimatın mərkəzində freymlər durur, bu da çərçivə adlanır. Formal olaraq Freymin quruluş düsturu isə aşağıdakı kimidir.

f [<v1g1>,<v2g2>,.........<vngn>.]

Burada f -Freymin adı, v-slotun adı, g-slotun qiymətidir. Bununla yanaşı, Freymlər təsviredici və roloynayan olmaqla iki qrupa ayrılırlar.

Biliklərin məntiqi modeli özündə bir neçə bilik modelini əks etdirir. Məsələn deduktiv model konyuksiya, dezyuksiya, implikasiya və inkar kimi bir neçə məntiqi əməliyyatı həyata keçirir. İnduktiv modellər isə deduktivdən fərqli olaraq ehtimallı-statistik üsül və məntiqi üsül olmaqla iki hissəyə ayrılır. Psevdofiziki məntiqlərin tətbiqi isə bizə nəticəçıxarma qabiliyyətini və insanın ətraf fiziki dünya barədə qeyri-səlis mühakimələrini həyata keçirməyə imkan verir.

Produksiyalar haqqında danışarkən isə biz bunu qeyd edə bilərik ki, situasiyadan hərəkət, şərtlərdən rəy və səbəbdən nəticə alınmalıdır. Produksion sistemlərin fəaliyyətinin formal şəkli isə aşağıdakı kimidir:

DOI: https://doi.org/10.36719/2024/VIII

x(t+1)=f(x(t),u(x)) burada U produksiyalar çoxluğudur. Beləliklə, süni intellektin inkişafı prosesində biliklərin təqdim olunmasının rolu da əvəzsizdir.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 97-99
VII Collection of Theses on "Scientific Sources" / 97-99
DOI: https://doi.org/10.36719/2024/VIII

**Ləman Bayramlı**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
leman.bayramli92@mail.ru

# SOSİAL XİDMƏTLƏRİN TƏŞKİLİNDƏ SOSİAL İŞ METODOLOGİYASININ TƏSİRİ

***Açar sözlər:*** *sosial xidmət, sosial iş, sosial siyasət, cəmiyyət, sosial işçi*

***Keywords:*** *social service, social work, social policy, society, social worker*

Sosial siyasətin ən əhəmiyyətli mexanizmlərindən biri əhalinin müxtəlif koteqoriyaları ilə sosial işin müxtəlif formalarını təmin edən xidmətlərin sisteminin yaradılmasıdır. Bu sistem özündə sosial risk qruplarına aid olan, həssas əhali qruplarına müxtəlif məqsədli sosial xidmətlərin təşkilini özündə əhatə edir.

Sosial iş cəmiyyətə müxtəlif tərəflərdən xidmətin verilməsini təmin etməkdə, sosial xidməti geniş şəkildə özündə əks etdirən peşədir. Sosial xidmət daxilində reallıqlara əsaslanan ayrı-ayrı sahələri cəmiyyətin ehtiyaclarına uyğun olaraq vermişdir. Sosial xidmət sahəsində sosial işçilərin və sosial xidmətin əhatə olunduğu sahələr:

- Ailə və uşaqlarla sosial xidmət;
- Gənclik dövründə olanlarla sosial xidmət;
- Məktəblərdə sosial xidmət;
- Ahıllar üçün sosial xidmət;
- Əlillər üçün sosial xidmət;
- Tibb sahəsində sosial xidmət;
- Yoxsul şəxslərlə sosial xidmət;

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 97-99
VII Collection of Theses on “Scientific Sources” / 97-99
DOI: https://doi.org/10.36719/2024/VIII

- Miqrantlar, məcburi köçkünlərlə sosial xidmət;
- Cinayət törətmiş şəxslərlə sosial xidmət;
- Hərbi sahədə sosial xidmət;
- Bələdiyyə sahəsində sosial xidmət.

Qeyd edilən sahələrdə göstərilən sosial xidmət formaları, növləri və yanaşmaları hər biri bir-birindən fərqlənir. Belə ki, hərbi sahədə müharibə iştirakçıları, post-travmatik stress dövründə olan şəxslər, təhlükəli vəziyyətlərlə üzləşən, itkilər verən şəxslərlə işdə hər hansı əlillik faktoru olduqda protez, ortopedik vasitələr, reabilitasiya vasitələri ilə təmin olunma mühümdürsə, eyni zamanda psixoloji işlərin aparılması da bir tələbdir. Həmin şəxslərin ailələri ilə də işlərin aparılması mümkündür.

Digər aspektdən məktəblərdə isə şagirdlər arası, şagird müəllim, müəllim kollektivləri, şagirdlərin ciddi problemləri olduqda, normadan kənar davranışlar müşahidəsi zamanı ailələrlə işlərin aparılması tələb olaraq sosial işçilərin qarşısında çıxış edir. Bir sözlə, hər bir sosial xidmət sahəsinin özünəməxsus tələbləri və təminat mexanizmi özünü göstərir.

Sosial xidmət sahəsinin mühüm iştirakçısı olan sosial işçilərin sosial işin peşə fəaliyyətində ümumi əhatə etdikləri tərəfləri mövcuddur. Bu məsələlər sosial işin mərhələri, səviyyələri, istifadə olunan nəzəriyyələr, metodlar və metodlara uyğun alətləridir. Belə ki, sosial işçi sosial xidmətə və dəstəyə ehtiyacı olan benefisiarla işlədiyi zaman bir başa problemlərə müdaxilə etməsi və inam qazanması mümkün deyil, bunun üçün mərhələli, inamlı, güvən və sosial təhlükəsizliyi özündə ehtiva edən işin aparılması, həmçinin, konkret və dəqiq olaraq prosesi müəyyən etmək, daha real addımların atıla biləcəyi, benefisiara ən yaxşı dəstək ola biləcək xidmətlərin təklifi yalnız mərhələli qaydada dəstək mexanizmi ilə mümkündür.

Sosial iş aşağıdakı mərhələlərdən ibarətdir:

DOI: https://doi.org/10.36719/2024/VIII

1. Tanışlıq mərhələsi;
2. Qiymətləndirmə mərhələsi;
3. Müdaxilə mərhələsi;
4. Monitorinq mərhələsi;
5. Nəticə;
6. Fərdi işin bağlanması.

Sosial işçinin sosial xidmət sahəsində işlədiyi sahə və məsələyə uyğun olaraq sosial işin səviyyələri meydana çıxır. Hər bir səviyyə özündə müəyyən metodu və işləmə formasını ehtiva edir. Belə ki, ailə və uşaqla işləyərkən şəxs fərdi və mikro yanaşma metodlarından istifadə edirsə, qanunvericilikdə dəyişikliyə ehtiyac olduqda geniş miqyasda əhali qruplarının mənafeləri və ehtiyacları müəyyənləşməlidir. Sosial işin aşağıdakı səviyyələri mövcuddur:

1. Mikro səviyyədə- fərdi səviyyədə, ailə, yaxud benefisiara fərdi dəstək, kiçik qruplarla üzbəüz təşkil edilir;
2. Mezz səviyyədə- icma, təşkilat, müəssisə səviyyəsində nisbətən böyük qruplara dəstəyi əhatə edir;
3. Makro səviyyədə- sosial siyasi, tədqiqat olaraq təşkil edilir və kənd, rayon, ölkə səviyyəsində dəstək tədbirlərini əhatə edir.

Sosial işçilərin praktiki fəaliyyətdə əsaslandığı nəzəri əsaslar:

1. "Bağlılıq nəzəriyyəsi";
2. "Sistemlər nəzəriyyəsi";
3. "Psixodinamik nəzəriyyə";
4. "Uşaq inkişaf nəzəriyyələri";
5. "Yarlıq nəzəriyyəsi";
6. "Koqnitiv behevyoral nəzəriyyə";
7. "Gücləndirmə metodu";
8. Və digər nəzəriyyə və metodlar.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 100-103
VII Collection of Theses on "Scientific Sources" / 100-103
DOI: https://doi.org/10.36719/2024/VIII

**Aygül Bəşirova**
Bakı Dövlət Universiteti
magistrant
aygul.bashirova@mail.ru

# MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA TURİZM SEKTORUNUN ROLU

***Açar sözlər:*** *turizm sektoru, kompleks və sistemli yanaşma, strateji hədəflər, turizm fəaliyyətinin əsasları, təbii-iqlim şəraiti, dövlətin dəstəyi*

***Keywords:*** *the tourism sector, a complex and systematic approach, strategic goals, fundamentals of tourism activities, natural and climatic conditions, state support*

Qloballaşan iqtisadiyyat şəraitində turizm sektoru idarəetmə mexanizmlərinin qarşılıqlı əlaqəsi formasında inkişaf edir. Mövcud şəraitdə təbii resursların istehsal və istehlak prosesinə cəlb və istifadə edilməsi üçün yetərli infrastruktur bazasının formalaşması prosesi də başa çatmaqdadır. Turizmin sosial-iqtisadi dirçəlişin tərkib elementinə çevrilməsi bilavasitə müəyyən nəzəri-praktiki mexanizmlər əsasında formalaşdırılmış sistemli yanaşmanın nəticəsi kimi təzahür edir. Turizm kompleks və sistemli yanaşma metodologiyası baxımından bir sıra amillərin və mexanizmlərin ərazi, coğrafi və siyasi motivini formalaşdırır, ona təşkilati-iqtisadi idarəetmə sistemi və çevik idarəetmə obyekti kimi baxılmasını tələb edir.

Azərbaycanda turizmin inкişafına səbəb olan əsas amillərdən biri olan mədəniyyət və turizmin, eləcə də turizmlə əlaqədar olan iqtisadiyyatın digər sahələrinin inkişafına istiqamətlənən irimiqyaslı layihələrə dövlətimiz tərəfindən dəstək verilməsidir. Ölkəmizin qanunvericilik bazası dövlət

DOI: https://doi.org/10.36719/2024/VIII

siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir. Qeyd etmək yerinə düşər ki, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri də turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarının müəyyənləşdirilməsidir.

Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir. Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir.

Turizm sahəsinin inkişafı ölkəmizin təbii-iqlim şəraitinin və regionların xüsusiyyətlərinin istifadə olunmasına, müvafiq sahibkarlıq fəaliyyətinin həvəsləndirilməsinə, maliyyə axınlarının tənzimlənməsinə, turizmin inkişafının müxtəlif amillərinin və modellərinin mənimsənilməsinə əsaslanan çoxsaylı məsələlərin həllini nəzərdə tutur. Xarici turistlərin axınının intensivləşməsi məsələsinin həlli üçün regionlarda mövcud olan şəraitin yaxşıya doğru dəyişməsi istiqamətində bir çox problemləri həll etməк lazımdır. Turizmin əsas funksiyalarına nəzər yetirərkən görürük ki, bu mühüm əhəmiyyət kəsb edən sosial-mədəni sahədən hər bir ölkə faydalanır. İlk növbədə turizmə qoyulan sərmayələr hesabına və ondan əldə olunan gəlirlə yeni xidmət müəssisələri yaradılır. Yeni müəssisələrin yaradılması isə işsizliyin azalmasına gətirib çıxarır. Digər tərəfdən, ölkənin büdcəsinə turizmdən əlavə gəlir daxil olur və bunun da hesabına dövlət büdcəsindən maliyyələşən təşkilat və qurumların əmək haqları artır, təqaüdlər və s. çoxalır. Faktiki olaraq turistlərin sayının ölkə miqyasında artması yeni xidmət bazarlarını yaradır. Bu da ölkə əhalisinin ayrı-ayrı iqtisadi sahələr

DOI: https://doi.org/10.36719/2024/VIII

üzrə istehsal etdiyi məhsul satışını artırmaqla, onun istehsal həcminin artırılmasını da təmin edir.

Ölkəmizdə turizm fəaliyyəti ilə məşğul olan qurumların əldə etdikləri gəlir və xərclər bir-birindən fərqlənir. Sözsüz ki, innovativ yeniliyə daim can atan sahibkarlıq qurumları daha çox bu növ fəaliyyətlə məşğul olmaq və turizm fəaliyyətinin çoxsaylı növlərinin geniş, hərtərəfli şəkildə inkişaf etdirilməsində çox maraqlıdırlar. Qeyd etmək lazımdır ki, dövlətin bu sektora lazımi dəstəyinin daim gücləndirilməsi mühüm şərtlərdən biridir.

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə dörd əsas hədəf müəyyənləşdirilmişdi. Birinci hədəf – Bakının turizm potensialından tam istifadə etməkdir. Hazırda Bakı şəhəri daha yaxşı inkişaf etmiş infrastruktura malik olmaqla, çoxsaylı xarici turistlərin marağını cəlb etməkdədir. Bu istiqamətdə müəyyənləşdirilmiş dörd prioritet Azərbaycanın bu perspektivə nail olmasına imkan verəcəkdir. Potensialdan daha səmərəli istifadə məqsədilə xüsusi idarəetmə mexanizminin yaradılması, məlumatlılığın daha da artırılması, turist xidməti paketlərinin yenilənməsi, müxtəlif turizm fəaliyyət növlərinin səmərəli təbliği və turizm infrastrukturunun məqsədyönlü inkişafı nəzərdə tutulurdu. İkinci hədəf isə milli səviyyədə daha yaxşı idarəetmənin təşkili, turizm və rekreasiya zonalarının yaradılması, mövsümiliyin aradan qaldırılması üçün regional səviyyədə turizm infrastrukturunun inkişafı, hava əlaqələrinin yaxşılaşdırılması, viza prosedurlarının sadələşdirilməsi də daxil olmaqla, turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması idi. Üçüncü hədəf – regional turizm təşəbbüslərini həyata keçirməklə Azərbaycanda turizmi inkişaf etdirmək idi. Belə ki, daha yaxşı inteqrasiya olunmuş turizm sektoruna nail olmaq üçün sağlamlıq, qış və ekoturizm kimi

DOI: https://doi.org/10.36719/2024/VIII

turizm növlərinin inkişafına investisiya qoyuluşları artıq həyata keçirilmişdir. Dördüncü hədəf kimi isə, turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşunu həyata keçirməkdən və turistlərin məmnunluğunu daha da artırmaq üçün standartlaşdırma və sertifikatlaşdırma sistemini inkişaf etdirib təkmilləşdirməkdən ibarət idi. Qeyd etmək lazımdır ki, göstərilən hər bir hədəfin dolğun şəkildə reallaşdırılması üçün geniş işlər görülmüş və demək olar ki, bu hədəflərə nail olunmuşdur.

Azərbaycan Respublikası regional turizm hədəflərini inkişaf etdirmək və təşəbbüslərini genişləndirmək baxımından da əlverişli imkanları ilə seçilir. Ölkədə turizm sənayesinin, ilk öncə isə onun mövcud infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılaraq inkişaf etdirilməsi, turizm sahəsinin hüquqi-normativ elementlərinin və tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi, hər bir bölgənin adət və ənənələrini özündə birləşdirən modern istiqamətlərin seçilməsi və digər zəruri əhəmiyyət kəsb edən tədbirlərin həyata keçirilməsi buna sübutdur. Əslində turizm fəaliyyətinin davamlı inkişaf etdirilməsi istiqamətlərinə uyğun olaraq, müxtəlif turizm növlərinin inkişafına daha da fikir verilməsi məqsədəuyğundur. Belə ki, bu gün Azərbaycanda inkişaf potensialı geniş olan turizm növləri yetərincədir və onların hər birinin dayanıqlı inkişafı üçün  müəyyən tədbirlərin görülməsi zəruridir. Hər bir turizm növünün kifayət qədər əlverişli inkişaf imkanları mövcuddur və onlar dövlətin büdcəsinə kifayət qədər valyuta cəlb edilməsinə imkan yarada bilər. Göstərilən sahədə yeni infrastruktur obyektlərinin tikilərək istifadəyə verilməsi, həmçinin yerli və gəlmə qonaqların məmnunluğunu və xoş əhval-ruhiyyəsini formalaşdıra biləcək digər bu tip kompleks tədbirlərin həyata keçirilməsi nəticəsində turizm sektorunun səmərəli və davamlı inkişafını gözləmək olar.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 104-108
VII Collection of Theses on “Scientific Sources” / 104-108
DOI: https://doi.org/10.36719/2024/VIII

**Günay Məmmədova**
Bakı Dövlət Universiteti
magistrant
gunaym26@mail.ru

# AZƏRBAYCANDA REGİONAL TURİZMİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *regional turizm, amillər, turizm xidmətləri, xarici mühit amilləri, regionun turizm potensialı, coğrafi mövqe*
***Keywords:*** *regional tourism, factors, tourism services, external environment factors, tourism potential of the region, geographical position*

İqtisadiyyatda ən gəlirli və perspektivli sahələrdən biri olan turizmin inkişafına son illərdə Azərbaycanda yetərincə fikir verilsə də, hələ də onun potensialından tam istifadə edildiyini deyə bilmərik. Nəzərə alsaq ki, Azərbaycanın hər bir regionu özünəməxsus turist cəlbediciliyinə və turizm infrastrukturunun inkişafı baxımından mühüm potensiala malikdir, demək ki, ölkənin regionlarında turizm sahəsini inkişaf etdirməklə, iqtisadi artımı stimullaşdırmaq, xarici və daxili investisiyaları cəlb etmək, yekunda əhalinin həyat səviyyəsini yüksəltmək mümkündür.

Azərbaycanda regional turizmin inkişaf etməsinə bir sıra amillərin təsir göstərdiyini qeyd etmək lazımdır. Bu amillər sırasında əhalinin artım səviyyəsi, onların real gəlirlərinin, buna müvafiq olaraq alıcılıq qabiliyyətinin yüksəlməsi, iş və asudə vaxtlarının nisbətinin dəyişdirilməsi, regional səviyyədə nəqliyyatın, kütləvi-informasiya vasitələrinin inkişafı, isteh-

DOI: https://doi.org/10.36719/2024/VIII

lakçı tələbatının strukturundakı dəyişiklikləri və digərlərini göstərmək olar. Onların müəyyənləşdirilməsi, uçotu, təhlil edilməsi, planlaşdırma və proqnozlaşdırmada istifadəsi regionda turizmin dayanıqlı inkişafının təmin edilməsində əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Turizmin regional inkişafını nəzərə alaraq, təkcə uzun-müddətli müvəqqəti təsir göstərə bilən amilləri deyil, həm də müəyyən bir regionun müxtəlif potensialına görə turizmin inkişafının dəyişə bilən regional amilləri də nəzərə almaq lazımdır. Makroiqtisadi amilləri regionda turizmin strateji inkişafına dolayı təsir edən xarici mühit amilləri kimi, mikroiqtisadi amilləri isə birbaşa təsir göstərən xarici mühit amilləri kimi nəzərdən keçirmək lazım gəlir. Təbii və iqtisadi mühitin xarici amilləri faktiki olaraq regionda turizmin strateji inkişafı üçün şərait yaradır.

Təbii-iqlim, coğrafi, mədəni və tarixi amillər turizmin inkişafının miqyasına, tempinə və istiqamətinə əsaslı təsir göstərməklə, regionun turizm cəlbediciliyini və potensialını müəyyənləşdirir. Turistlər təbii, iqlim və landşaft xüsusiyyətlərini, flora və faunanın unikallığını, zənginliyini, o cümlədən də turizmin əsas müştərilərini müşayiət edənlər üçün maraqlı ola biləcək aktiv istirahətin təbii imkanlarının mövcudluğunu nəzərə alırlar.

Regional turizmin müştəriləri əlverişli hava şəraiti ilə seçilən marşrutlara və mövsümlərə üstünlük verirlər. Qeyri-sabit iqlimi olan ərazilərə xas təbiətin tez-tez şıltaqlığı, eləcə də təbii fəlakətlər belə bölgələrə gələnlərin sayının azalmasına səbəb olur. Turistlərin hava və iqlim şəraitinə olan tələblərini nəzərə alaraq, əsas turizm regionları hər iki yarımkürənin mülayim zonalarında, eləcə də yüksək hava temperaturunun dəniz küləkləri ilə kompensasiya olunduğu isti zonanın adalarında yerləşir. Bölgənin coğrafi mövqeyi regional turizm

DOI: https://doi.org/10.36719/2024/VIII

üçün çox mühüm rol oynayır, ilk növbədə burada dənizə, dağlara və meşələrə yaxınlığı, sahil zolağının təbiəti, regionun turizmlə bağlı mövqeyini qeyd etmək lazımdır. Turizmi təmin edən əsas ərazilərin regionun mühüm tranzit marşrutları üzərində, habelə müxtəlif tibb müəssisələrinin yaxınlığında yerləşməsi zəruridir.

Regionlarda turizmin inkişafına mədəni-tarixi amillər güclü təsir göstərir. Kompozisiyaları köçürmək və seyr etmək üçün uyğunlaşdırılmış memarlıq abidələrinin, muzeylərin, qalereyaların, teatrların, tarixi görməli yerlərin, dini mərkəzlərin mövcudluğu müəyyən bir bölgədə turizmin bu növünün inkişaf tempini müəyyən edir, çünki bu, təkcə turizm imkanlarını yaratmır, həmçinin biliklərin əldə edilməsi və mənəvi xarakterli ehtiyacların ödənilməsi, həm də müəyyən növ turistlərin cəmiyyətə inteqrasiyası üçün sosial vasitədir.

Yeni informasiya texnologiyaları və effektiv kommunikasiyalar regional turizm bazarının sürətli inkişafını təmin edir. Yeni texnologiyalara və telekommunikasiya bazarına böyük investisiyalar şaquli, üfüqi və diaqonal inteqrasiyaya gətirib çıxarır. Regional turizmin təşkilində qlobal kompüter şəbəkələri böyük əhəmiyyət kəsb edir, marketinqin rolu artır, bronlaşdırma prosesi sadələşdirilir ki, bu da regionlarda turizmin davamlı strateji inkişafına töhfə verir. İnfrastruktur maneələrinin aradan qaldırılması və turizm sənayesində innovativ iş üsullarının mənimsənilməsi problemləri həll edilmədən regionda turizmin strateji inkişafı mümkün deyildir. Elmi-texniki tərəqqinin təsiri konkret regionda turizmin inkişaf sürətini əhəmiyyətli dərəcədə artıra bilər.

Regionda turizmin inkişafına iqtisadi və maliyyə amillərinin təsiri onunla bağlıdır ki, turizmin inkişaf tendensiyaları ilə regionun iqtisadiyyatı arasında sıx əlaqə mövcuddur. Turizmin maddi-texniki bazasının və infrastruk-

DOI: https://doi.org/10.36719/2024/VIII

turunun inkişaf səviyyəsi rayonun iqtisadi vəziyyətindən asılıdır.

Regionda turizmin inkişafına siyasi və tənzimləyici amillər də daimi təsir göstərir. Cəmiyyətdəki siyasi sabitlik bütün fəaliyyət sahələrində texniki və texnoloji əməkdaşlığa şərait yaradır. İqtisadi cəhətdən inkişaf etmiş regionları onların iqtisadiyyatına investisiya yatırmaqla və əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaqla dəstəkləmək mümkün olur. Bu, son nəticədə həmin regionların əhalisinin hərəkətliliyinin artmasına və nəticədə turizmin inkişafına səbəb ola bilər. Regional turizm sahəsinin tənzimlənməsi və səmərəli qanunvericilik bazasının sistemli davamlı inkişafı, turizmin bu növünə investisiya risklərinin azaldılmasını və istehlakçıların müdafiəsini təmin edir. Belə şəraitdə regionlarda turizmin təhlükəsizliyi xüsusi əhəmiyyət kəsb edir. Turistlərin təhlükəsizliyinin təmin edilməsinin əsas effektiv vasitəsi bütün regionların hökumətlərinin və turizm təşkilatçılarının bu istiqamətdə əlaqələndirilmiş işi olmalıdır.

Regionlarda turizmin strateji inkişafına demoqrafik amillər də təsir edir. İnkişaf etmiş regionlarda əhalinin demoqrafik strukturunda baş verən dəyişikliklər insanın asudə vaxtını və gəlirlərini səyahət üçün istifadə etməsinə səbəb olur. Yaşlı insanlar (55-65 yaş arası) regional turizmdə getdikcə daha vacib rol oynamağa başlayır. Regional turizmin potensial müştəriləri arasında subayların və uşaqsız ailələrin xüsusi çəkisinin və müvafiq olaraq, onların ailəyə düşən gəlirlərinin artması regional turizmin ayrı-ayrı fərdlər üçün səyahətlər kimi seqmentlərinin artımını təmin edir.

Aydındır ki, Azərbaycanda regional turizmin gələcək inkişafı üçün böyük perspektivlər var, lakin səmərəli davamlı inkişaf strategiyası qurmaq üçün yuxarıda göstərilən amillərdəki dəyişiklikləri daim izləmək lazımdır. Digər

DOI: https://doi.org/10.36719/2024/VIII

tərəfdən konkret region üçün effektiv siyasətin formalaşdırılması bütövlükdə ölkə üçün strateji əhəmiyyət verilən məsələdir, xüsusilə də turizm üçün bu olduqca vacibdir. Dövlətin regional siyasəti onun bütün regionlarının həm iqtisadi, həm siyasi, həm də sosial-mədəni baxımdan hərtərəfli tarazlı inkişafının təmin edilməsinə yönəlmişdir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 109-112
VII Collection of Theses on “Scientific Sources” / 109-112
DOI: https://doi.org/10.36719/2024/VIII

**Günan Məmmədova**
Bakı Dövlət Universiteti
magistrant
gunanmemmedova2@gmail.com

# AZƏRBAYCANDA AQRAR TURİZMİN İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *aqroturizm, turizmin inkişafı, turist obyektləri, məşğulluq, iqtisadi potensial, dövlətin regional siyasəti*
***Keywords:*** *agritourism, tourism development, tourist facilities, employment, economic potential, regional policy of the state*

Turizm sahəsinə istirahətlə əlaqədar olan sənaye, tikinti, nəqliyyat və digər iqtisadiyyat sahələrinin qarşılıqlı bağlılığı vasitəsilə turizm xidmətlərinin göstərilməsi məqsədi ilə yaranan müəssisə və təşkilatlar daxildir. Turizm sənayesi mehmanxana və istirahət kompleksləri ilə yanaşı, özündə həm də nəqliyyat müəssisələrini, ekskursiya şirkətlərini, həmçinin də sosial-mədəni sahələri cəmləşdirir. Dovlət turizm sahəsində fəaliyyət göstərən sahibkarlara, hüquqi və fiziki şəxslərə bir sıra güzəştlər tətbiq edərək regionlarda turizm xidmətləri dövriyyəsinin artmasına səbəb olur. Turizmin inkişafı həm regionların inkişafı, həm də tarixi qədim mədəniyyət abidələrinin, adət və ənənələrin qorunmasında və onun gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Bu baxımdan da aqroturizmin inkişafı kənd əhalisinin həyat tərzinə təsir göstərərək onlarda yeni vərdişlərin yaranmasına səbəb olur.

Azərbaycanın müxtəlif bölgələrində infrastrukturun yaxşılaşdırılması da aqrar turizmin inkişafına müsbət təsir göstərir.

DOI: https://doi.org/10.36719/2024/VIII

Respublikamızda 12 təbii və tarixi cəhətdən turizm üçün yararlı qoruq, 17 ov təsərrüfatı, 250-dən artıq göl və 1200-ə yaxın kiçik çaylar vardır. Hazırki dövrdə respublikada şəhərlərarası nəqliyyat, yükdaşıma, eyni zamanda əhalinin daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin xidmət səviyyəsi, həm də yol infrastrukturu beynəlxalq tələblərə uyğun şəkildə təkmilləşdirilmiş və yenidən təşkil olunmuşdur. Xarici şirkətlərin daxili imkanları hesabına prioritet istiqamət olan sosial infrastruktur obyektlərinin tikilməsi, onların inkişafının beynəlxalq səviyyələrə uyğun gələn dinamikası əsas amil və sosial nəticə kimi formalaşdırılır.

Aqroturizmin inkişaf təcrübəsi göstərir ki, praktiki olaraq təbiətdən ənənəvi istifadənin istənilən sahəsi üzrə effektiv şəkildə kommersiyalaşdırılma mümkündür. Bununla əlaqədar olaraq, aqroturizm təkliflərinin regionlarda yerli əhalinin əmək məşğuliyyətinin müxtəlif formalarının bütöv bir spektrinin praktiki olaraq "sıfırdan" yaradılmasına şərait yaratdığı qeyd olunmalıdır. Sirr deyildir ki, çox vaxt məhz kənd təsərrüfatı rayonları kifayət qədər məhdud məşğulluq strukturuna malik olurlar və bu da əmək qabiliyyətli gənclərin şəhərlərə axınını qaçılmaz edir. Regionlarda aqroturizm proqramlarının inkişafı halında isə çoxsaylı müxtəlif iş yerləri meydana çıxır və bu halda məhz yerli gənc sakinlərə daha çox ehtiyac yaranır. Əcnəbi turistlərin axını xarici dillərin öyrənilməsinə zərurət yaradır ki, bu da əmək ehtiyatlarının və regionun iqtisadiyyatının diversifikasiyasına öz təsirini göstərir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə aqroturizm sisteminin inkişafı üçün böyük potensial vardır. Qeyri-neft sektorunun inkişafı baxımından turizm dövlət tərəfindən vacib prioritet sahələrdən biri kimi seçilmişdir. Xüsusilə Azərbaycanın regionlarında aqroturizm xidmətinin və bu istiqamətdə məşğul olan sahibkarların inkişafı məqsədilə şərait yaradılıb və əgər lazımi

DOI: https://doi.org/10.36719/2024/VIII

diqqət ayrılarsa, ölkə bu istiqamətdə böyük gəlir götürə bilər. Azərbaycanda turizmin potensial göstəricisi həm əhali sayı, həm turizmin maddi-texniki bazası, həm də turizm sahəsinə yönələ biləcək maliyyə vəsaitlərinin miqdarı ilə müəyyənləşdirilir. Turizm sahəsinin iqtisadi və sosial inkişafının ən əsas iqtisadiyyatı kimi resurslardan istifadə etmək yolları və onun səmərəliliyinin iqtisadi potensialın yüksəldilməsinə təsiri böyükdür. Rəqabət mühiti şəraitində gəliri olan turist obyektləri həm öz fəaliyyətinin genişlənməsinə, həm də özünə maliyyələşmə imkanı yaradır.

Müasir şəraitdə turizmin inkişafı istiqamətlərinə nəzər yetirərkən aqroturizmin inkişafına xüsusi diqqət yetirilməlidir. Belə ki, aqroturizmin inkişafı üçün tələb olunan maliyyə turizmin digər növlərindən daha azdır. Bu da mövcud şəraitdə əsas üstünlüklərdən biri hesab olunur. Aqroturizm potensialının vəziyyəti hər zaman xarici və daxili amillərin təsirinə məruz qalır və dəyişir. Buna görə də, Azərbaycan Respublikasının aqroturizm potensialı mütəmadi olaraq dəyərləndirilməli, istifadə olunmamış ehtiyatlar aşkarlanmalı, bütün bunlar isə öz növbəsində turizmin inkişafı istiqamətində qəbul edilən dövlət proqramlarında öz əksini tapmalıdır.

Bildiyimiz kimi, öz potensialını sistematik şəkildə qiymətləndirən və onu inkişaf etdirən regionlar üçün iqtisadi artım xasdır. Aqroturizm potensialının qiymətləndirilmə metodikası da regional turizmin inkişaf proseslərinin nizama salınma problemlərinin həlli məqsədilə nəzərdə tutulmuşdur. Onun isə əsasını turizm ərazisinin xüsusiyyətlərinin tədqiq olunması təşkil edir ki, bu isə turizm regionunun hazırki iqtisadi şəraitə uyğunlaşma dərəcəsini də qiymətləndirməyə və onun inkişafının da məqsədyönlüyünü əsaslandırmağa şərait yaradır. Aqroturizmin inkişafı həm də regionun infrastrukturunun formalaşdırılması üçün münbit şərait yaradır.

DOI: https://doi.org/10.36719/2024/VIII

Bütün bunlar isə, ölkənin regionlarının sosial-iqtisadi cəhətdən inkişafı və yoxsulluğun aradan qaldırılması ilə bağlı qəbul edilən proqramların əsas məqsədləri sırasındadır. Təəssüflə o da qeyd edilməlidir ki, respublikamız böyük aqroturizm potensialına malik olsa da, onun çox az hissəsindən istifadə edilir.

Müasir dövrdə Azərbaycan Respublikasının regionlarının aqroturizm potensialından səmərəli istifadə məsələsi də xüsusi əhəmiyyət kəsb edir. Respublikada aqroturizmi inkişaf etdirmək və turistlərin cəlbi məqsədilə ölkə ərazisində sadəcə iqlim şəraiti, təbiət, flora, yaxud fauna kimi resurslar deyil, bir o qədər də tarixi əhəmiyyətli mədəniyyət abidələri vardır. Sözügedən abidələr isə respublikamızın müxtəlif regionlarında yerləşir. Turizmin inkişafı potensialının 50%-i, demək olar ki, regionlarda olan siyasətlə əlaqəlidir. Regionların sosial və iqtisadi inkişafı əhalinin məskunlaşması ilə dövlətin aparıcı himayəçilik obyekti hesab olunur. Bunun üçün dövlət sosial və iqtisadi inkişafın potensialı hesab olunan hər region üçün şərait yaradır. Dövlətin regional siyasəti daha güclü respublika olma məqsədilə həyata keçirilir. Regionlar daxili və xarici əlaqələri daha da təkmilləşdirməklə iqtisadi cəhətdən təhlükəsizliyini təmin edir. Hazırda dövlət və region munasibətləri azad bazar iqtisadiyyatına uyğun olaraq və dövlət tənzimləməsi yolu vasitəsilə əlaqələndirilir. Regionların iqtisadi cəhətdən müstəqilliyi və mərkəzləşdirilmiş olan qərarlar arasında iqtisadi maraqlar daha əsas götürülür. Yəni ki, mərkəzləşdirilmiş resurslar, maliyyə potensialı, həmçinin iş qüvvəsi də bunların təkrar istehsal edilməsi üçün ümumi respublika potensialı və dövlət resurslarını artıraraq istifadəsini daha da təkmilləşdirən siyasət formalaşır.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 113-115
VII Collection of Theses on “Scientific Sources” / 113-115
DOI: https://doi.org/10.36719/2024/VIII

**Yeganə Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
bakalavr
yegane062006@gmail.com

# ANA DİLİMİZ MİLLİ VARLIĞIMIZDIR!

***Açar sözlər:*** *dil, ana dili, Azərbaycan dili, dilin saflığı, dilin tarixi*

***Keywords:*** *language, mother tongue, Azerbaijani language, purity of language, history of language*

Dil xalqın varlığıdır. Mənim ana dilim Azərbaycan dilidir. Onun saflığını və müqəddəsliyini qorumaq mənim və bütün azərbaycanlıların vətəndaşlıq borcumuzdur. “Beynəlxalq Ana Dili Günü” 21 fevral 2000-ci ildən etibarən dünyada dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd edilir. Hər bir insan öz ana dilini yüksək səviyyədə bilməli və onu canı bahasına da olsa, qorumalıdır. Ana dili hər bir xalqın kimliyidir.

Dil millətin simasını səciyyələndirən mühüm amillərdən biridir, onun milli sərvətidir. Millət dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Hər hansı bir xalqın dilinin mükəmməl şəkildə formalaşması, onun ünsiyyət vasitəsinə çevrilməsi uzun tarixi prosesin nəticəsində mümkün olur. Azərbaycan xalqı ana dilimizin saflığını qoruyaraq bu dildə dastanlar, əfsanələr, rəvayətlər yaradıb dilimizi nəsildən-nəsilə ötürmüş və bu günümüzə gətirib çatdırmışdır. Əsrlər boyu analarımız həzin laylalarını bu dildə söyləmiş, nənələrimiz bizə bu dildə şirin nağıllar danışmışlar.

DOI: https://doi.org/10.36719/2024/VIII

Azərbaycan dili bu günümüzə gəlib çatmaq üçün min illərin dil çeşməsində durulmuş və müxtəlif çətin sınaqlardan keçmişdir. Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Məmməd Araz və başqa görkəmli söz ustaları bu dildə ölməz sənət nümunələri yaratmış, Azərbaycan dilinin inkişafına öz töhfələrini vermişlər.

Məhəmmədhüseyn Şəhriyarın dediyi kimi türkün məsəli, folkloru dünyada təkdir, dilimizə müxtəlif dillərdən sözlər artırılmış, həmçinin də bizim dilimizdən başqa dillərə sözlər keçmişdir. Lakin dilimizi özgə dilə qatsan, bu əsil dil əsil olmaz.

Azərbaycan dilinin qorunması və inkişafı Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev demişdir: “Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz... Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini, Nəsimini, Vaqifi, Sabiri, Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi, mədəni köklərimizi, milli-mədəni ənənələrimizi bilməyəcək, onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır.

Bizim dilimiz tarixlərdə, rəsmi sənədlərdə yaşayır. Orta dövrdə Şah İsmayıl Xətai kimi əzəmətli hökmdarlarımız müharibə etmək istədiyi qarşı tərəf ilə sənədlər, fərmanlar vasitəsilə ünsiyyət qurmuşlar. Min illər milli folklorumuzda özünü yaşadan ana dilimiz Şah İsmayıl Xətainin zamanında Dövlət dili statusuna yüksəldi. Ana dilimiz ruhunu Qobustanın qayalarından, əzəmətini Odlar Yurdundan, kökünü ulu saylarımızdan götürmüşdür.

DOI: https://doi.org/10.36719/2024/VIII

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ilk qərarlarından biri Azərbaycan dilini dövlət dili elan etməsi oldu. Bütün sahələrdə, o cümlədən, təhsildə, orduda, qanunvericilikdə ana dilinin tətbiq edilməsinə başlanıldı.

Bu gün dövlət dilimiz olan Azərbaycan dilinin hərtərəfli inkişafı dünyanın ən mötəbər tribunalarından səslənməsi Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dünənimizin, bu günümüzün və xoşbəxt sabahlarımızın əsasında Azərbaycan dili dayanır.

Azərbaycan dili bizi bir xalq və millət kimi həmişə qoruyub. Müqəddəs ana dilimizi qorumaq və nəsildən-nəslə ötürüb onu inkişaf etdirmək hər bir azərbaycanlının müqəddəs borcudur.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 116-119
VII Collection of Theses on “Scientific Sources” / 116-119
DOI: https://doi.org/10.36719/2024/VIII

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Ağasəmid İsayev**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
tibb elmləri doktoru
agasamed_isayev@mail.ru
**Sevinc Sadiqova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
dr.sevincsadigova@gmail.com
**İradə Nağıyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
iradanagiyeva1978@gmail.com
**Salatın Bəxtiyarova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
salatinbaxtiyarova@gmail.com

## SUYUN BƏZİ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİNİN NƏTİCƏLƏRİ

***Açar sözlər:*** *içməli su, keyfiyyət, sağlamlıq, su mənbələri, supaylayıcı şəbəkə*

***Keywords:*** *drinking water, quality, health, water sources, distribution network*

Tədqiqatın aktuallığı. Saniar-epidemioloji tələblərə uyğun olaraq içməli su epidemioloji cəhətdən təhlükəsiz, kimyəvi cəhətdən keyfiyyətli, orqnoleptik cəhətdən qənaətbəxş olma-

DOI: https://doi.org/10.36719/2024/VIII

lıdır. Hal-hazırda su təchizatı mənbələrindən və supaylayıcı şəbəkələrdən götürülmüş su nümunələrinin sanitar-kimyəvi göstəricilərinin öyrənilməsi bu gün də prioritet olaraq qalmaqdadır. Su mənbələrinin qeyri-qənaətbəxş vəziyyəti suyun orqanoleptik və kimyəvi göstəricilərinin pisləşməsinə səbəb olan əsas amillərdən biridir. Bu baxımdan supaylayıcı şəbəkələrdə suyun keyfiyyəti sanitar qaydalara və normalara uyğun gəlmir, insanlar isə alternativ su mənbələrindən (bulaq suyu, quyu və artezian suları, qablaşdırılmış və filtrdən keçirilmiş şəbəkə suları) istifadə etmək məcburiyyətində qalır. Mövcud problemlərin aradan qaldırılması üçün ətraf mühitin, o cümlədən təsərrüfat-içməli su mənbələrinin çirkləndiricilərdən qorunması bu gün də həyati vacib məsələlərdən biri kimi diqqət mərkəzindədir. Qeyd olunan problemlərin həlli əhalinin sağlamlığı üçün təhlükəli hesab edilən risk amillərinin aradan qaldırılmasına gətirib çıxara bilər (Bakhriddinova, 2019: 3; Ivanov, 2013: 135-158).

Tədqiqatın məqsədi Salyan rayonunun Qaraqaşlı kəndində içməli suyun bəzi kimyəvi xüsisiyyətlərini müəyyənləşdirməkdən və alınmış nəticələri sanitar qaydalar və normalarla müqayisə etməkdən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat obyekti kimi içməli sudan istifadə olunmuşdur. İşin gedişi zamanı titrimetrik və çəki üsullarından istifadə olunmuşdur. Müayinə zamanı suyun reaksiyası (Ph) lakmus kağızı, ümumi codluğu trilon B, müvəqqəti codluğu xlorid turşusu, xlorid ionları gümüş-nitrat, quru qalıq isə çəki üsulundan istifadə erməklə təyin olunmuşdur (GOST 31954-2012, 2013:11, GOST 4245-72, 2000:12).

Nəticə. İçməli suyun əsas keyfiyyət göstəricilərindən biri onun Ph-ı olub -7,5±0,25 təşkil edir (norma 6,0-8,0). Ph orqanizmdə fizioloji proseslərin normal yerinə yetirilməsi və

DOI: https://doi.org/10.36719/2024/VIII

xəstəliklərə qarşı davamlı olması üçün optimal şərait yaradır. Ümumi codluq ‗ 7,6±0,23, normadan bir qədər artıq olsa da, icazə verilən hədd hesab olunur və əhalinin sağlamlığı üçün təhlükə törətmir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatlarında qeyd olunur ki, içməli suda olan kalsium və maqneziumun miqdarı ilə arterial hipertenziyanın, beyin qan dövranının kəskin pozulmalarının yayılması arasında əks əlaqə mövcuddur. Yumşaq su istifadə edilən regionlarda hipertoniya xəstəliyinin səviyyəsi digər regionlarla müqayisədə 25-30% yüksəkdir (Kousa, Moltchanova, Viik-Kajander, et all, 2004:136-139). Lakin bəzi yapon alimləri suyun codluğu ilə ürək-damar sistemi xəstəliklərinin yayılma tezliyi arasında belə bir əlaqənin olmadığını da iddia edirlər. Sadalananlara aydınlıq gətirmək üçün qeyd etmək lazımdır ki, istənilən amil yalnız təyin olunmuş konsentrasiya və intensivlik intervalında orqanizmə müsbət təsir edə bilər (Miyake, Iki, 2004: 25-28).

Əldə olunan nəticələrə görə Qaraqaşlı kəndindən götürülmüş su nümunələrində xlorid ionlarının miqdarı nisbətən az‗65,2±3,37mq/dm$^3$ (norma‗350mq/dm$^3$-ə qədər), quru qalığın miqdarı isə əksinə bir qədər yüksək olsa da‗753,5±29,12 mq/dm$^3$ icazə verilən hədd hesab olunur (norma‗1000 mq/dm$^3$-ə qədər). Suyun kimyəvi və ya mineral tərkibi onun dadına təsir etməklə yanaşı, həm də bir sıra xəstəliklərin yaranmasına səbəb ola bilər. Müəyyən olunmuşdur ki, suyun minerallaşma dərəcəsinin artması onun codluğunun da artmasına səbəb olur. Ona görə də içməli suda quru qalığın miqdarını bilmək lazımdır.

Yekun. Beləliklə, Salyan rayonunun Qaraqaşlı kəndindən götürülmüş su nümunələrində onun codluğunun və quru qalığın normadan bir qədər yüksək olması icazə verilən hədd hesab olunsa da, həmin suyun uzun müddət istifadə olunması

DOI: https://doi.org/10.36719/2024/VIII

gələcəkdə qan plazmasında osmotik təzyiqin yüksəlməsinə və dispeptik əlamətlərin yaranmasına səbəb ola bilər. Ona görə də həmin kənddə modul tipli sutəmizləyici qurğuların quraşdırılması tövsiyə olunur.

## Ədəbiyyat


1. Bakhriddinova, N.M. (2019). Analiz osnovnykh pokazateley kachestva vody tsentralnogo vodosnabzheniya Bukharskoy oblasti // Universum: Tekhnicheskiye nauki: elektron. nauchn. zhurn, № 6(63), c.3.
2. Ivanov, V.F. Opyty issledovaniya kachestva pit'yevoy vody (2013). // Vestnik Rossiyskogo universiteta kooperatsii, №4(14), s.135-138.
3. GOST, 31954-2012. (2013). Voda pit'yevaya. Metody opredeleniya zhestkosti. M.: Standartform, 11 s.
4. GOST, 4245-72. (2000). Voda pit'yevaya. Metody opredeleniya khloridov. M.: IPK Izdatel'stvo standartov, 12 s.
5. Kousa, A., Moltchanova, E., Viik-Kajander, M., et all. (2004). Geochemistry of ground water and the incidence of acute myocardial infarction in Finland // J. Epidemiol Community Health, 58(2):136–139.
6. Miyake, Y., Iki, M., (2000). Lack of association between water hardness and coronary heart disease mortality in Japan // Int. J. Cardiol., v.96, No1, pp.25-28.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 120-122
VII Collection of Theses on “Scientific Sources” / 120-122
DOI: https://doi.org/10.36719/2024/VIII

**Sevinj Alakbarova**
Azerbaijan State Pedagogical University
shahla-nasimi@mail.ru

# PHENOTYPIC CORRELATIONS AND PATH ANALYSIS BETWEEN CHARACTERISTICS INTRA- AND INTERSPECIFIC HYBRIDS F2

***Keywords:*** *wheat, phenotypic correlations, hybridization, population, grains of the ear,*
***Açar sözlər:*** *buğda, fenotipik korrelyasiya, hibridləşmə, populyasiya, sünbül dənələri*

In breeding and genetic practice, it is important to know the nature of the manifestation of traits in a relationship. It has been shown in many crops that, as a rule, a change in the level of one trait is accompanied by a change in others. We find scientific justification for the possibility of combining the most important economic and biological traits in hybrids in the work of G. Mendel (1923). His doctrine of the free combination of hereditary factors makes it possible to foresee changes in many correlations and achieve, through hybridization, the combination of different valuable traits in one variety.

In the genetics of quantitative plant traits, various types of correlations between dimensional traits are distinguished: genetic (additive), and genotypic (additive values plus deviations of dominance and overdominance). The latter are calculated based on the average values of quantitative characteristics of varieties or hybrids F1, F2, etc. Phenotypic correlations are calculated in a genetically heterogeneous environment. It should be noted that for durum wheat and,

DOI: https://doi.org/10.36719/2024/VIII

especially, rare species, which include turgid wheat, correlations between traits have been poorly studied.

Correlations play a very important role in selection. Based on genetic and statistical methods, undesirable negative relationships between individual traits were broken (root yield and sugar content of sugar beets, yield with high oil yield in sunflower, and, to some extent, between yield and stunting in wheat, and many others). In turn, there are known cases of creating new relationships between quantitative characteristics for which the Swazis were absent.

The problem for durum wheat - to combine with a positive correlation such characteristics as high productivity, excellent grain quality, medium or low stature, combined with yield to lodging and diseases, and vertical position of the ear - requires further solution. With the help of breeding and genetic research, some stages of this difficult problem are gradually being solved, as evidenced by the introduction into the production of new, more advanced varieties. Between plant height and productivity elements, including productive tillering, the correlation coefficients for most combinations were not significant, i.e. there was no connection (in 30 cases out of 50). In some combinations, the relationship of this trait with elements of productivity was negative, although weak, but statistically significant. Depending on the combination, the relationship between height and productive tillering was significantly moderate or absent.

The relationship between plant height and ear length in 8 combinations was statistically insignificant, and in 2 combinations it was weak and above average negative. The relationship between plant height and the number of spikelets of the main ear was also largely unreliable. The same trait correlated with the number and weight of grains of the main

DOI: https://doi.org/10.36719/2024/VIII

ear in 5 combinations (positive in 4, negative in one); in the other five combinations, this relationship turned out to be statically unreliable.

The obtained data on the nature of inheritance of the studied quantitative traits and the combining ability of the parental forms formed the basis for further research on the comparative study of older generations of these hybrids and the determination of the best combinations.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 123-125
VII Collection of Theses on "Scientific Sources" / 123-125
DOI: https://doi.org/10.36719/2024/VIII

**Elza Hasanli**
Azerbaijan State Agrarian University
elza.qasanly@mail.ru

# ISSUES OF DEGRADATION OF WINTER PASTURES IN AZERBAIJAN

***Keywords:*** *climatic zones, vegetation, pastures, soil vegetation cover, degradation*
***Açar sözlər:*** *iqlim qurşaqları, bitki örtüyü, otlaqlar, torpaq bitki örtüyü, deqradasiya*

The nature of Azerbaijan and its flora have long attracted the attention of travelers, researchers, and simply curious of people. Despite the rather long period of study, the flora this mountainous country cannot be considered fully explored. Annually expeditions, and searches in herbarium collections provide new data or force take a fresh look at already known facts. The vegetable world of Azerbaijan still hides many secrets and does a lot of work to reveal them. Wild, semi-desert, subalpine, and alpine meadows are one of the most important ecosystems from the point of view of biodiversity. Floristic variety the composition combined with the unique ecological conditions of deserts and the semi-deserts of Jeyranchol-Acinohur form a large number of plant communities. Semi-desert vegetation in arid and saline soils of the Eastern Transcaucasia lowland characterized by the predominance of halophilous shrubs and subshrubs and also limited to annual fall-summer species. In the conditions of Azerbaijan, it covers almost the entire flat zone altitude -28 to +100 (150 m), above sea level and more and it is characterized by the predominance of solyanka and wormwood-solyanka.

DOI: https://doi.org/10.36719/2024/VIII

Land use tension, inefficient amelioration measures, incorrect pasture rotation, intensive and unsystematic grazing of livestock leads to increased erosion, caused the loss of vegetation and degradation process in pastures. In addition to the failure to solve the problems in time, the destruction of useful land, the ecological situation has become more tense with limitation and opportunities have been created for the development of agriculture in our country. Lack of effective pasture control poses a threat to the ecosystem. Several times due to the abundance of pastures productivity for fodder (by converting them to dry land) decreased by 3-5 ha/s, erosion processes were observed in some cases. Overgrazing not only causes vegetation but also erosion.

Erosion of wildlife habitats and biodiversity, their inefficient use, and lack of care often lead to reduced productivity of winter pastures. Efficient use of land and water development of animal husbandry and agriculture, in order to eliminate and develop existing problems in the field is planned to implement the necessary measures. In order to eliminate the excessive grazing of livestock and its negative consequences, it is necessary to create maximum grazing rates. Normal grazing is not only vital for every animal, but also restoration and improvement of the quality of pastures (nutrition and digestibility). The potential for maximum grazing rates and grazing periods is determined based on productivity. At the same time, grazing areas are also taken into account. Pastures should also be taken into account, grazing areas should follow the norms.

Terrain, vegetation, and erosion-prone areas and ravine grazing should be limited. In eroded areas, it is necessary to implement surface capital measures taking into account the physical and chemical properties of the soil and the botanical

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 123-125
VII Collection of Theses on “Scientific Sources” / 123-125
DOI: https://doi.org/10.36719/2024/VIII

composition of the grass cover. Agricultural plants, except for green fodder (crop), should not be allowed to fall more than 3 percent of the total pasture area. Improvement taking into account the efficiency, the pasture rate should be limited by the number of cattle. Cultivated pastures are created in order to reduce the productivity and burden of pastures, new in irrigated areas with preference for modernity technologies are used. Considering the great need of the livestock industry of the Republic cheap and good quality winter grazing fodder should be purchased and graze them systematically, do not overload them, look at them from time to time and it is necessary to implement measures for their improvement.

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 126-127
VII Collection of Theses on "Scientific Sources" / 126-127
DOI: https://doi.org/10.36719/2024/VIII

**Gülər Seyidova**
Azərbaycan Tibb Universiteti
tibb elmləri doktoru
seyidova_gular@mail.ru
**Sevinc Həsənova**
Azərbaycan Tibb Universiteti
magistrant
hesenovasevinc000@gmail.com

# ORTA YAŞLI QADINLARIN VAGİNAL YAXMALARINDA GÖBƏLƏK İNFEKSİYALARININ RAST GƏLİNMƏ TEZLİYİ

***Açar sözlər:*** *kandidoz, mikroorqanizmlər, göbələk infeksiyası, saburo, vaginal yaxma*
***Keywords:*** *candidiasis, microorganisms, fungal infection, saburo, vaginal smear*

Aktuallıq. Qadınların sağlamlığında təhlükə yaradan infeksiyalar sırasında göbələk infeksiyaları da mühim yer tutur. Xüsusilə də, Candida cinsli göbələklərin törətdiyi infeksiyalar. Candidaların təxminən 200-ə yaxın növü vardır. Candida göbələkləri tərəfindən törədilən infeksiyaların tezliyi hamilə qadınlarda daha yüksəkdir. Belə ki, hamilə olmayan qadınlarda bu infeksiyaya 20% hallarda rast gəlindiyi halda, hamilə qadınlarda 30-35% hallarda rast gəlinir. İran hesabatlarına nəzər yetirərək müəyyən edilmişdir ki, vulvovaginal kandidozun tezliyi 5,4%-dən 60%-ə qədər, 8,2%-dən 75%-ə qədər artmışdır. Kandidozun daha əvvəlki cinsi yol infeksiyaları ilə əlaqəli olduğu müəyyən edilmişdir. Belə ki, daha əvvəl cinsi infeksiyası olan şəxslərdə 52.6%, daha öncə infeksiyası olmayanlardan 32.1% daha çox yoluxma ehtimalı müəyyən

DOI: https://doi.org/10.36719/2024/VIII

edilmişdir. Kandidoz halları 2008-2013-cü illərdə nisbətən az rast gəlinsə də, 2013-2017-ci illərdə daha çox rast gəlinmişdir. Orta insident 2013-2017-ci illərdə hər 100.000 nəfərə 9 idi. CDC (Centers for Disease Control and Prevention) hesabına görə inkişaf etmiş ölkələrdə hər il 25000 kandidoz hadisəsi baş verir.

Tədqiqatın məqsədi. Tədqiqatın məqsədi qadınlarda infeksiyaya səbəb olan başlıca törədici Candida cinslərinin patoloji materiallardan izolə edilərək identifikasiya olunmasıdır.

Material və metodlar. Tədqiqat üçün 01.01.2024 - 31.03.2024 tarixlərində Referans laboratoriyalarına daxil olmuş xəstələrin vaginal yaxmalarından istifadə olunmuşdur. Götürülmüş patoloji materialların mikroskopik müayinəsi aparılmış, daha sonra kultural üsuldan istifadə edərək Saburo aqara inokulyasiya edilmişdir. 1 həftə ərzində 25-27C° temperaturda kultivasiyası aparılmışdır. Törədicilər izolə edilmiş və təmiz kulturaları alınmışdır. Törədicilərin identifikasiyası üçün əsasən makroskopik və mikroskopik üsuldan istifadə edilmişdir.

Nəticələr. Müayinə olunan orta yaşlı 105 xəstədən alınan patoloji materialların identifikasiyasından sonra onlardan 99-nun (99.2%) törədicisinin Candida albicans olduğu məlum oldu. Digər törədicilər isə C.tropicalis, C.glabrata və C.famata olmuşdur. Xəstələrdən 61-i 20-30 yaş aralığında, 35-i 30-40 yaş aralığında, qalan 9-u isə 40-50 yaş aralığındadır.

Yekun. Ədəbiyyatdan da məlum olduğu kimi, C.albicans cinsli göbələklər urogenital traktın selikli qişasında 95%, C.tropicalis və C.glabrata, C.famata yalnız 5% təşkil edir. Müayinə olan orta yaşlı qadınların yaxmalarında bu dinamik özünü göstərmişdir. Xüsusilə də, gənc nəsil nümayəndələrində Candidalar tərəfindən törədilən infeksiyaların artmasının səbəbləri öyrənilməli və profilaktik tədbirlər görülməlidir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 128-132
VII Collection of Theses on “Scientific Sources” / 128-132
DOI: https://doi.org/10.36719/2024/VIII

**Rəsmiyyə Kərimova**
Azərbaycan Dövlət Aqrar Universiteti
kerimova.resmiyye@list.ru

# ƏZVAY BİTKİSİ VƏ ONUN BİOLOJİ XÜSUSİYYƏTLƏRİ. SÜSƏN FƏSİLƏSİ-LILLIACEAE

***Açar sözlər:*** *aloun, antpaqlukozidlər, amin turşusu,aloe-emodin-antranol, xlorofil*

***Keywords:*** *aloe, antipaglucosides, amino acid, aloe-emodin-anthranol, chlorophyll*

Dərman bitkilərinə olan tələbatın artması onların mütəxəssislər tərəfindən daha geniş araşdırılmasına marağı artırıb. Belə bitkilərdən biri də əzvaydır. Qədim zamanlardan əzvay bitkisi xalq təbabətində geniş istifadə edilmişdir. Bitkinin yer kürəsində 500-ə yaxın növü məlumdur. 70-ə yaxın növü Cənubi Amerikada, Afrikada, Hindistanda və Ərəbistan kimi ölkələrin ərazisində geniş yayılmışdır. Bitkinin növləri içərisində ən çox məhsul verən, tibbi baxımdan güclü təsir göstərən Aloe arborescens–dir. Çoxillik, kol forması alan, həmişəyaşıl, hündürlüyü 45-150 sm olan zanbaqçiçəklilər (Lilliaceae) fəsiləsinə aid bioloji xüsusiyyətlərə malik bitkidir.

Odunlaşmış, düz və yanlara əyilmiş gövdəyə malikdir. Nəzərə çarpan qalın, ətləşmiş, alt hissəsi qabarıq, yuxarıdan növça şəkilli – çökək yarpaqları var. Yarpaqları qaidə hissədən gövdəni qucaqlamış, kənarları isə tikanlıdır. Çiçək qrupu 100-dən artıq boruşəkilli çiçəkdən ibarətdir. Çoxalması təbii şəraitdə toxumla baş verir. İstilik sevən bitkidir. Aloe bitkisi birbaşa düşən günəş şüalarını sevir. Münbit, qələvi xassəli torpaqlarda bitkinin inkişafı daha yaxşı gedir. Azərbaycanda

DOI: https://doi.org/10.36719/2024/VIII

Abşeronda azvay bitkisi normal inkişaf edir, çiçək açır. Otaq şəraitində temperatur stabil olaraq 18-20$^0$C olduqda bitki çiçək açır, toxum əmələ gətirir. Aloe bitkisinin yarpaqları qalındır, xaricdən mum təbəqə ilə örtülüdür.Yarpağın lətli hissəsi şirəlidir. Eninə kəsik etdikdə xlorofil daşıyan hüceyrələr və onları əhatə edən rəngsiz iri özək görünür ki, bunlar da suyu toplayan hüceyrələrdən ibarətdir. Bundan başqa yaşıl təbəqənin qurtaracağında və özəkdə paralel uzun, incə dəstə şəklində yığınlar var ki, bu yığınlar boru şəklində görsənir, daxilində sarımtıl maddə toplanır. Bu aloun hüceyrələridir ki, su toplayaraq bitkinin quraqlıq dövründə inkişafını təmin edir. Aloun hüceyrələri narıncı-sarı rəngli antpaqlukozidlər toplayır, bakteriosid və həzm sistemini güclü işlətmək qabiliyyətinə malikdir. Azərbaycanda aloe bitkisinin 1 növü çoxillik, ağac tipli forması – Aloe arborescens Milli yetişir. Çox nadir hallarda çiçək açır, vegetativ yolla çoxalır. Çoxalma üsulu kimi yarpaq qoltuğundan inkişaf edən gövdəciklər başqa yerə köçürülür. Bir müddətdən sonra köklər verir. Yeni bitki sərbəst inkişaf edir. Bitkinin otaq şəraitində, oranjeriyada, istixana-larda müxtəlif temperatur, suvarma və s. qulluq qaydalarına riayət etməklə çoxaltmaq olur. Azərbaycanda Abşeronda dərman bitkisi kimi yetişdirilir.

Azərbaycanda Abşeronun iqlimi, qızmar günəş şüası və əlverişli təbii mühiti aloe bitkisinin sürətlə yetişməsinə yaxşı təsir edir. Ölkəmizdə son illərdə aloe bitkisinə olan maraq artmışdır. Bitkinin yarpaqlarından alınan qiymətli şirədən müxtəlif xəstəliklərdə istifadə edilir. Mədə xorasında, vərəmdə, qanazlığında, göz xəstəliklərində bitkidən alınan şirə böyük müalicəvi əhəmiyyət kəsb edir. Yarpaqlar mürəkkəb kimyəvi tərkibə malik olduğundan yara sağaldıcı, iştah artırıcı kimi də geniş istifadə olunur. Əzvay bitkisinin şirəsi dəri üzərində olan yaraları sağaldır.

DOI: https://doi.org/10.36719/2024/VIII

**Cədvəl:1.Abşeronda yetişən ağac şəkilli aloe bitkisinin kimyəvi tərkibi (%).**

| Aloe arborescеus Milli | Yetişdirilmə üsulları | | |
|---|---|---|---|
| | yarım açıq torpaq tranşey | şitillik | istixana |
| 1.Antraqliko-zidlər | 3,35 | 2,85 | 3,05 |
| 2.Kül maddələr | 15,20 | 8 | 6,1 |
| 3.Acı maddələr | 1:7000 | 1:7000 | 1:7000 |
| 4.Vitamin C | 12000 mq | 890 mq | 1070 mq |

Orqanizmdə bir çox həyati proseslərin tənzimedici vasitəsi kimi böyük əhəmiyyətə malikdir. Əzvay şirəsinin tərkibində birləşmiş və sərbəst halda antroqlikozidlər, aloun və qətranlı maddələr vardır. Əzvay çətin parçalandığından alınan şəkərlər-dən arabinoza, aqlükonlardan- aloe-emodin antpaxinaon və aloe-emodin-antranol alınır.



DOI: https://doi.org/10.36719/2024/VIII

Bundan başqa əzvayın tərkibində az öyrənilmiş qətranlı maddələr də var. Bu maddələrin həzm prosesində işlədici əhəmiyyəti olduğu məlumdur. Bitkinin zəngin tərkibli yarpaqlarından alınan ekstraktlardan orqanizmi tənzimedici vasitə kimi geniş istifadə edilir. Bitkinin cavan yarpaqlarından əsrlər boyu xalq təbabətində yara sağaldıcı xüsusiyyətinə görə-dəri xəstəliklərində, yanıqlarda geniş istifadə edilib. Bitki şirəsindən alınan ekstrakt steril şəkildə göz xəstəliklərində (konyuktivit, piqment pozulmalarında, gözün sinir hüceyrələrinin atrofiyasında, traxomada və şüşəyəbənzər cisimlərin bulanıqlığında), eşitmə sinirinin atrofiyasında və s. istifadə edilir.

Aloe bitkisindən alınan şirə gec sağalan yaralarda və mədə xoralarında müsbət təsir edir. Aloe vərəm xəstəliyində böyük təsirə malikdir. 3 illik bitki yarpaqları çəkilərək təbii bal ilə qarışdırılır. Ac qarına 1 xörək qaşığı gün ərzində 3 dəfə qəbul edilir. Afrika və Hindistan ərazisində yerli əhali bitkinin şirəsini qurudaraq qəbizlik hallarında istifadə etməyə üstünlük verir. Qurudulmuş şirə sabur adlanır, həzmi yaxşılaşdıran, qəbizliyi aradan götürən, iştah artırıcı xüsusiyyətləri var.

Bitkinin tərkibi efir yağları, aminturşuları, vitaminlərlə (A,C,E,B–qrupu:$B^{12}$, $B^{9}$) Cr, Cu, polisaxaridlər, fitonsidlərlə zəngindir. İnsan orqanizmində 22 amin turşusunun 20-si aloenin tərkibində vardır. Yeganə bitkidir ki, pH (qələvilik) göstəricisi insan dərisinin qələvilik göstəricisi ilə eynidir. Məhz bu xüsusiyyəti kosmetologiyada bitkinin şirəsindən müxtəlif kremlərin, maskaların hazırlanmasına əsas verir. Bundan başqa, bitkinin ödqovucu, orqanizmi toksin və şlaklardan təmizləyici, hüceyrə metobolizmini və imuniteti artırıcı, selikli qişanı bərpa etmək, mikroorqanizmlərə öldürücü təsiri (stafilokok, streptokok, difteriya, bağırsaq çöpü) və s. xüsusiyyətləri var.

**DOI: https://doi.org/10.36719/2024/VIII**

Aloe vera–ağrı kəsici, bakteriosid, iltihab əleyhinə, regenerasiya edici, tənzimləyici, hemostatik, immun artırıcı, bərpaedici, antioksidant kimi yüksək keyfiyyətlərinə görə qiymətli bitkilər sırasındadır.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 133-135
VII Collection of Theses on “Scientific Sources” / 133-135
DOI: https://doi.org/10.36719/2024/VIII

**Rəsmiyyə Kərimova**
Azərbaycan Dövlət Aqrar Universiteti
kerimova.resmiyye.@list.ru

# NARIN KİMYƏVİ TƏRKİBİ VƏ XALQ TƏBABƏTİNDƏ İSTİFADƏSİ

***Açar sözlər:*** *flavinoidlər, fitonsidlər, leykoantosian, katexin, antioksidant, aşı maddəsi*
***Keywords:*** *flavonoids, phytoncides, leucoanthocyanin, catechin, antioxidant, vaccine*

Azərbaycanın münbit torpaqlarında nar adlı yüksək müalicəvi, vitaminlərlə zəngin meyvə bitkisi yetişir. Bitkinin meyvəsinin quruluşu tacı xatırlatdığına görə, ona meyvələrin “şahı” adı verilmişdir. Nar dünyanın əksər ölkələrində becərilir. Bitkinin sortları becərildikləri rayonların ekoloji şəraitindən asılı olaraq, fiziki və mexaniki xüsusiyyətlər baxımından bir-birindən fərqlənir. Nar şirəsnin miqdarı, şirənin tərkibi, qabığı, yetişmə dövrü və s. becərildiyi şəraitdən, yetişmə dərəcəsindən asılı olaraq növlər arasında dəyişir. Respublikamızda Gülöyşə, Nazik qabıq, Turş nar, Vələs, İrigilə, Mələs-Şelli (Ağdam-Qarabağ zonası) və s. geniş yayılmış sortlardır. Bu sortların hər birində meyvələr yüksək kimyəvi tərkibə malik olduğundan böyük əhəmiyyət kəsb edir. Narın meyvələri kimyəvi tərkibcə çox zəngindir. 5 -10 % qlükoza, 14 % - vitamin C, 10 -12 % limon, alma turşusu, vitamin B, PP, tain, mineral maddələr (Ca, Mg, Co, C), fitonsidlər, flavinoidlər narın meyvəsinin əsasını təşkil edir. Bitkinin antioksidant xüsusiyyəti onu daha qiymətli edir.

Narın meyvəsi qabıqdan, toxumdan və şirədən ibarətdir. Meyvənin 29,90% -31,75%-ni qabığı, 19,8% -21,12%-ni

DOI: https://doi.org/10.36719/2024/VIII

toxumu, 45,35%-47, 13%-ni meyvə şirəsi təşkil edir. Nar dənəsinin tərkibində 35,02% su, 1,55% kül maddə, 6,53%- yağ, 12,64% nişasta, 34,28% lif, 10%-i N-lu maddələrdən ibarətdir. Bitkinin meyvə yanlığının tərkibində, kökündə və kök qabığında 34% aşı maddəsi var. Narın tərkibində olan aşı maddəsi ona büzüşdürücü xüsusiyyət verir. Azərbaycanda yetişdirilən narın qabığındakı aşı maddəsinin miqdarı 0,25%-8, 71% arasında dəyişir. Meşələrimizdə yabanı halda bitən nar meyvəsinin qabığındakı aşı maddəsinin miqdarı 35-37% arasında dəyişir. Aşı maddəsi gön-dəri sənayesi üçün əsas xammal sayılır.

Narın şirəsinin tərkibində olan antosian maddəsi əsasən qlükozid birləşmələrindən ibarətdir. Güleyşə, çəhrayı güleyşə, mələs, qırmızı qabıq və s. sortların meyvələrinin şirəsində delfinidin, malvinidin və sianaidin antosian maddələri olduğu aşkar edilmişdir. Həmçinin, şirənin tərkibində antosian və flavinoiddən başqa katexin, az miqdarda leykoantosian da olduğu məlumdur. Qabığın tərkibində isə flavonoid maddələrindən - katexinlər, leykoantosianlar, antosianlar, flavonlar var. Nar qabığının tərkibində fenolkarbon turşusunun əsas tərkib hissəsini qall və ellaq turşuları təşkil edir. Nar şirəsinin tərkibində C vitamininin miqdarı 7,5%-8,9 mq təşkil edir. Laboratoriya şəraitində məlim olmuşdur ki, nar qabığının tərkibindəki vitamin C-nin miqdarı şirənin tərkibinə nisbətən 3 dəfə çoxdur. Həmçinin, şirənin tərkibində tiamin ($B_1$), riboflavin ($B_2$) vitamini, pektin maddəsinin az miqdarda olduğu da məlumdur. Qabığın tərkibi 15% sellüloza, 7,3-8% hemisellülozadan ibarətdir. Ümumilikdə, narda 16 növ amin turşusu aşkarlanıb. Bunlardan 6-sı insan orqanizmi üçün əvəzedilməzdir. Mineral maddələr narın həm qabığında, həm də şirəsində cox zəngindir. Narın şirəsinin tərkibi – dəmir,

DOI: https://doi.org/10.36719/2024/VIII

manqan, mis, kalsium, fosfor, silisium, maqnezium, alüminium, xrom, litium və s. mikroelementlərin deposudur.

Narın meyvələrindən  şirə istehsal olunduqdan sonra toxumlarıda  öz zəngin tərkibinə görə emal olunur. Toxumun tərkibi piy, nişasta, sellüloza, azot maddələri, kül maddəsindən ibarətdir.

Azərbaycan ərazisində mədəni və yabanı yetişdirilən narın insan orqanizmi və onun sağlamlığı üçün böyük əhəmiyyəti var. Bitki respublikamızın iqlim şəraitinə çox yaxşı uyğunlaşdığından meyvəsi və qabığı ta qədim zamanlardan xalq təbabətində geniş istifadə edilib. Nar bitkisi elmi təbabətə Hindistan təbiblərinin köməyi ilə 1807-ci ildə daxil edilmişdir. İnsanlar ürək-damar sistemi, böyrək xəstəlikləri zamanı bitkinin meyvə şirəsindən istifadə etməyə üstünlük vermişlər. Həzm sistemi, mədə-bağırsaq, ürək bulanma, sinqa xəstəliyində, orqanizmin möhkəmlənməsində, diş əti qanamalarında, iltihabi proseslərdə, qan azlığında, susuzluğun  yatırılmasında göstərdiyi müsbət təsiri haqqında geniş məlumat əldə etmişlər. Azərbaycanın yabanı meyvə bitkiləri ilə zəngin olan meşələrində bitən cır narın tərkibindəki limon turşusundan qan köçürmə üçün böyük əhəmiyyət kəsb edən “natrium-sitrat” preparatının alınmasında, limon turşusundan yeyinti sənayesində istifadə edilir. Meyvələrindən yanıqlarda, malyariya xəstəliklərində, bitkinin köklərindən isə qurdqovucu vasitə kimi istifadə üsulları bu günümüzə gəlib çatıb. Kökün tərkibində tianin, alma turşusu, pektin, sellitrin və s. aşkar edilmişdir. Bitkinin çoxillik qırmızı məxməri çiçəklərə sahib olması parklarda, bağlarda ondan dekorativ ağac növü kimi istifadə etməyə imkan verir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 136-137
VII Collection of Theses on “Scientific Sources” / 136-137
DOI: https://doi.org/10.36719/2024/VIII

**Ruhəngiz İmanova**
Azərbaycan Tibb Universiteti
magistrant
imanovaruhengiz85@gmail.com
**Həqiqət Qədirova**
Azərbaycan Tibb Universiteti
tibb elmləri doktoru
dr.kadyrovah@gmail.com

# RESPİRATOR BAKTERİAL İNFEKSİYA TÖRƏDİCİLƏRİNİN NÖV VƏ ANTİMİKROB PREPARATLARA DAVAMLILIQ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər :*** *mikroorqanizmlər, pnevmoniya, rezidentlik, antimikrob, respirator bakteriya infeksiyaları*
***Keywords:*** *microorganisms, pneumonia, residency, antimicrobial, respiratory bacterial infections*

Respirator xəstəliklər bütün dünyada geniş yayılmışdır. Bu xəstəliklər müxtəlif mikroorqanizmlər tərəfindən törədilir və bakterial infeksiya törədicilərinin də rolu burada kifayət qədər böyükdür.

İstər uşaqlar, istərsə də böyüklər arasında geniş yayılmış bu xəstəliklərə görə 5 yaşa qədər uşaqların ölüm səbəblərinin 22%-ni bakteriyalar tərəfindən törədilən pnevmoniyalar təşkil edir. Ən çox rast gəlinən respirator bakterial infeksiyalar *S.pneumoniae, S.pyogenes, H.influenzae, M.catarrhalis, S.aureus, A.baumannii K.pneumoniae, P.aeruginosa, M.pneumoniae* tərəfindən törədilir.

Bu patogenlər daha çox pnevmoniyalara səbəb olsa da, müxtəlif digər respirator xəstəliklər də törədirlər. Yanaşı gedən xəstəliklər olduqda ağırlaşma hallarına daha çox rast

DOI: https://doi.org/10.36719/2024/VIII

gəlinir. Hazırda dünya səhiyyəsinin aktual problemi olan tibbi xidmətlərlə əlaqəli infeksiyalar arasında respirator infeksiyalar geniş yer tutublar.

Hər bir törədicinin kifayət qədər patogenliyi yüksək olduğu kimi, onların müalicəsində tətbiq olunan antibiotiklərə də davamlılığı son vaxtlar durmadan artmaqdadır. Getdikcə ciddi bir hal alan antibiotik rezidentliyi bütün dünya tibb ictimaiyyətini narahat edir. Xüsusilə *K.pneumoniae və P.aeruginosa* törədicilərinin antibiotiklərə davamlı ştammlarının patologiyada rolu artmaqdadır.

Ölkəmizdə də antimikrob dərmanlara rezidentlik narahat edən problemlər siyahısındadır və bu məsələ tibb işçilərinin diqqət mərkəzindədir. Xüsusilə tibb xidmətləri ilə əlaqədar olan pnevmaniyalar bura aiddir. Buna görə də, onları törədən mikroorqanizmlərin növlərini, yayılma tezliyini və antimikrob preparatlara davamlılıq spektrinin mütamadi olaraq təyin edilməsi yüksək elmi və praktiki əhəmiyyət kəsb edir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 138-139
VII Collection of Theses on “Scientific Sources” / 138-139
DOI: https://doi.org/10.36719/2024/VIII

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Elshan Nasirov**
Bakı Biznes Universiteti
magistrant
elshannasirov2@gmail.com

# ELECTRIC POWER INDUSTRY OF THE REPUBLIC OF AZERBAIJAN

***Keywords:*** *electric power industry, strategic roadmaps, energy system, annual growth, the Republic of Azerbaijan*
***Açar sözlər:*** *elektrik enerjisi sənayesi, strateji yol xəritələri, enerji sistemi, illik artım, Azərbaycan Respublikası*

Throughout history, the energy sector of the Republic of Azerbaijan has been a dynamically developing industry and plays a dominant role in the South Caucasus region.

In the last decade period, the factor of hydrocarbon exports has been the main driving force of economic growth, but the main task at the current stage is to achieve accelerated development of the non-oil sector, increase the efficiency and competitiveness of the economy, ensure its progress on an innovative basis.

In order to deeply analyze the current state of the economy and prepare a new economic development strategy to ensure the sustainability of the economic policies and reforms implemented in the country by presidential decree of the Republic of Azerbaijan dated December 6, 2016 No. 1138,

DOI: https://doi.org/10.36719/2024/VIII

strategic road maps for the national economy and main sectors were approved economy.

The strategic roadmaps include an economic development strategy and action plan for 2017-2020, a long-term view for the period up to 2025 and a target view for the period after 2025. One of the strategic roadmaps is the “Strategic roadmap regarding the development of public services (electricity and heat, water and gas) in the Republic of Azerbaijan.” A program for the development of the energy sector of the Republic of Azerbaijan for 2017-2030 is being developed. It provides for an annual increase in electricity consumption of 4%.

A connection has been created between the energy system of the Republic of Azerbaijan and the energy systems of the Russian Federation, Georgia, Iran, and Turkey. This is also one of the serious factors contributing to the further development of relations between countries and the preservation of peace, stability, and security in the region.

DOI: https://doi.org/10.36719/2024/VIII

**Ilkin Hazizade**
Baku Higher Oil School
bachelor student
ilkin.hazizade.std@bhos.edu.az

# FISHBONE DRILLING IN THIN LAYERS

***Keywords:*** *titanium, stainless steel 304, fishbone drilling, cross-sectional design, water production*
***Açar sözlər:*** *titan, 304 marka paslanmaz polad, balıq sümüyü qazma üsulu, en kəsiyi dizaynı, su hasilatı*

In the petroleum industry, vertical wells predominate. However, when it comes to thin reservoirs drilling vertical wells is not cost-effective. Thin reservoirs are being exploited by fishbone drilling which is one of the types of directional drilling. Several 12 m long branches that are connected to the main wellbore are drilled. This type of drilling is called fishbone drilling due to its structure resembling fish skeleton. However, this method is not implemented in Azerbaijan. In our research we investigated the implementation of this technique in Azerbaijan as well as suggested some changes for improving the fishbone drilling method itself.

Firstly, it is worth to mention that this method is being implemented worldwide, particularly in the United Arab Emirates and North Sea. In UAE production of a certain well increased for 4 times after the implementation of this method. Furthermore, a well in the North Sea experienced 2-3 times increase in its hydrocarbon production as well. The proportion of increase in production can vary as the number of thin reservoirs are different in each field. Application of this technique in Azerbaijan is feasible due to the presence of thin

DOI: https://doi.org/10.36719/2024/VIII

hydrocarbon reservoirs. Bibi-Heybat field is an example of such fields where thin layers the depth of which are less than 100 ft (30 m) are present (1).

Moreover, the material of pipes can be changed. Currently material of the 12-meter-long branches is chosen to be titanium; however, using stainless steel 304 would be more economically beneficial. Taking into account that titanium is nearly 10 times more expensive than stainless steel 304 this change will decrease costs significantly, and it will not affect the quality of the pipe too much (2).

Furthermore, as it is known water production is a serious problem in fields of Azerbaijan (3). With the aim of reducing excessive water production cross-sectional design of the fishbone can be changed so that the number of needles coming out of the main wellbore should be decreased to 3 and angle between the all 3 needles should be 120°.

## References

1. https://dir.indiamart.com/search.mp?ss=304+stainless+steel+pipe&src=as-popular%3Akwd%3Dstainlesssteelpipe%3Apos%3D2%3Acat%3D185%3Amcat%3D191860&prdsrc=1&mcatid=191860&catid=185&stype=attr=1|attrS&res=RC3
2. https://dir.indiamart.com/search.mp?ss=titanium+pipes&mcatid=179971&catid=489&prdsrc=1&stype=attr=1|attrS&res=RC3
3. https://www.azahner.com/resources/metal-hardness

VIII "Elmi Qaynaqlar" Tezislər Toplusu / 142-146
VII Collection of Theses on "Scientific Sources" / 142-146
DOI: https://doi.org/10.36719/2024/VIII

**Nazlı Gondolova**
Azərbycan Memarlıq və İnşaat Universiteti
magistrant
gondolovanazli98@gmail.com

# TİKİNTİ MƏHSULLARININ KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ SOSİAL-İQTİSADİ AMİLLƏR

***Açar sözlər:*** *keyfiyyət, məhsul, müştəri, faydalılıq, material*
***Keywords:*** *quality, product, customer, utility, material*

Tikinti məhsullarının keyfiyyətinin idarə edilməsində sosial-iqtisadi amillər də nəzərə alınmalıdır. Bu amillər, bir şəhər və ya ölkənin sosial və iqtisadi mühiti, əhalinin tələbləri, tikinti standartları, əmtəə fəaliyyəti və s. kimi faktorları əhatə edir. Tikinti məhsullarının keyfiyyəti binanın davamlılığına, təhlükəsizliyinə, estetikasına və uzunömürlülüyünə böyük təsir göstərir. Keyfiyyətli taxta məmulatları strukturun möhkəmliyini və dayanıqlığını təmin edir, beləliklə də zamanla binanın aşınması və çökməsi riskini azaldır. Kanalizasiya məhsullarının keyfiyyətini müəyyən edən bəzi amillər bunlardır (Berdnikova, 2001):

*Material seçimi*: Binanın tikintisi üçün istifadə olunan materialların keyfiyyəti çox vacibdir. Yüksək keyfiyyətli beton, polad, taxta, kərpic, keramika və s. materiallar strukturun davamlılığını və uzunömürlülüyünü təmin edir.

Funksiya: Birincisi, materialın hansı məqsədlə istifadə olunacağına qərar verilməlidir. Məsələn, konstruktiv elementlər üçün beton və ya polad üstünlük verilir, daxili bəzək üçün ağac və ya keramika kimi materiallar daha uyğundur.

Davamlılıq: Seçilmiş materialın davamlılığı layihənin uzunömürlülüyü üçün vacibdir. Quruluşun yerindən və ətraf

DOI: https://doi.org/10.36719/2024/VIII

mühit şəraitindən asılı olaraq, materialın suya, rütubətə, temperatura, yanğına və digər xarici amillərə qarşı müqaviməti nəzərə alınmalıdır.

Estetik: Material seçimi layihənin görünüşünə və estetikasına əhəmiyyətli dərəcədə təsir göstərir. Materialların rəngləri, fakturaları və naxışları tikintinin məqsədinə və dizaynına uyğun seçilməlidir.

Ətraf mühitə təsir: Ətraf mühitin davamlılığı getdikcə daha vacib olur. Buna görə təkrar emal edilə bilən, bərpa olunan və ya ekoloji cəhətdən təmiz materiallardan istifadəyə üstünlük verilməlidir.

*İstehsal standartları*: Tikinti məhsullarının istehsalında istifadə olunan standartlar məhsulların keyfiyyətini müəyyən edir. İstehsal keyfiyyətə nəzarət və standartlara uyğun aparılarsa, məhsulların daha etibarlı və davamlı olacağı ehtimalı var.

İstehsal standartları məhsulların dizaynı, istehsalı, sınaqdan keçirilməsi və sertifikatlaşdırılması üçün müəyyən edilmiş meyarlardır. Bu standartlar məhsulların keyfiyyətini yaxşılaşdırmaq, istehlakçıların təhlükəsizliyini təmin etmək, ətraf mühitə təsirləri azaltmaq və ticarəti asanlaşdırmaq məqsədi daşıyır. Budur bəzi ümumi istehsal standartları (Kazinets, 1963):

ISO 9001: Keyfiyyət İdarəetmə Sistemi (QMS) üçün Beynəlxalq Standartlar Təşkilatı (ISO) tərəfindən müəyyən edilmiş standartdır. ISO 9001 biznesə keyfiyyətin idarə edilməsini təkmilləşdirməyə kömək edir, davamlı təkmilləşdirməni təşviq edir və müştəri məmnuniyyətini artırır.

ISO 14001: Ətraf Mühitin İdarəetmə Sistemi (EMS) üçün ISO standartı. ISO 14001 müəssisələrə ətraf mühitə təsirlərini azaltmağa, qanuni tələblərə uyğunluğu təmin etməyə və davamlılığını artırmağa kömək edir.

DOI: https://doi.org/10.36719/2024/VIII

ISO 45001: Bu, İş Sağlamlığı və Təhlükəsizliyi İdarəetmə Sistemi (OHSMS) üçün ISO standartıdır. ISO 45001 müəssisələrə əməyin mühafizəsi və təhlükəsizlik göstəricilərini yaxşılaşdırmağa və istehsalat qəzaları və peşə xəstəliklərinin qarşısını almağa kömək edir.

UL Sertifikasiyası: UL (Underwriters Laboratories) məhsulun təhlükəsizliyini və uyğunluğunu yoxlamaq üçün istifadə edilən Amerika standartları təşkilatıdır. ABŞ və digər bazarlarda satılacaq bir çox məhsul üçün UL sertifikatı tələb olunur.

ASTM Standartları: ASTM International bir çox sənayelər üçün material xüsusiyyətləri, sınaq metodları və performans meyarları kimi standartlar hazırlayır. ASTM standartları bir çox ölkədə və sənayedə qəbul edilmiş beynəlxalq standartlardır.

BSI Standartları: Britaniya Standartlar İnstitutu (BSI) Böyük Britaniyada istifadə olunan bir sıra standartlar hazırlayır.

Bu standartlar məhsulların etibarlılığını, keyfiyyətini və təhlükəsizliyini təmin etmək üçün istifadə olunan ümumi üsullardır. İstehsal prosesində bu standartlara əməl olunması məhsulların bazarlığını artıra və istehlakçılarda inam yarada bilər.

Tikinti məhsullarının keyfiyyətinin idarə edilməsində sosial-iqtisadi amillərə dair bəzi əhəmiyyətli məsələlər:

1.Müştəri Tələbləri və İstəkləri:

Tikinti məhsullarının keyfiyyəti, müştəri tələblərini və istəklərini anlamaq və başa düşmək üçün əsasən sosial amillər əsasında qurulur. Hər bir tikinti məhsulu, konkret sakinlərin, müəssisələrin və ya digər istifadəçilərin tələbləri ilə uyğun olmalıdır.

2.Yerli Tikinti Standartları və Qaydalar:

DOI: https://doi.org/10.36719/2024/VIII

Hər ölkə və region özünəməxsus tikinti standartları və qaydaları tətbiq edir. Bu standartlar, tikinti məhsullarının hazırlanmasında və istifadəsində sosial-iqtisadi təhlükəsizliyi təmin etmək üçün əhəmiyyətlidir.

3.Tikinti Sənayesinin İqtisadi Mövqeyi:

Tikinti sənayesinin ümumi iqtisadi mövqeyi, məhsulların keyfiyyəti və faydalılığını təyin edir. İnşaat sektorunun inkişaf etməsi və sabitləşməsi, sosial-iqtisadi əhəmiyyətə malikdir.

Tikinti sənayesi, bir ölkənin iqtisadi mövqeyinə təsir edən böyük sektorlardan biridir. Bu sektor, mənzil və ofis binalarının tikintisi, yol və körpülər, energetika infrastrukturunun inkişafı, kommunikasiya və layihələr kimi geniş spektrumda fəaliyyət göstərir. Tikinti sənayesi, bir ölkədə iqtisadiyyatın genişlənməsinə, mənfəət artımına və iş yaradılmasına imkan verir.

4.Əmək Mühitini Qorumaq:

İnşaat fəaliyyətləri əmək mühitinə təsir edə bilər. Sosial-iqtisadi amillər əsasında əmək mühitinin qorunması, işçilərin sağlamlığı və iş təhlükəsizliyi üçün əhəmiyyətlidir.

İnşaat fəaliyyətlərində əmək mühitini qorumaq, işçilərin sağlamlığını və təhlükəsizliyini təmin etmək, həm də ətraf mühiti qorumaq üçün əhəmiyyətli bir məsələdir (Kovalev, 1997). Bu, təhlükəsiz iş şəraitlərinin yaradılması, müxtəlif risklərə qarşı tədbirlər alınması və çevrəmə mərhələli mərhələdə yaxınlaşmağı əhatə edir.

5.Məhsulların Sürətli İstehsalı və İşin yekunlaşması:

İnşaat proseslərinin sosial mühiti və işin yekunlaşması, tikinti məhsullarının sürətli istehsalını və texniki keyfiyyətini təmin etməkdə əhəmiyyətlidir.

Əmtəə fəaliyyəti və iş təhlükəsizliyi proseslərinin əsasını təşkil edən mərhələ, müəyyən bir iş sahəsindəki təhlükələrin

DOI: https://doi.org/10.36719/2024/VIII

qiymətləndirilməsidir (Kovalev, Volkova, 2000). Bu, işçilərin mövcud risklərdən qorunmağa kömək edir.

6.Toplum Tərəfindən Qəbul Olunma:

Tikinti məhsullarının sosial-iqtisadi perspektivdə qəbul olunması, onların istifadə ediləcəyi mühitdə və ya toplumda tərəfdaşlar tərəfindən sosial olaraq dəyərləndirilməsi geniş bir əhəmiyyətə malikdir.

Tikinti məhsullarının sosial-iqtisadi perspektivdə qəbul olunması, bir cəmiyyətdə inkişaf etmiş və sürətli dəyişən tələblərə cavab verən, keyfiyyətli və müasir tikinti məhsullarının istehsal edilməsi və tətbiq edilməsi prosesini əhatə edir. Sosial-iqtisadi perspektivdə, tikinti məhsulları, iş sahəsinin inkişafına, iş yaradılmasına, əmək təminatına, energetika effektivliyinə və əmək mühitinin qorunmasına təsir edir.

## Ədəbiyyat

1. Berdnikova, T.B. (2001). Analiz i diagnostika finansovo-khozyaistvennoi deyatel'nosti predpriyatiya. M.: INFRA-M.
2. Kazinets, L.S. (1963). Teoriya indeksov. M.: Gosstatizdat.
3. Kovalev, V.V. (1997). Finansovyi analiz: Upravlenie kapitalom. Vybor investitsii. Analiz otchetnosti. M.: Finansy i statistika.
4. Kovalev, V.V., Volkova, O.N. (2000). Analiz khozyaistvennoi deyatel'nosti. M.: Prospekt.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 147-148
VII Collection of Theses on “Scientific Sources” / 147-148
DOI: https://doi.org/10.36719/2024/VIII

**Murad Ağababayev**
Sumqayıt Dövlət Universiteti
magistrant
agababayevmurad@gmail.com

# TlIn1-x$Se_2$ KRİSTALLARININ SİNTEZİ

***Açar sözlər:*** *bərk məhlullar, sintez üsulu, zona əritmə, kristal, termoqramma*
***Keywords:*** *solid solutions, method of synthesis, zone melting, crystal, thermogram*

$TlIn_{1-x}Se_2$ kristallarının sintezi üçün istifadə olunan elementlərin təmizlik dərəcəsi aşağıdakı kimi olmuşdur: Tl-99,999%, İn-99,9999%, Se- xüsusi təmiz, nadir torpaq elementləri (NTE) Cu- 0,01% , Fe- 0,01%.

Tədqiq olunan sistemdə aşkar edilmiş birləşmə və bərk məhlullar birbaşa sintez üsulu ilə alınmışdır. Sintez xüsusi olaraq təmizlənmiş kvars ampulalarda aparılmışdır. Bunun üçün ampula içərisinə $K_2Cr_2O_7$ + $H_2SO_4$ qarışığı doldurulmuş, 2 gün müddətində saxlanılmış və distilə olunmuş su ilə diqqətlə yuyulduqdan sonra qapalı sobada qurudulmuşdur. Bundan sonra stexiometriyaya müvafiq olaraq kristallar 0,0133 Pa tərtibində havası sorulmuş ampulada sintez edilmişdir.

Sintez 2 mərhələdə aparılmışdır: birinci müvafiq elementlərin qarışığı 60-70K/saat sürətlə 1500K temperatura qədər qaldırılır və bu temperaturda tərkibindən asılı olaraq 10-13 saat saxlanılır, ikinci, temperatur 1300K-ə qədər azaldıqdan sonra, ərinti həmin temperaturda 5-6 saat saxlanılır və bundan sonra 5 saat ərzində otaq temperaturuna qədər soyudulur.

Məlumdur ki, maddə qızdırılarkən əvvəlcə lokallaşmamış elektronların istilik həyəcanlanması, sonra dayanıqlı enerji

DOI: https://doi.org/10.36719/2024/VIII

konfiqurasiyalarındakı lokallaşmış elektronların həyəcanlanması baş verir. Tav alma prosesi tavalmaya məruz qalan maddənin sərbəst enerjisinin azalmasına, bu da atomların elektron konfiqurasiyalarının stabilləşməsinə səbəb olduğundan, aşkardır ki, tav alma atomlarının statistik çəkisi ən az olan maddələrdə daha intensiv getməlidir. Ona görə də maddələrin tav alma dərəcəsinin aşağı olmasını onlardakı kimyəvi rabitənin kovelentlik dərəcəsi ilə əlaqələndirirlər.

Tav alınması yaxşı olan maddələrdə bu proses birinci mərhələdə baş verir, çünki həmin halda maddədə kifayət qədər lokallaşmamış elektronlar olur. Tav alınması çətin olan maddələrdə isə bu proses ikinci mərhələdə, yəni lokallaşmış elektronların konfiqurasiyalarının pozulması zamanı baş verməlidir. Təbiidir ki, belə maddələrin tav alması üçün çox yüksək temperaturlar tələb olunur. Tədqiqat obyekti olan $TlSe_2$ və $TlİnSe_4$ birləşmələrində tav alma çox çətin gedir.

$TlInSe_2$, $TlSe_2$ və $TlInSe_4$ birləşmələrinin əmələ gəlmə xarakterlərini aydınlaşdırmaq üçün əvvəllər istifadə olunan üsuldan, yəni sintez prosesinin termoqrammasının analizi üsulundan istifadə edilmişdir. Termoqrammalar NTR- 72 markalı pirometrdə yazılmışdır. Termoqrammaları almaq üçün qarışığın miqdarı bütün tərkiblər üçün 2q, qızdırmanın sürəti 10 dər/dəq olmuşdur. $TlInSe_2$ birləşməsinin termoqrammasında 530,565 və 1080 K temperaturlarda üç ekzoeffekt müşahidə olunmuşdur. Birinci iki effekt müvafiq olaraq $In_2Se$ və $Tl_2Se$ birləşmələrinin, üçüncü effekt isə $TlInSe_2$ birləşməsinin əmələ gəlməsinə uyğun gəlir.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 149-153
VII Collection of Theses on “Scientific Sources” / 149-153
DOI: https://doi.org/10.36719/2024/VIII

**Şahin Ələkbərli**
Azərbycan Memarlıq və İnşaat Universiteti
magistrant
alekberlisahin4@gmail.com

# İNŞAAT KONSTRUKSİYALARININ MÜAYİNƏSİ VASİTƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARININ TƏDQİQİ

***Açar sözlər:*** *bina və tikililər, monitorinq, müayinə, diaqnostik metod*

***Keywords:*** *buildings and constructions, monitoring, examination, diagnostic method*

Tikinti monitorinqi tikinti layihələrinin büdcə, qrafik və keyfiyyət tələbləri daxilində uğurla başa çatdırılmasını təmin etmək üçün onlara nəzarət və idarə edilməsi prosesinə aiddir. O, planlaşdırma və layihələndirmənin ilkin mərhələlərindən başlayaraq tikinti və təhvil-təslimatın son mərhələlərinə qədər layihənin gedişatının daimi müşahidəsini, qiymətləndirilməsini və sənədləşdirilməsini əhatə edir

Yoxlama - mövcud vəziyyətin faktiki dəyərlərini, obyektin yararlılığını və işləmə qabiliyyətini müəyyən etmək və qiymətləndirmək və onların gələcək istismarı imkanlarını və ya strukturların gücləndirilməsi və bərpası ehtiyacını müəyyən etmək üçün tədbirlər kompleksidir.

Texniki vəziyyət kateqoriyası - qüsurların və zədələnmələrin təhlükəsi kateqoriyasından asılı olaraq müəyyən edilmiş bina konstruksiyasının və ya bütövlükdə binanın və tikilinin istismara yararlılıq dərəcəsi:

- standart texniki vəziyyət
- istismar texniki vəziyyəti

DOI: https://doi.org/10.36719/2024/VIII

- məhdud istismar texniki vəziyyəti
- qəzalı texniki vəziyyət

Tikintinin texnoloji etibarlılığı tikinti proseslərinin müəyyən edilmiş istehsal şəraitində öz parametrlərini müəyyən edilmiş hədlərdə saxlamaq qabiliyyətidir.

Bina və tikililərin qəzaları təkcə iqtisadi ziyan vurmur, həm də çox vaxt insan tələfatına səbəb olur ki, bu da tikintinin missiyasına əsaslı şəkildə ziddir. Buna görə də, tikinti təhlükəsizliyi məsələsi həmişə mühəndislik problemləri arasında aktuallıq daşıyır. Bina və tikililərin təmiri və istismarında keyfiyyət bu gün aşağıdakı çətinliklərlə üzləşir:

- innovasiyalardan çox fəal istifadə edilməməsi;
- innovasiya sisteminin iştirakçılarının kifayət qədər əlaqələndirilməməsi;
- tikintinin müxtəlif mərhələlərində ziddiyyətlər;
- normativ-texniki sənədlərin problemləri Tikinti məhsullarının keyfiyyətinin idarə edilməsində sosial-iqtisadi amillərə dair bəzi əhəmiyyətli məsələlər:

Bina və tikililərin texniki vəziyyətinin monitorinqi aşağıdakı məqsədlər üçün həyata keçirilir:

- bina və tikililərin texniki vəziyyətinə nəzarət etmək və bu vəziyyətin pisləşməsinə səbəb olan yaranan mənfi amilləri vaxtında aradan qaldırmaq üçün tədbirlər görmək;
- yükdaşıyan konstruksiyaların deformasiya vəziyyətində dəyişikliklərin baş verdiyi və texniki vəziyyətinin yoxlanılması zəruri olan obyektlərin müəyyən edilməsi;
- obyektlərin məhdud istismar vəziyyətinə və ya qəza vəziyyətinə keçməsinə səbəb ola biləcək konstruksiyaların və bünövrə qruntlarının gərginlik-deformasiya vəziyyətində mənfi dəyişiklikləri ilkin mərhələdə

DOI: https://doi.org/10.36719/2024/VIII

vaxtında aşkar etməklə bina və tikililərin təhlükəsiz istismarının təmin edilməsi;

- obyektin texniki vəziyyətinin dəyişmə dərəcəsinə və sürətinə nəzarət etmək və zəruri hallarda onun dağılmasının qarşısını almaq üçün fövqəladə tədbirlər görmək.

Hal-hazırda “innovasiya” termini getdikcə geniş yayılır və getdikcə əhəmiyyət kəsb edir. İnnovasiya termininin müasir tərifi bazarın tələb etdiyi proseslərin və ya məhsulların səmərəliliyinin keyfiyyətcə yüksəldilməsini təmin edən və insanın intellektual fəaliyyətinin, onun təxəyyülünün, yaradıcılıq prosesinin, kəşflərin, ixtiraların və səmərələşdirmənin son nəticəsi olan tətbiq edilmiş yenilikdir. İnnovasiyaya misal olaraq yeni istehlak xassələrinə malik məhsulların (əmtəələrin və xidmətlərin) bazara çıxarılması və ya istehsal sistemlərinin səmərəliliyinin keyfiyyətcə artırılmasıdır.

Tikinti sənayesində innovasiya mühüm rol oynayır, çünki bu sənaye mənfəət, vaxtdan və resurslardan səmərəli istifadə etmək, binaların rahatlığını artırmaq və s. naminə daim mövcud olacaq və təkmilləşəcəkdir. “Müştəri – istehsalçı – istehlakçı” zəncirinin hər bir iştirakçısı özü üçün fayda axtarır. Və tikinti prosesinin bütün iştirakçılarının ehtiyaclarını ödəmək üçün tikintidə innovativ texnologiyalar hazırlanır.

İstər yeni, istərsə də köhnə mənzil fondunun rahatlığının ən mühüm göstəricisi onun enerji səmərəliliyidir. Belə binaların tikintisi və ya yenidən qurulmasında əsas məqsəd ekoloji və iqtisadi cəhətdən əsaslandırılmış innovativ texnologiyalardan istifadə etməklə enerji resurslarından daha səmərəli istifadə etməkdir. Bu məqsədə nail olunur:

- fasadların, döşəmə plitələrinin, dam örtüyünün izolyasiyası;
- pəncərə və qapıların dəyişdirilməsi;
- havalandırma sistemlərinin modernləşdirilməsi;

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 149-153
VII Collection of Theses on “Scientific Sources” / 149-153
DOI: https://doi.org/10.36719/2024/VIII

- istilik sisteminin modernləşdirilməsi;
- istilik və suyun fərdi ölçülməsi (sayğacların quraşdırılması).

Yüksək keyfiyyətli izolyasiya enerji səmərəliliyi problemini 40% həll edir.

Yeniliklərin tətbiqi miqyasını (təkmilləşdirilmiş və ya əsaslı şəkildə yeni beton, tikinti alətləri, avadanlıq, iş texnologiyaları və s.) nəzərə alaraq, fasadların izolyasiyası üçün texnologiyaları və innovativ materialları daha ətraflı nəzərdən keçirək.

Tikinti bazarı bir çox yenilikçi materiallar təklif edir, sadəcə olaraq uyğun olanı seçməlidir. Bina - tikinti konstruksiyalar bazarı bir çox yenilikçi materiallar təklif edir və sadəcə olaraq, onlara uyğun olanı seçməlidir, yəni daha ekoloji cəhətdən təmiz, daha ucuz, yüksək keyfiyyətli texniki xüsusiyyətləri, icazələri və ehtimal ki, tətbiqi təcrübəsi olan avadanlıqlardan istifadə olunmalıdır.

| Məhsul adı | **Xidmət müddəti, illər** |
|---|---|
| **Panellər** | **30** |
| **Venfasad** | **40** |
| **Klinker panelləri** | **50** |
| **Beton siding** | **>50** |
| **Gips fasad** | **40** |
| **Neopor** | **50** |
| **Elastik keramika** | **20** |

Məlum olub ki, beton siding ən davamlı, elastik keramika isə ən qısa xidmət müddətinə malikdir.

Dövlət tikintidə innovasiyaların inkişafına kömək edir və innovativ tikinti proqramlarının həyata keçirilməsini asanlaş-

DOI: https://doi.org/10.36719/2024/VIII

dırır. Ölkədə tələbat və mövcud xammal bazası nəzərə alınmaqla həm daxili, həm də xarici bazarlarda müasir yüksək keyfiyyətli enerjiyə qənaət edən və rəqabətqabiliyyətli tikinti materiallarının, məmulatlarının və konstruksiyalarının istehsalı yaradıldı. Tikinti materialları və sənaye mənzil tikintisi müəssisələri üçün müasir yüksək texnologiyalı avadanlıqların istehsalı üçün maşınqayırma bazası inkişaf etdirilməlidir. Həmçinin tikinti materiallarının istehsalı üçün yeni texnologiyalar tətbiq edən müəssisələrin sayı artırılmalıdır.

İnformasiya texnologiyalarının inkişafı, xüsusən simsiz internetin sürəti və mövcudluğu fonunda strukturların uzaqdan yoxlanılmasından istifadə perspektivləri yaranır. İxtisaslaşdırılmış təşkilatlar sayta baş çəkmədən aparıcı mütəxəssis olmadan müayinə və diaqnostika üsullarını təklif edir və tətbiq edir.

Tədqiqatdan belə nəticə cıxarmaq olar ki, tikintidə innovativ texnologiyalara əsaslanan tikinti elminin inkişaf perspektivlərini təqdim etməyə ehtiyac var. Bina konstruksiyalarının müayinə alətlərinin təkmilləşdirilməsi və yeni innovativ texnologiyalardan istifadənin əhəmiyyəti:

- tikinti sənayesinin keyfiyyətinin yüksəldilməsini;
- təhlükəsizliyin təmin edilməsi və davamlılıq məqsədlərinə nail olmağı;
- bina konstruksiyalarının daha etibarlı, davamlı və ekoloji cəhətdən təmiz olmasını təmin edir.

.

VIII “Elmi Qaynaqlar” Tezislər Toplusu / 154-159
VII Collection of Theses on “Scientific Sources” / 154-159
DOI: https://doi.org/10.36719/2024/VIII

**Asəf Hacıyev**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
haciyevasef49@gmail.com

# İNVESTİSİYA VƏ TİKİNTİ LAYİHƏLƏRİNİN PLANLAŞDIRILMASI SƏVİYYƏLƏRİNİN NƏZƏRİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *tikinti, investisiya, layihə, plan, sənaye*
***Keywords:*** *construction, investment, project, plan, industry*

Tikinti maddi istehsalın bir sahəsidir, onun əsas məhsulu hazır tikinti layihələri və tikinti-quraşdırma işlərinin nəticələri-dir. Tikinti sənayesi iqtisadiyyatın layihə fəaliyyətlərinin inkişaf etdirildiyi, xarici investisiyalar da daxil olmaqla əhəmiyyətli həcmdə investisiyaların həyata keçirildiyi bir neçə sektorundan biridir.

Məqalənin məqsədi tikinti sektoru ilə bağlı investisiya layihələrinin mahiyyətinin tədqiqidir. Burada investisiya və tikinti layihələrinin planlaşdırılması daxil olmaqla investisiya və tikinti layihələrinin planlaşdırılması səviyyələrinin nəzəri əsaslarının təhlili verilir.

Məqalədə investisiya və tikinti layihəsinin idarə edilməsi müəyyən bir layihənin strateji məqsədi və əməliyyat məqsədləri şəbəkəsi ilə əlaqəli bir proses olduğu göstərilir. İstənilən investisiya və tikinti layihəsinin əsas məqsədi investorun maddi mənfəət, eləcə də qeyri-maddi fayda əldə etməsidir.

İnvestisiya və tikinti layihəsinin həyata keçirilməsi nəticəsində əldə edilən məhsul təkcə iştirakçılar zəncirinin

DOI: https://doi.org/10.36719/2024/VIII

bütün halqaları və ilk növbədə investor üçün gəlir mənbəyi deyil, həm də büdcə gəliri mənbəyidir.

İnvestisiya və tikinti layihəsinin əsas məqsədi mənfəət əldə etmək üçün yeni obyektin yaradılması və ya mövcud obyektin modernləşdirilməsidir. Layihə müxtəlif sahələrə aid ola bilər, məsələn, yaşayış əmlakı, kommersiya daşınmaz əmlakı, infrastruktur və s.

Layihənin planlaşdırılması proseslərinin həyata keçirilməsinin nəticəsi olan təqvim planları və qrafiklər sistemi idarəetmə səviyyələrindən asılı olaraq dəyişən məlumatların toplanması xassələrinə malik olan piramidal struktur təşkil etməlidir (şək.1). Layihənin həyata keçirilməsi planları sistemi bütün planlaşdırma prinsiplərinə uyğun olmalıdır və faktiki və planlaşdırılmış məlumatları müqayisə etmək, habelə zəruri hallarda layihənin icra parametrlərini tənzimləmək imkanı təmin etməlidir (Arayici, Khosrowshahi, Ponting, & Mihindu, 2019).

Qısamüddətli idarəetmə üçün müfəssəl iş planına uyğun olaraq birbaşa icraçılar tərəfindən gündəlik işlərin yerinə yetirilməsi səviyyəsinə qədər, lakin faktiki yerinə yetirilən iş mütləq nəzərə alınmaqla, operativ planlaşdırma tələb olunur. Operativ planda qəbul edilən qərarlar təsdiq edilmiş müfəssəl təqvim planından mənfi kənarlaşmaların tam və ya qismən aradan qaldırılmasına səbəb olmalıdır.

Layihə strategiyası - layihə üçün qarşıya qoyulmuş bütün məqsədlərə nail olmaq üçün tamamlanmalı olan iş mərhələlərinin və aralıq nəticələrin müəyyən edilməsidir. Buna görə də, genişləndirilmiş (strateji) planın hazırlanmasından əvvəl layihənin məqsədləri aydın şəkildə müəyyən edilməlidir. Layihənin konkret məqsədləri həyata keçirildikcə düzəldilə və dəyişdirilə bilməsinə baxmayaraq, strateji məqsədlər layihənin bütün mərhələləri ərzində dəyişməz qalmalıdır.

DOI: https://doi.org/10.36719/2024/VIII




**Şəkil1. İnvestisiya və tikinti layihəsinin planlaşdırma səviyyələri arasında əlaqələr**

Layihə strategiyası - layihə üçün qarşıya qoyulmuş bütün məqsədlərə nail olmaq üçün tamamlanmalı olan iş mərhələlərinin və aralıq nəticələrin müəyyən edilməsidir. Buna görə də, genişləndirilmiş (strateji) planın hazırlanmasından əvvəl layihənin məqsədləri aydın şəkildə müəyyən edilməlidir. Layihənin konkret məqsədləri həyata keçirildikcə düzəldilə və dəyişdirilə bilməsinə baxmayaraq, strateji məqsədlər layihənin bütün mərhələləri ərzində dəyişməz qalmalıdır.

Genişləndirilmiş (strateji) plan layihənin həyata keçirilməsi üçün bir neçə alternativ variantdan birini seçdikdən dərhal sonra vaxtında hazırlanmalıdır. Layihənin həyata keçirilmə-sinin məqsədləri, məzmunu və əsas mərhələləri və taktiki planlaşdırmaya keçid haqqında tam anlayış əldə etmək üçün genişləndirilmiş planı diqqətlə hazırlamaq lazımdır.

Strateji layihənin planlaşdırılması üçün ilkin məlumatlar layihənin missiyası, məqsəd və vəzifələridir.

Uğurlu strateji layihə planlaması üçün tələb olunan tədbirlər:

• xarici faydaların proqnozlaşdırılması (coğrafiya, yerli hakimiyyət orqanları, mədəniyyət, bazarlar, layihə iştirakçıları, maliyyə mənbələri və s.);

• daxili üstünlüklərin proqnozlaşdırılması (idarəetmə, personal, maşın və avadanlıqlar, texnologiya və s.);

• məlumat bazasının formalaşdırılması (əvvəlki layihələrin həyata keçirilməsi təcrübəsi, mövcud vəziyyət, proqnozlaşdırma və s.);

• qiymətləndirmələr (üstünlüklər və çatışmazlıqlar, rəqiblər və s.).

Layihənin strateji planlaşdırılması nəticəsində genişlənmiş (strateji) plan formalaşdırılmalı, sonradan taktiki iş planlarına qədər təfərrüatlar verilməlidir. Strateji planlaşdırma üçün tez-tez SWOT təhlili metodundan istifadə olunur, bunun əsasında müəyyən bir layihənin həyata keçirilməsi strategiyası seçilir.

Layihələrin idarə edilməsi Azərbaycan şirkətlərində yeni tendensiyadır, bunu Azərbaycan Layihələrin İdarə Edilməsi Assosiasiyasının (AzPMA) məlumatları sübut edir. 2014-cü ilin yekunlarına əsasən, Azərbaycanda 24 menecer layihənin idarə edilməsi üzrə beynəlxalq IPMA sertifikatı alıb ki, bu da son illərin ən yüksək göstəricisidir. Bu sənəd rəsmi IPMA sertifikatlaşdırma orqanı olan AzPMA tərəfindən verilir və sertifikat dünyanın 58 ölkəsində tanınır.

Azərbaycanda sərmayədarların neft hasilatından ildə əldə etdikləri mənfəət digər sənaye sahələrindən daha çox olduğundan, xarici investorların iqtisadiyyatın digər sahələrinə qarşı ətaləti də bu səbəbdəndir ki, bu da əsas fondların yüksək dərəcədə xarab olması səbəbindən böyük investisiyalar tələb edir. Üstəlik, bu sahələrə qoyulan investisiyaların qaytarılması neft sektoruna nisbətən daha uzun müddətə davam edir. Xarici

DOI: https://doi.org/10.36719/2024/VIII

investorlar tərəfindən investisiyaların stimullaşdırılması üçün investisiya layihələrinin həcminə və əhəmiyyətinə görə maliyyə resursları müəyyən edilməli, onlar 5 qrupa bölünməli və buna uyğun olaraq vergi dərəcələri fərqləndirilməlidir. 100 milyon dollara qədər və 1 milyarddan yuxarı investisiya layihələri üçün 3 ilə qədər vergi məzuniyyətinin verilməsi məqsədəuyğundur; 100 milyondan 300 milyona qədər - dərəcələri 10-15% müəyyən etmək; 300 milyondan 500 milyona qədər - 15-20%; 500 milyondan 1 milyard dollara qədər - 18-20% (Azhar, Hein, and Sketo (2018). İnvestisiya və tikinti layihəsinin idarə edilməsi müxtəlif sahələrdə yüksək ixtisas və bilik tələb edən mürəkkəb və məsuliyyətli prosesdir. Layihəni uğurla başa çatdırmaq və onun həyata keçirilməsindən qazanc əldə etmək üçün layihənin hər bir mərhələsi xüsusi diqqət və planlaşdırma tələb edir. Layihənin idarə edilməsi üçün tələb olunan əsas bacarıqlara planlaşdırma, komanda idarəetməsi, iqtisadi biliklər və tikinti texnikası üzrə biliklər daxildir (Lapidus, Shesterikova, 2019). Layihənin bütün mərhələləri düzgün təşkil olunarsa və həyata keçirilərsə, işin nəticəsi layihənin uğurla başa çatması və onun həyata keçirilməsindən qazanc olacaqdır.

## Ədəbiyyat

1. Arayici, N.Y., Khosrowshahi, F., Ponting, A. M., & Mihindu, S.R. (2019). "Towards implementation of building information modeling in the construction industry".
